Xalqın qəzeti!

# Xalq qəzeti

№ 55 (31024) 3 aprel 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycanın İrana humanitar yardımı davam edəcək

**Aprelin 2-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Məsud Pezeşkian Azərbaycanın İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev ölkəmizin İrana göstərdiyi humanitar yardımın davam edəcəyini deyib, yaxın zamanlarda növbəti humanitar yardımın göndəriləcəyini vurğulayıb.

İranda vəziyyətin gərginləşməsindən narahatlığını ifadə edən dövlətimizin başçısı həlak olan İran vətəndaşlarına Allahdan rəhmət diləyib.

Prezident İlham Əliyev qarşıdurmanın tez bir zamanda sona çatmasını arzuladığını bildirib.

Telefon söhbəti zamanı regionda sülhün tezliklə əldə olunmasının zəruriliyi vurğulanıb.

*Prezidentin Mətbuat Xidməti*

# Türk Dövlətləri Təşkilatı nüfuzlu beynəlxalq quruma çevrilir

## Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazı, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyevi, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyevi, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üsteli və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## TDT-nin Bakı görüşü və Orta Dəhliz

Səhifə ⇨ 5

## Qərbdə və Şərqdə silahları kim susduracaq?



Səhifə ⇨ 7



## Aprel 2016: işğalçı Ermənistana "ayılmaq" dərsi

Səhifə ⇨ 7

## Yaxın Şərqdə "raket yağışı" daha da şiddətlənib



Səhifə ⇨ 15

# Overçukun Ermənistanı təhdid tonu

## *Rusiya baş nazirinin müavini İrəvana nəyi xatırladır?*

**Rusiya Baş nazirinin müavini Aleksey Overçukun Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvaya səfəri əsnasında səsləndirdiyi fikirlər maraq doğurub. Əslində, cənab Overçuk TASS-a müsahibəsində böyük ölçüdə yeni söz deməyib. O, sadəcə, Ermənistanla bağlı düşüncələrini təzələyib. Amma mövzuya sərt ritorika qatmağı da unutmayıb. Overçukun bildirdikləri fonunda diqqət yetirmək istədiyimiz məqamlardan biri var ki, onu sonda açıqlayacağıq. Hələlik digər məqamlardan söz açaq.**



Ümumən, Paşinyanın səfəri əsnasında yüksək ranqlı Rusiya rəsmisinin Ermənistana yönəlik fikirlərindəki amiranə ton erməni hökumət rəhbərinin Moskva danışıqlarının müsbət məcrada keçmədiyindən xəbər verir ki, bunu digər nüanslardan da duymaq mümkündür. O zaman sual olunur: Paşinyan Rusiyaya nə üçün getmişdi? Hər halda, getməyə, ölkə rəhbərliyi ilə görüşməyə bilərdi. Deməli, ortada başqa nə isə var. Nə var, bu, qeyri-müəyyəndir.

*(ardı 6-cı səhifədə)*

## Türk dünyası vahid coğrafiyada bütövləşir



Səhifə ⇨ 5

## Ölkəmizin tranzit gələcəyi



**Cənubi Qafqazda uzun illər davam edən münaqişə və sərhəd blokadaları regionda normal ticarət əlaqələrini demək olar ki, tam dondurmuşdu. İndi vəziyyət kökündən dəyişir. 2025–2026-cı illərdə açılan yeni tranzit marşrutları yalnız iqtisadi baxımdan deyil, həm də siyasi dialoq və sülh prosesinin praktik ifadəsi kimi önəm daşıyır.**

*(ardı 6-cı səhifədə)*

## Bakı-Lissabon: Avrasiyada yeni geostrateji körpü



Səhifə ⇨ 8

## "Abşeron" yatağının tammiqyaslı işlənməsinə hazırlıq



Səhifə ⇨ 9

## Azərbaycan TDT-də aparıcı mövqe qazanıb



Səhifə ⇨ 9

# Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib

*(əvvəli 1-ci səhifədə)*



## Prezident İlham Əliyevin çıxışı

– Türk Dövlətləri Təşkilatının hökumət başçılarının toplantısı bu dəfə Bakıda keçirilir. Sizi səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz.

Əminəm ki, bu görüşün çox böyük faydası olacaq. Hər zaman olduğu kimi, bizim ölkələrimiz birlik, həmrəylik göstərəcəklər. Eyni zamanda, qarşımızda duran önəmli iqtisadi məsələlərin müzakirəsi üçün də bu görüşün çox böyük əhəmiyyəti var.

Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir.

Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq.

Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda, tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq.

Dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil. Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq. Təşkilatımızın inkişafı üçün əlbəttə ki, Zirvə görüşlərinin böyük əhəmiyyəti var. Bu görüşlər müntəzəm olaraq keçirilir və bildiyiniz kimi, Azərbaycanın təşəbbüsü ilə dövlət başçılarının qeyri-rəsmi görüşləri də keçirilməyə başlamışdır. Birinci belə qeyri-rəsmi Zirvə Görüşü Qarabağda, Şuşada keçirilmişdir. Artıq bu, ənənə halına çevrilib və hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Dövlət başçıları artıq ildə ən azı iki dəfə görüşürlər. Çünki həm müzakirə edilməli məsələlər çoxdur, həm dünyada proseslər o qədər sürətlə gedir ki, daim biz məsləhətləşmələr aparmalı, bir-birimizin fikirlərini öyrənməli və düzgün qərarların qəbul edilməsi üçün ortaq addımlar atmalıyıq.

İqtisadi sahədə, - sizin də görüşünüzün əsas məzmunu bu olacaq, - işlər yaxşı gedir. Azərbaycana gəldikdə, bütün üzv ölkələrlə bizim ticarət dövriyyəmiz artır, qarşılıqlı sərmayə qoyuluşunun həcmi artır. Biz təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoymuşuq. Düzdür, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Ancaq digər üzv ölkələrlə də qarşılıqlı sərmayə qoyuluşu prosesi gedir. Bizim Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılmışdır. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir, yaxud da ki, onların icrası üçün hazırlıq işləri aparılır.

Xüsusi minnətdarlığı Qarabağın bərpasına qardaş ölkələrin dəstəyinə görə ifadə etmək istərdim. Həm bərpa işlərinə, həm Qarabağda yeni müəssisələrin yaradılması işinə verdiyiniz dəstək bizim üçün çox önəmlidir. Bildiyiniz kimi, artıq Özbəkistan tərəfindən bizə hədiyyə edilmiş Mirzə Uluqbəy məktəbi fəaliyyət göstərir. Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Qırğızıstanın hədiyyəsi olan Manas məktəbi fəaliyyət göstərir. Bunlar Füzuli, Ağdam rayonlarındadır. Türkiyədən olan bir çox şirkətlər önəmli infrastruktur layihələrində - yollar, körpülər, tunellər, dəmir yolları layihələrində iştirak edirlər. Eyni zamanda, Qarabağda iş yerlərinin yaradılması da bizim üçün çox önəmlidir və yenə də burada birinci xarici sərmayə qardaş ölkələrdən gəlib. Xankəndidə Özbəkistanın dəstəyi ilə böyük tikiş fabriki fəaliyyətə başlamışdır və hörmətli Prezident Şavkat Miromonoviç Mirziyoyevlə birlikdə biz o fabrikin açılışını qeyd etmişdik. Yəni bütün bunlar bir daha göstərir ki, bu gün bizim üçün əsas olan məsələdə, yəni Qarabağın və Şərqi Zəngəzurun bərpasında yenə də bizim yanımızda qardaş ölkələrdir. Biz də öz növbəmizdə hər zaman lazım olan dəstəyi göstərməyə hazırıq və bunu edirik. Türkiyədə yaşanan o dəhşətli zəlzələdən sonra Azərbaycan öz qardaşlıq dəstəyini göstərmişdir və Azərbaycanın maliyyə imkanları hesabına Kahramanmaraşda 100 milyon Amerika dolları dəyərində "Azərbaycan məhəlləsi" tikilib. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə biz bu "Azərbaycan məhəlləsi"nin açılışını da qeyd etmişdik.

Yəni bu, həm bir-birimizə göstərilən praktiki yardımlardır, eyni zamanda, bizim niyyətimizi göstərir. Eyni zamanda, bizim xalqlarımıza bir daha yol göstərir ki, biz bir-birimizin yanında olmalıyıq. Bütün dünyaya isə göstərir ki, Türk dünyası, Türk Dövlətləri Təşkilatı hər zaman - yaxşı günlərdə və çətin günlərdə üzv ölkələr səviyyəsində və təşkilat olaraq vahid məqsədlərə çatmaq üçün əlindən gələni əsirgəmir.

Təbii ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta Dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta Dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Yəqin ki, bu gün Azərbaycan tərəfi bu məsələ ilə bağlı məlumat verəcək. Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Həm dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib. O ki qaldı, Zəngəzur dəhlizinin icrasına, orada avtomobil yolunun təqribən 90 faizi, dəmir yolunun isə təxminən 70 faizi hazırdır. Ümid edirəm ki, yaxın gələcəkdə bu layihə tam icra ediləcəkdir. Bilirik və çox şadıq ki, Türkiyədə də Qars-Naxçıvan dəmir yolunun tikintisinə start verilmişdir. Beləliklə, bu layihələrin uzlaşdırılması, koordinasiya şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaqdır. Bu, Orta Dəhlizin bir qolu olacaq və bizim inşa etdiyimiz dəmir yolu infrastrukturu birinci mərhələdə 15 milyon ton yükün daşınmasına hesablanıb. Amma gələcəkdə bu arta da bilər və yəqin ki, artacaq. Amma hər halda 15 milyon tonluq yeni bir dəhlizin açılması həm ölkələrimiz, həm də geniş coğrafiya üçün böyük önəm daşıyır. Biz yenə də burada çox ciddi və məsuliyyətli mövqe sərgiləyirik - həm öz maraqlarımızı təmin edirik, həm də dünya üçün yeni nəqliyyat yollarını təqdim edirik. Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlibdir. Bax, bunları sizin diqqətinizə çatdırmaq istəyirdim. Bilirəm ki, bu gün sizin işiniz çox olacaq, bir çox məsələlər müzakirə ediləcək. Şübhə etmirəm ki, sizin görüşünüz bizim təşkilatımızın inkişafına növbəti töhfə olacaqdır. Bir daha sizi salamlayıram.

***

Türkiyə Respublikasının Vitse-prezidenti **Cevdet Yılmaz** çıxış edərək dedi:

– Cənab Prezident, bizi qəbul etdiyiniz üçün minnətdarlığımızı bildiririk. Türkiyədən Əziz Qardaşınız, Prezidentimiz cənab Rəcəb Tayyib Ərdoğandan Sizə ən səmimi salamlarını gətirdim, çatdırmaq istəyirəm.

**Prezident İlham Əliyev**: Təşəkkür edirəm, sağ olun.

**Cevdet Yılmaz**: Fürsətdən istifadə edərək, keçmiş Ramazan bayramı və Novruz bayramı münasibətilə də hər kəsi təbrik edir, bölgəmizdə və dünyada sülhə, bolluğa və bərəkətə vəsilə olmasını diləyirəm.

Bu formatda toplantımızı mən ilk dəfə Sizdən eşitmişdim, Sizin bir fikriniz olduğunu bilirəm. Qırğızıstanda da çox uğurlu bir toplantı keçirdik. İkincisini də, inşallah, burada əziz qardaşım cənab Əli Əsədov ilə keçirəcəyik. İlk növbədə, həm bu toplantıya, həm də Türk Dövlətləri Təşkilatına töhfələrinizə görə bir daha təşəkkürümü bildirirəm.

Bir az əvvəl Siz də qeyd etdiyiniz kimi, iqtisadiyyat çox önəmlidir. Bölgəmizdə də mühüm proseslər baş verir. Bunun qısa perspektivdə mənfi təsirləri var, amma orta perspektivdə inanıram ki, bizə yeni fürsətlər gətirəcək. Xüsusilə bu dövrlərdə sabitliyi, əmin-amanlığı qoruyan ölkələr yeni dövrdə çox əlverişli mövqeyə yüksələcək. Bu istiqamətlərdə, inşallah, hamımız birlikdə addımlar atarıq. Enerji və nəqliyyat məsələləri çox əhəmiyyətlidir. Siz də xüsusi qeyd etdiniz, xüsusilə Zəngəzur dəhlizinin açılması həm Türkiyə-Azərbaycan əlaqələrində, həm də daha geniş coğrafiyada çox böyük fayda gətirəcək.

Digər tərəfdən, enerji məsələsində də dünya son dövrlərdə yaşananlardan sonra şaxələndirmənin önəmini artıq daha yaxşı gördü. Bu sahələrdə də, inşallah, xüsusilə Xəzər tranziti başda olmaqla, yeni fürsətləri birlikdə dəyərləndiririk. Qarşılıqlı investisiyaların inkişaf etdirilməsi məsələsində də, inşallah, hamımız birlikdə səy göstərəcəyik. Mən çox mühüm yeni investisiya imkanlarının yaranacağına da inanıram.

Sizin bir az əvvəl vurğuladığınız kimi, Türk Dövlətləri Təşkilatı çox qısa müddətdə böyük yol qət etdi. İnşallah, qarşıdakı dövrdə bu daha da dərinləşərək davam edəcək. Təşkilata sədrliyiniz çox uğurla davam edir. Xüsusilə Sizin ilk dövrlərdən etibarən Türk Dövlətləri Təşkilatına yaxından göstərdiyiniz diqqətə və verdiyiniz dəstəyə görə minnətdarıq.

Qarabağdakı inkişafa görə də hamımız qürur, iftixar duyuruq. Qarabağ yenidən Azərbaycan oldu, azadlığına qovuşdu. Ancaq bununla da kifayətlənilmədi, Qarabağda böyük inkişaf, sərmayələr var. İnşallah, yaxın zamanda hamımız birlikdə daha çox inkişaf etmiş Qarabağı görəcəyik. Biz də Türkiyə Cümhuriyyəti olaraq əlimizdən nə gəlirsə, daim Qarabağın, Azərbaycanın yanındayıq.

Sizin də qeyd etdiyiniz kimi, zəlzələ zamanı bizim yanımızda çox güclü şəkildə durdunuz, minnətdarıq. Həqiqətən də Türkiyə Cümhuriyyəti olaraq bütün Türk dünyasının göstərdiyi həmrəyliyə görə təşəkkür edirik. Birlik içərisində olmağın bərəkəti, gücü də məhz buradadır. Çətin dövrlərdə, xoş zamanlarda daim bir-birimizə dəstək oluruq. Xüsusilə dünyada qurumların zəifləkdiyi, qaydaların zəiflədiyi bir dövrdə regional əməkdaşlıqlar daha böyük önəm qazanmışdır. Bu baxımdan Türk Dövlətləri Təşkilatı yeni dövrdə əvvəlkindən də daha önəmli bir mövqeyə gəlmişdir.

Bu gün aramızda Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri də var. Mən Zati-alinizə Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı həssaslığınıza görə də xüsusi olaraq çox təşəkkür edirəm. İnşallah, həmkarlarımızla birlikdə qeyd etdiyiniz mövzuları ətraflı şəkildə müzakirə edib, Siz liderlərimizin ortaya qoyduğunuz baxışa biz də əlimizdən gələn bütün dəstəyi verəcəyik.

Mən yüksək təşkilatçılığa görə Zati-alinizə bir daha minnətdarlığımı bildirir, çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Çox sağ olun. Təşəkkür edirəm.

***

Özbəkistan Respublikasının Baş naziri **Abdulla Aripov** dedi:

– Zati-aliləri cənab Prezident, hörmətli İlham Heydər oğlu. İlk növbədə Sizə Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Miromonoviç Mirziyoyevin ən səmimi salamlarını və xoş arzularını çatdırmaq istəyirəm. Fürsətdən istifadə edərək, Sizə xüsusi diqqətə və qardaş Azərbaycan xalqına xas olan ənənəvi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Biz bu gün strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlmiş Azərbaycan-Özbəkistan münasibətlərinə böyük dəyər veririk. Şübhəsiz ki, açıq və etimad ruhunda olan dialoq və Zati-alinizlə Şavkat Miromonoviç Mirziyoyev arasındakı qardaşlıq və dostluq qardaş xalqlarımızı daha da birləşdirir. Özbək xalqı qardaş Azərbaycanın nailiyyətlərinə sevinir. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan sürətlə inkişaf edir və ildən-ilə böyük nailiyyətlər əldə edir. Sizin şəxsi səyləriniz və təşəbbüsləriniz sayəsində qardaş Azərbaycanın vacib və ayrılmaz parçası olan Qarabağ son dövrlərdə daha da firavan bölgəyə çevrilir.

Mən və həmkarım Əli Əsədov daim əlaqədəyik. Biz Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli fəaliyyəti yüksək qiymətləndiririk. Təşkilatımızın bundan sonra da gücləndirilməsi üçün səylər göstərməyə hazırıq.

Fürsətdən istifadə edərək, Sizə və Sizin simanızda qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram. Qəbula görə təşəkkür edirəm.

***

Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri **Adılbek Kasımaliyev** dedi:

– Hörmətli İlham Heydər oğlu, öz növbəmdə sıx iş qrafikinizdə bizim nümayəndə heyətinə vaxt ayırdığınıza görə Sizə dərin minnətdarlığımı bildirir, TDT hökumət başçılarının 2-ci toplantısının yüksək səviyyədə təşkil edildiyini, bu qəbildən olan görüşlərin açıq və məzmunlu dialoq üçün yaxşı imkan yaratdığını qeyd etmək istəyirəm. Fürsətdən istifadə edərək, Qırğız Respublikasının Prezidenti hörmətli Sadır Nurqojoyeviç Japarovun Sizə və qardaş Azərbaycan xalqına ən xoş arzularını çatdırmaq istəyirəm.

Qırğız Respublikası Azərbaycan ilə qardaşlıq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərə böyük dəyər verir. Biz Sizin Qırğızıstana gözlənilən tarixi dövlət səfərinizə böyük əhəmiyyət veririk. Sevindirici haldır ki, bugünkü görüşümüz ölkələrimizin TDT çərçivəsində əməkdaşlığın dərinləşdirilməsinə sadiqliyini təsdiq edir. Əminəm ki, ticarət, nəqliyyat və logistika sahələrində olan layihələr bundan sonra da dövlətlərimizin dayanıqlı inkişafına xidmət edəcək.

Həqiqətən də bizim ölkələrimizin qarşılıqlı maraq doğuran bütün sahələrdə yaxşı imkanları var.

Sonda hörmətli İlham Heydər oğlu, səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirir, Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm. Diqqətinizə görə sağ olun.

***

Qazaxıstan Respublikasının Baş naziri **Oljas Bektenov** dedi:

– Zati-aliləri cənab Prezident, hörmətli İlham Heydər oğlu. İlk növbədə, qardaş Azərbaycan torpağında Sizinlə görüşmək fürsətinə görə təşəkkürümü bildirirəm. İcazə verin, Sizə Qazaxıstan Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin səmimi salamlarını çatdırım. Səfərim ərəfəsində onunla söhbətim oldu və o, lazımi təlimatlarını verdi.

Azərbaycan və Qazaxıstan arasında münasibətlər olduqca dinamik şəkildə inkişaf edir. Bizim çoxsaylı böyük iqtisadi layihələrimiz var. Bu il biz ilk mühüm, strateji layihəmiz olan, Avropanı Çin və Asiya regionu ilə birləşdirəcək, Xəzər dənizinin dibi ilə inşa edilən fiber-optik kabel layihəsini başa çatdıracağıq. Ümid edirik ki, həmin layihə bütün dövlətlərimizin, regionumuzun inkişafına böyük təkan verəcək.

Türk Dövlətləri Təşkilatı çərçivəsində bizim həmkarlar, dostlar və qardaşlar arasında olduqca yaxşı, səmimi və etimad üzərində qurulmuş əlaqələrimiz var. İqtisadi layihələrimizin sayı olduqca çoxdur. Hökumətlər səviyyəsində həmkarlarımızla sıx əlaqədəyik, tez-tez görüşürük və məsələləri öz səviyyəmizdə həll etməyə çalışırıq ki, rəhbərlərimiz görüşərkən müsbət dəyişiklikləri müzakirə etsinlər.

Sizi və təşkilata üzv dövlətlərin rəhbərlərini cari ilin 15 may tarixində müqəddəs Türküstan şəhərində TDT-nin qeyri-rəsmi görüşündə gözləyirik və yüksəksəviyyəli qonaqları qarşılamağa hazırlaşırıq.

Cənab Prezident, bir daha Sizə və qardaş Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram. Sağ olun.

***

Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini **Nökərqulu Ataqulıyev** dedi:

– Hörmətli cənab Prezident, Sizi salamlayıram. Qəbula görə təşəkkür edirəm. İcazənizlə, hörmətli Arkadağımızın və hörmətli Prezidentimiz Sərdar Berdiməhəmmədovun səmimi salamlarını çatdırım. Bugünkü görüş yüksək səviyyədə təşkil edilib və bu toplantıya dəvətə görə təşəkkür etmək istəyirəm. Əminik ki, bu toplantı yüksək səviyyədə keçəcək. Həmkarımızla biz ticarət dövriyyəmizin artırılması və digər məsələləri müzakirə edəcəyik, xalqlarımızı bir-birinə yaxınlaşdırmaq üçün səylər göstərəcəyik. Bu işdə Sizin böyük töhfəniz var və buna görə də Sizə təşəkkürümü bildirmək, uğurlar arzu etmək istəyirəm. Sağ olun.

***

Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri **Ünal Üstel** dedi:

– Hörmətli cənab Prezident, qardaş Azərbaycanda olmaqdan duyduğum xoşbəxtliyi ifadə etmək istəyirəm. Xüsusilə bu qəbulunuza görə Sizə xalqım, hökumətim adından və şəxsən öz adımdan ürəkdən təşəkkür edirəm.

Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv olması üçün başda Ana Vətənimiz Türkiyə Cümhuriyyətinin lideri cənab Rəcəb Tayyib Ərdoğanın təşəbbüsünə və Sizin - qardaş Azərbaycanın Prezidenti İlham Əliyevin bizə verdiyi dəstəyə görə çox təşəkkür edirəm. Xalqım bu dəstəyin davam etdiyini görməkdən böyük xoşbəxtlik duymaqdadır.

Ancaq gəldiyimiz nöqtədə dünyada yaşanan mövcud vəziyyətə görə Sizin daha əvvəl dediyiniz kimi, türk ailəsi bizim ailəmizdir, başqa ailəmiz yoxdur. Bu ailəmizi gücləndirmək üçün biz - Şimali Kipr Türk Cümhuriyyəti Sizin Aralıq dənizindəki qardaşlarınız olaraq və Aralıq dənizinin ortasında yaşayışını tamamilə turizmdən, səhiyyədən təmin edən bir ada olaraq Sizlərin orada sərhəd gözətçilərinizik. Bu baxımdan gəldiyimiz hazırkı nöqtədə və yaşanan bu mövcud vəziyyətdən sonra Türk Dövlətləri Təşkilatında artıq müşahidəçi üzv olmaqdan əsl üzvə keçərək əməkdaşlığımızı daha çox sürətləndirməliyik. Gəldiyimiz nöqtədə görürük ki, istər iş adamlarımızın, istərsə insanlarımızın, istərsə digər sektorlarda quracağımız əməkdaşlıqlar, istərsə də nəqliyyat sahəsində yaşanan çətinlikləri aradan qaldırmaq üçün Şimali Kipr Türk Cümhuriyyətindən bir baza olaraq istifadə edə bilərsiniz. Çünki Aralıq dənizinin ortasında və hər tərəfə çata bilən rahat bir ada mövqeyində olan ölkəmiz sizlərlə əməkdaşlıq qurmaqdan böyük məmnunluq duyacaq. Bu istiqamətdə bizə hər zaman verdiyiniz dəstəyə görə bir daha təşəkkür edirəm.

Qardaş Baş nazirlərlə birlikdə olmaqdan böyük məmnunluq duydum. Bu ailənin əməkdaşlığı Şimali Kipr Türk Cümhuriyyəti üçün çox önəmlidir. Çünki Sizin Qarabağda apardığınız böyük azadlıq mübarizəsi kimi, biz - Şimali Kipr Türk Cümhuriyyətində yaşayan xalqımız da eynisini Türkiyə Cümhuriyyətinin bizə verdiyi böyük dəstəklə böyük bir azadlıq mübarizəsi apardıq, çoxlu şəhidlər verdik. Siz də Qarabağda, Şuşada çox şəhidlər verdiniz. Oradakı şəhidlərimizi Sizin hüzurunuzda bir daha hörmət və ehtiramla anmaq istəyirəm.

Fürsətdən istifadə edərək, geridə qalan Ramazan və Novruz bayramları münasibətilə Sizi ürəkdən təbrik edirəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Təşəkkür edirəm, sağ olun.

***

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** dedi:

– Möhtərəm cənab Prezident, Zati-aliləri. Mən də öz növbəmdə bugünkü görüşə görə təşəkkürümü bildirmək istəyirəm. TDT gündən-günə inkişaf edir və güclənir. Siz də qeyd etdiyiniz kimi, təşkilatın beynəlxalq müstəvidə rolu artmaqdadır. Fürsətdən istifadə edərək, təşkilatımızın işinə verdiyiniz töhfəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Zati-aliləri, Sizin "Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur" sözlərini xatırlatmaq istərdim.

Qeyd etdiyiniz kimi, Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri TDT dövlətləri ilə əməkdaşlıqdır və bu da bizim təşkilatın daha da möhkəmlənməsinə xidmət edir. Ötən il Qəbələdə keçirilmiş 12-ci Zirvə Toplantısının mövzusu regional sülh və təhlükəsizlik idi, region və onun hüdudları kənarında cərəyan edən proseslərlə uzlaşırdı. Zirvə Toplantısı zamanı TDT üzv dövlətlərin Azərbaycanda birgə hərbi təlimlərinin keçirilməsi təklifinə görə də Sizə təşəkkür edirəm. Sizin bununla bağlı dəvətiniz üzv ölkələrin dövlət başçılarına çatdırılmışdır.

Zati-aliləri, bu gün Bakıda praktiki əməkdaşlığımızın inkişafı və Zirvə toplantıları zamanı liderlər tərəfindən verilən təlimatların hökumətlər səviyyəsində daha da əlaqələndirilmiş şəkildə icrasına xidmət edəcək TDT üzv dövlətlərin hökumət başçılarının ikinci toplantısı keçiriləcək.

Hesab edirəm ki, bütün proqramların və layihələrin vaxtında reallaşdırılması, TDT çərçivəsində həmrəyliyin və əməkdaşlığın gücləndirilməsi üçün belə bir mexanizmə böyük ehtiyac var.

Ötən ay regionda və daha da geniş coğrafiyada cərəyan edən hadisələrin müzakirəsi üçün TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi görüşü təşkil edildi. Görüşdə "TDT+" formatının təsis edilməsi haqqında qərar imzalanması regionda və beynəlxalq arenada dialoqu, əməkdaşlığı və tərəfdaşlığı təşviq edir, çoxtərəfli diplomatiyada TDT-nin rolunu və əhəmiyyətini artırır.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib

*(əvvəli 2-ci səhifədə)*



TDT-nin qeyri-rəsmi Zirvə toplantıları Sizin təşəbbüsünüzlə hər il keçirilir. Burada qeyd edildiyi kimi, cari il mayın 15-də Qazaxıstanın Türküstan şəhərində növbəti Zirvə Toplantısı keçiriləcək. Liderlərin ildə bir neçə dəfə görüşməsi təşkilat daxilində əlaqələndirməni gücləndirir, artıq qeyd etdiyim kimi, beynəlxalq arenada əhəmiyyətini artırır.

İcazə verin, bir daha Sizə Türk dünyasında həmrəyliyin və qardaşlığın möhkəmləndirilməsinə verdiyiniz töhfəyə və təşkilatın fəaliyyətinə dəstəyinizə görə təşəkkür edim. Sağ olun.

***

Baş nazir **Əli Əsədov** dedi:

– Möhtərəm cənab Prezident, icazənizlə, bütün həmkarlarımın adından və öz adımdan Sizə təşəkkürümüzü bildirək ki, bizi qəbul etdiniz. Nitqinizdə bizim qarşımıza qoyulan məsələlər, təbii olaraq, bundan sonra mənim üçün və həmkarlarım üçün yol xəritəsi olacaq.

Möhtərəm cənab Prezident, Sizin hələ 2024-cü il fevral ayının 14-də andiçmə mərasimində söylədiyiniz kimi, bizim ailəmiz Türk dünyasıdır. Sizin bu kəlamınız bizim üçün, bütün Azərbaycan üçün, o cümlədən Azərbaycan hökuməti üçün yol xəritəsidir. Biz fəaliyyətimizi bu istiqamətdə qururuq. Bugünkü görüşümüzün - Türk Dövlətləri Təşkilatının ikinci görüşünün Bakıda keçirilməsi də bu tədbirlər içərisindədir.

Möhtərəm cənab Prezident, Sizin və həmkarlarınızın qarşımızda, hökumətlər qarşısında qoyduğunuz məsələləri rəhbər tutaraq biz bu gün gündəliyimizi formalaşdırmışıq, gündəlik bütün həmkarlarımla razılaşdırılıb. Siz də bu gün söylədiyiniz kimi, əsas məsələləri qısa olaraq deyim ki, bu, ticari-iqtisadi məsələlərdir - investisiya əməkdaşlığı, o cümlədən ikitərəfli və çoxtərəfli fondlar. Mən iki qardaş ölkə tərəfindən yaradılmış fondları, o cümlədən Türkiyə İnvestisiya Fondunu da qeyd etmək istəyirəm. Nəqliyyat-tranzit, energetika sahələrində, o cümlədən yaşıl enerji, logistika və Orta Dəhlizlə bərabər Siz də bu gün qeyd etdiyiniz kimi, Zəngəzur dəhlizinin həm Azərbaycan, həm Türkiyə, həmçinin geniş region üçün böyük əhəmiyyəti var.

Cənab Prezident, Sizin dövlət başçıları ilə Qəbələdə 12-ci Zirvə Görüşünüzün bəyannaməsindən irəli gələn məsələlərə də əsaslanaraq görüşümüzün sonunda bəyanat qəbul edəcəyik. Bu, diplomatik kanallarla razılaşdırılıb.

Möhtərəm Prezident, bir daha Sizə təşəkkürümüzü bildirmək istəyirəm. Çox sağ olun.

***

Görüşün yekununda çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Sağ olun, təşəkkür edirəm. Xahiş edirəm, mənim səmimi salamlarımı ölkələrinizin dövlət başçılarına - dostlarıma, qardaşlarıma çatdırasınız. Onlarla hər görüşüm mənim üçün çox dəyərlidir, əhəmiyyətlidir və qiymətlidir.

Bu gün burada səslənən fikirlər bir daha onu göstərir ki, təşkilatımızın çox gözəl gələcəyi var. Çünki hər bir üzv ölkə və müşahidəçi ölkə təşkilatımızın güclənməsini istəyir. İstəyir ki, təşkilatımız dünya arenasında daha önəmli rol oynasın və əminəm ki, biz buna nail olacağıq.

Bir məsələni də qeyd etmək istərdim. Bizim təşkilatımızın nadirliyi haqqında mən artıq giriş sözümdə fikirlərimi bildirdim. Bir məsələyə də toxunmaq istərdim, o da çox önəmlidir. Çünki təşkilata üzv ölkələr arasında ikitərəfli formatda da münasibətlər çox yaxşıdır. Heç bir problem yoxdur, heç bir anlaşılmazlıq yoxdur və bu da deyə bilərəm ki, dünya təşkilatları arasında nadir bir hadisədir. Çünki biz bilirik dünyada hansı beynəlxalq təşkilatlar var və o təşkilatlar çərçivəsində bəzən bəzi üzv ölkələr arasında ixtilaflar var, qarşıdurmalar var, hətta münaqişələr də var. Amma bizim nadirliyimiz, - bu, bizim çox böyük ümumi müştərək dəyərimizdir, - odur ki, həm çoxtərəfli, həm ikitərəfli formatda ancaq xoş münasibət, xoş niyyət, bir-birimizə olan dəstək və bir-birimizə olan hörmət və ehtiramdır. Bu, çox böyük dəyərdir. Biz bunu həm qorumalıyıq, həm gələcək nəsilləri bu ruhda tərbiyə etməliyik və təşkilatımızı bütün istiqamətlər üzrə elə gücləndirməliyik ki, illər keçdikcə təşkilatımız dünya miqyasında qlobal aktora çevrilsin. Yenə də deyirəm, buna nail olmaq üçün bütün imkanlar var. Birincisi, bizim birliyimiz, ortaq etnik köklərimiz, böyük coğrafiyamız, enerji resurslarımız, nəqliyyat yollarımızdır. Bu gün nəqliyyat deyiləndə bizim coğrafiyamızdan, yəni bizdən yan keçmək mümkün deyil. Biz investisiya qoymaqla, hər bir ölkə öz ərazisində sərmayə qoymaqla bu coğrafiyanı daha da önəmli bir amilə çeviririk. Əminəm ki, bu gün müzakirə olunan və sizin toplantınızda müzakirə ediləcək məsələlər təşkilatımızın gücünü daha da artıracaq.

Bir daha xoş gəlmisiniz.

# Prezident İlham Əliyev Türkiyə nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Cevdet Yılmaz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Cevdet Yılmaz Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, məhz bunun Şuşa Bəyannaməsinin əsas prinsiplərindən biri olduğunu vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin hər zaman Türkiyənin yanında olduğunu dedi.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin münasibətlərimizin daha da genişlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün keçirilməsinin əhəmiyyətinə toxunuldu, bu tədbirin təşkilat çərçivəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı.

Cevdet Yılmaz bu toplantıda Şimali Kipr Türk Cümhuriyyətinin Baş nazirinin iştirakını da məmnunluqla qeyd edərək, buna görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi.

Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün yüksək səviyyədə keçirildiyini və həmin tədbirdə yaxşı nəticələrin əldə edildiyini deyən qonaq Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyinin uğurlu olduğunu vurğuladı.



Görüş zamanı, həmçinin Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlığın perspektivləri, regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# TDT-yə üzv dövlətlərin hökumət başçıları/Vitse-prezidentinin Bakı görüşü



**Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü keçirilib.**

**Görüşdə çıxış edən Azərbaycanın Baş naziri Əli Əsədov** Bişkek görüşünün çoxtərəfli əməkdaşlığımızın institusional əsaslarının möhkəmləndirilməsi, qarşılıqlı əlaqələrimizin gücləndirilməsi baxımından çox səmərəli olduğunu deyib.

Baş nazir bildirib ki, bu gün türk dövlətləri arasında siyasi, iqtisadi, nəqliyyat-tranzit, enerji təhlükəsizliyi, rəqəmsal transformasiya, humanitar və bir çox digər sahələrdə əlaqələrin inkişafı üçün mühüm imkanlar mövcuddur. Azərbaycan TDT çərçivəsində əməkdaşlığa daim xüsusi önəm verib, Təşkilata üzv olan bütün dövlətlərlə ikitərəfli müstəvidə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri qurub. Bu baxımdan, ölkələrimiz arasında ticarət-investisiya əlaqələrinin daha da genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Son illərdə bu istiqamətdə müsbət dinamika müşahidə olunur.

Əli Əsədovun sözlərinə görə, ötən il Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ümumi ticarət dövriyyəsi 5 faizdən çox artıb. Azərbaycanın üzv dövlətlərə yatırdığı sərmayələrin ümumi həcmi isə 21 milyard ABŞ dollarıdır. Eyni zamanda, bir sıra tərəfdaş ölkələrlə yaradılmış birgə investisiya fondları prioritet sahələr üzrə qarşılıqlı sərmayə qoyuluşunun genişlənməsinə və iqtisadi əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir. Lakin mövcud potensialımız qeyd edilən göstəricilərdən qat-qat böyükdür.

Baş nazir diqqətə çatdırıb ki, Türk dünyasının geostrateji mövqeyi ölkələrimiz üçün olduqca böyük üstünlüklər yaradır. Avropa ilə Asiyanı birləşdirən, Şərq-Qərb və Şimal-Cənub istiqamətlərinin kəsişməsində yerləşən regionumuz beynəlxalq nəqliyyat və logistika baxımından mühüm əhəmiyyətə malikdir. Bu potensialdan daha səmərəli istifadə etmək üçün nəqliyyat bağlantılarının inkişafı və tranzit imkanlarının genişləndirilməsi əsas prioritetlərdən biri olmalıdır.

**Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz** qeyd edib ki, Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mühiti Türk dünyası daxilində qarşılıqlı əlaqəni daha da gücləndirəcək. “Biz inanırıq ki, nəqliyyat, enerji, infrastruktur və rabitə kimi bir çox sahələrdə əməkdaşlıq üçün yeni imkanlar Türk dünyasının rifahına əhəmiyyətli töhfə verəcək", - deyə Vitse-prezident bildirib.




Cevdet Yılmaz diqqətə çatdırıb ki, Türk Dövlətləri İnvestisiya Fondunun, türk dövlətlərinin ilk maliyyə qurumu olaraq, yaxın gələcəkdə maliyyələşdirmə fəaliyyətinə başlayacağını gözləyirik. Fondun beynəlxalq səviyyədə nüfuzlu maliyyə qurumu kimi layiq olduğu mövqeyi tutmasını təmin etmək üçün səylərimizi davam etdirmək vacibdir.

**Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov** Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini yüksək qiymətləndirdiklərini qeyd edib. Bildirib ki, Orta Dəhlizin institusional statusunu artırmaq məqsədilə Qazaxıstan bu il Azərbaycanla müvafiq hökumətlərarası saziş imzalamağı planlaşdırır.




Onun sözlərinə görə, dünyadakı mövcud vəziyyət təşkilat çərçivəsində “TDT+” formatının aktuallığını artırır. Qazaxıstan Orta Dəhlizin əsas iştirakçıları ilə bu formatda görüşlərin keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu əməkdaşlıq hər iki bazarda mühüm tərəf kimi çıxış etmək və enerji tərəfdaşlığında yeni arxitektura formalaşdırmaq imkanı yaradacaq.

“Yaxın gələcəkdə Qazaxıstan TDT-nin süni intellekt və rəqəmsal inkişaf üzrə qeyri-rəsmi Zirvə Görüşünə ev sahibliyi etməyi planlaşdırır. Əminəm ki, bu görüş rəqəmsal transformasiyaya yeni təkan verəcək və texnoloji əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək”, - deyə Baş nazir bildirib.

**Qırğızıstan Nazirlər Kabinetinin sədri Adilbek Kasımalıyev** Bakıda qarşıda duran mühüm məsələlərin müzakirəsi üçün çox əlverişli şərait yaradıldığını söyləyib. O, Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycanın sədrliyinin əməkdaşlığa yeni təkan verəcəyinə və əvvəllər əldə olunan razılaşmaların ardıcıl şəkildə həyata keçiriləcəyinə inamını ifadə edib.




Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov çıxışında iqtisadi inteqrasiyanı dərinləşdirmək məqsədilə Baş nazir müavinlərinin sədrliyi ilə Türk Dövlətləri Təşkilatının İqtisadi Tərəfdaşlıq üzrə Daimi Şurasının təsis olunmasını vacib hesab etdiklərini deyib. Bildirib ki, biz üzv dövlətlərin həmin mexanizmə və onun qısa zamanda təsdiq edilməsinə verəcəyi dəstəyə ümid edirik.

*(ardı 4-cü səhifədə)*

# TDT-yə üzv dövlətlərin hökumət başçıları/Vitse-prezidentinin Bakı görüşü

*(əvvəli 3-cü səhifədə)*




Sənaye əməkdaşlığı və strateji ehtiyatlar sahəsində əməkdaşlığın inkişafı qarşılıqlı fəaliyyətin əsas istiqamətlərindən biridir. Bu baxımdan düşünürük ki, Türk Dövlətlərinin Sənaye İttifaqının qurulması, o cümlədən tammərhələli istehsalat dəyər zəncirlərinin yaradılmasına yönəlmiş strateji minerallar üzrə əməkdaşlıq proqramının qəbul edilməsi üçün səylərin intensivləşdirilməsi zəruridir, - deyə Özbəkistanın Baş nazir əlavə edib.

**Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel** bu gün dünya siya-



si və iqtisadi baxımdan çoxqatlı böhranların caynağında olduğunu bildirərək deyib: Müharibələr, iqtisadi böhranlar, qlobal iqlim dəyişikliyinin yaratdığı təsirlər, nizamsız miqrasiya və bir çox digər çətinliklər dünyanı son dərəcə riskli hala gətirib. Bu səbəbdən türk dövlətlərinin strateji həmrəyliyi, Türk dünyası və millətimiz adına tarixi zərurətdir.

**Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataquliyev**



Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının ölkələrimiz arasındakı iqtisadi inteqrasiyanın güclənməsinə əhəmiyyətli töhfə olduğunu bildirib. Onun sözlərinə görə, Türkmənistan qədim Böyük İpək Yolunu müasir şəraitdə dirçəltmək təşəbbüslərini davamlı şəkildə irəli aparmaqla Şərq-Qərb və Şimal-Cənub marşrutları boyunca nəqliyyat dəhlizlərinin inkişafına xüsusi əhəmiyyət verir.

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev** Türk Dövlətləri Təşkilatının əməkdaşlığın gücləndirilməsində və hökumətlər arasında daha yaxşı əlaqənin təmin edilməsində öz rolunu göstərdiyini qeyd edib. Son illər ərzində təşkilat öz fəaliyyətinin miqyasını genişləndirib. Hal-hazırda 58 müxtəlif sahədə biz əməkdaşlıq mexanizmləri tətbiq edirik, - deyə Kubanıçbek Ömüralıyev əlavə edib.

“Hazırda regionumuzda və dünyada ciddi çağırışlar müşahidə olunur. Biz isə




yaranan qeyri-sabitlik səbəbindən dövlət başçılarımızın təlimatlarına əsasən siyasi və təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndiririk. Həmçinin nəqliyyat bağlantıları da əməkdaşlığın ən perspektivli sahələrindən biridir və Orta Dəhliz bu gün cari geosiyasi mühitdə ən vacibdir. Belə ki, 2025-ci ildə Orta Dəhlizlə yükdaşıma həcmi 4,7 milyon tona çatıb və bu rəqəmin 2027-ci ilə qədər 10 milyon tona çatacağı gözlənir”, - deyə Kubanıçbek Ömüralıyev vurğulayıb.

Sonra Azərbaycanın Baş naziri Əli Əsədov görüşdə gündəlikdə nəzərdə tutulmuş məsələlər üzrə məhsuldar və konstruktiv müzakirələr apardığını deyib. O bildirib ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi, iqtisadi-ticari əlaqələrin inkişafı, nəqliyyat və enerji sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsi, həmçinin digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı mühüm fikirlər səsləndirildi. Müzakirələr bir daha göstərdi ki, ölkələrimiz arasında mövcud olan qardaşlıq münasibətləri və qarşılıqlı etimad Təşkilat çərçivəsində əməkdaşlığın daha da inkişafı üçün möhkəm əsas yaradır.

Sonda görüşün nəticələrinə dair Birgə Bəyanat qəbul edilib.

*XQ*

# TDT-nin Bakı görüşündə birgə bəyanat qəbul edilib



**Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü çərçivəsində birgə bəyanat qəbul olunub.**

Bəyanatı təqdim edirik:

“Türk Dövlətləri Təşkilatının hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü 2026-cı il aprelin 2-də Bakıda keçirilmişdir. Görüşdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri – Prezident Administrasiyasının rəhbəri Adılbek Kasımaliyev, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, Şimali Kipr Türk Respublikasının Baş naziri Ünal Üstel, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyev, həmçinin TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev iştirak etmişlər.

TDT-yə üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin 2025-ci il sentyabrın 18-də Bişkekdə Qırğız Respublikasının sədrliyi dövründə keçirilmiş birinci görüşün uğurla təşkil olunmasını alqışlamışlar;

Azərbaycan Respublikasının TDT-də davam edən sədrliyinə dəstək ifadə etmiş və birlik, institusional potensialın gücləndirilməsi və prioritet sahələr üzrə praktiki əməkdaşlığın inkişafına yönəlmiş fəal səylərini yüksək qiymətləndirmişlər;

Naxçıvan Sazişi və TDT-nin digər əsas sənədləri çərçivəsində üzv dövlətlərin öhdəliklərini bir daha təsdiqləmiş və TDT çərçivəsində sıx əməkdaşlığın regionda və onun hüdudlarından kənarda sülh, sabitlik və davamlı inkişafın təşviqində mühüm rol oynadığını vurğulamışlar;

2025-ci il oktyabrın 7-də Qəbələdə “Regional sülh və təhlükəsizlik” mövzusunda keçirilmiş TDT-nin 12-ci Zirvə Görüşünün nəticələrinin əhəmiyyətini qeyd etmiş, dəyişən geosiyasi və təhlükəsizlik çağırışları fonunda qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərin möhkəmləndirilməsi məqsədilə əməkdaşlığın intensivləşdirilməsi barədə razılığın əldə olunduğunu vurğulamışlar;

Bu çərçivədə 2026-cı il martın 7-də İstanbulda keçirilmiş TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasının nəticələrini müsbət qiymətləndirmiş, regionda sülh və təhlükəsizliyə birbaşa təhdid yaradan regional və qlobal proseslər üzrə geniş məsləhətləşmələrin aparılması üçün mühüm imkan kimi dəyərləndirmişlər;

Üzv və müşahidəçi dövlətlər arasında iqtisadi əlaqələrin və investisiya əməkdaşlığının genişləndirilməsinin, o cümlədən birgə layihələrin təşviqi, biznes və investisiya mühitinin yaxşılaşdırılması və bizneslərarası əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulamışlar;

“Türk Dünyasına Baxış-2040” sənədini nəzərə alaraq, ticarətdə qeyri-tarif maneələrinin aradan qaldırılması yolu ilə üzv dövlətlər arasında ticarət həcminin artırılmasına sadiqliyini ifadə etmişlər;

Sənaye inkişafının iqtisadi artıma töhfəsini və dayanıqlı iqtisadi modelin formalaşmasındakı rolunu qeyd edərək, qarşılıqlı maraq doğuran sənaye sahələrində əməkdaşlığın gücləndirilməsinə hazır olduqlarını bildirmişlər;

Standartlaşdırma, rəqəmsallaşma və yaşıl texnologiyaların təşviqi sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmişlər;

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinin davamlı iqtisadi artım və ərzaq təhlükəsizliyi baxımından əhəmiyyətini vurğulamışlar;

Enerji təhlükəsizliyinin gücləndirilməsi, enerji mənbələrinin şaxələndirilməsi və enerji marşrutlarının təhlükəsizliyinin təmin olunmasının vacibliyini qeyd etmişlər;

Neft, qaz və digər karbohidrogenlərin nəqli sahəsində mövcud infrastrukturun səmərəli istifadəsini və genişləndirilməsini dəstəkləmişlər;

Yaşıl enerji layihələrinin inkişafı və ötürülməsi sahəsində əldə olunmuş irəliləyişi alqışlamış və Yaşıl Enerji Dəhlizinin inkişafına güclü dəstək ifadə etmişlər;

Kritik mineralların enerji təhlükəsizliyi baxımından əhəmiyyətini vurğulamış və əməkdaşlıq imkanlarının araşdırılmasına çağırmışlar;

Enerji səmərəliliyinin artırılması və qabaqcıl təcrübələrin paylaşılmasının təşviq olunmasını dəstəkləmişlər;

Nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq imkanlarının araşdırılmasını dəstəkləmişlər;

İnnovasiya, rəqəmsal transformasiya və süni intellektin iqtisadi inkişaf üçün strateji əhəmiyyətini qeyd etmiş və bu sahələrdə əməkdaşlığın genişləndirilməsini dəstəkləmişlər;

Kosmik texnologiyaların artan əhəmiyyətini nəzərə alaraq, bu sahədə birgə təşəbbüslərin təşviqini dəstəkləmişlər;

Nəqliyyat dəhlizlərinin inkişafını və rəqəmsal əlaqələndirmə infrastrukturunun inteqrasiyasını dəstəkləmişlər;

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulamışlar;

TDT-nin Zirvə görüşlərində qəbul edilmiş qərarların icrasının təmin edilməsinin vacibliyini bir daha təsdiqləmişlər;

Qazaxıstanın 2026-cı ildə Türküstanda Süni İntellekt və Rəqəmsal İnkişaf mövzusunda qeyri-rəsmi Zirvə Görüşünə ev sahibliyi təşəbbüsünü alqışlamışlar;

Tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan Respublikasına dərin minnətdarlıqlarını bildirmişlər.

Birgə bəyanat 2026-cı il aprelin 2-də Bakıda ingilis dilində qəbul edilmişdir”.

*XQ*

# Azərbaycanın Baş nazirinin Türkiyənin Vitse-prezidenti ilə dialoqu



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 2-də ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazla görüşüb.**

Nazirlər Kabinetindən bildirilib ki, görüş zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələr üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin bu münasibətlərin daha da möhkəmlənməsində əsas amil olduğu vurğulanıb.

Tərəflər ötən ilin dekabrında Bakı şəhərində keçirilmiş iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının nəticələrini müsbət qiymətləndirərək, iqtisadiyyat, investisiya, enerji, nəqliyyat və digər sahələrdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər, bir sıra istiqamətlərdə birgə layihələrin icra vəziyyətini nəzərdən keçiriblər.

Görüşdə, həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub, təşkilatın üzv dövlətləri arasında həmrəyliyin və qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb. Bu baxımdan Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün önəmi xüsusi qeyd edilib.

*XQ*

# Benefisiar mülkiyyətçi məlumatlarına dair mərkəzləşdirilmiş reyestrin fəaliyyəti

**Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının (Koordinasiya Şurası) növbəti iclası aprelin 2-də keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, iclası açan Baş nazirin müavini, Koordinasiya Şurasının sədri Samir Şərifov cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin səmərəliliyinin daha da artırılması üçün Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiqlənmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nın, habelə digər tədbirlər planlarının icra vəziyyətinin müsbət qiymətləndirildiyini bildirib. O əlavə edib ki, müvafiq tədbirlərin davamlılığının təmin olunması üçün tezliklə yeni fəaliyyət planının qəbulu mühüm əhəmiyyət daşıyır.

İclasda ötən il yaradılmış benefisiar mülkiyyətçi məlumatlarına dair mərkəzləşdirilmiş reyestrin fəaliyyətinə dair mövcud vəziyyət müzakirə edilib və bu reyestrin fəaliyyətinin təmin olunması ilə bağlı görülməli tədbirlər müəyyənləşdirilib.

Bundan əlavə, iclasda “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2026-2028-ci illər üzrə Milli Fəaliyyət Planı” layihəsi müzakirə olunub. Milli Fəaliyyət Planı layihəsində nəzərdə tutulan bəzi tədbirlərin aidiyyəti dövlət orqanları tərəfindən hələ də razılaşdırılmadığı nəzərə alınaraq, Şura sədri tərəfindən bu prosesin sürətləndirilməsi məqsədilə müvafiq tapşırıqlar verilib.

İclasda, həmçinin cari ilin iyulunda ölkəmizin ev sahibliyi edəcəyi “Maliyyə Kəşfiyyatı Orqanlarının Eqmont Qrupunun 32-ci plenar iclasının keçirilməsi ilə bağlı” İş planı üzrə görülmüş işlərə dair hesabat dinlənilib, habelə Şuranın fəaliyyəti ilə bağlı digər məsələlər üzrə müzakirələr aparılıb.

*XQ*

# Azərbaycan–Tacikistan konsulluq məsləhətləşməsi



**Aprelin 2-də Bakıda Azərbaycan və Tacikistan Xarici İşlər nazirlikləri arasında növbəti konsulluq məsləhətləşmələri keçirilib.**

Məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Tacikistan nümayəndə heyətinə isə Baş konsulluq idarəsinin rəhbəri Baxodur Safarzoda rəhbərlik edib.

Konsulluq məsləhətləşmələri çərçivəsində Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev Tacikistanın nümayəndə heyəti ilə görüşüb.

*XQ*

# Kəlbəcərə növbəti köç



**İşğaldan azad olunan və yenidən qurulan Kəlbəcər şəhərinə aprelin 2-də “Böyük Qayıdış” Proqramı çərçivəsində sayca 6-cı köç reallaşıb. Bu mərhələdə Kəlbəcər şəhərinə 27 ailə - 113 nəfər köçürülüb.**

Bu köçün məhz aprelin 2-nə təsadüf etməsi rəmzi məna daşıyır. Belə ki, 33 il əvvəl - 1993-cü il aprelin 2-də Kəlbəcər rayonu işğal olunmuşdu. Onilliklər boyu kəlbəcərlilərin yaddaşında ağrı və ayrılıq günü kimi qalan bu tarix artıq dövlətimizin qüdrəti sayəsində dirçəliş və doğma yurda qovuşma günü kimi yenidən yazılır.

Bunun la da şəhərin I yaşayış məhəlləsində birinci mərhələ üzrə ümumilikdə, 162 ailənin (680 nəfər) qayıdışı təmin olunub.

*XQ*

# Türk dünyası vahid coğrafiyada bütövləşir

## *Avrasiyanın mərkəzində formalaşan geostrateji güc*

**Beynəlxalq münasibətlər sistemində fərqli vəhdət modelinin formalaşması artıq reallığa çevrilir. Azərbaycan qeyd edilən transformasiya prosesinin mərkəzində qərarlaşaraq xüsusi strateji vizyon nümayiş etdirir. Aprelin 2-də Prezident İlham Əliyev tərəfindən TDT-dəki aparıcı tərəfdaşların qəbul edilməsi ciddi geosiyasi əhəmiyyət daşıyır. Dövlətimizin başçısı məhz həmin tarixdə Türkiyənin Vitse-prezidenti Cevdet Yılmazı, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyevi, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyevi, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üsteli, üstəlik Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.**



TDT-nin Bakı konfransını qədim tarixi köklərə bağlanan əməkdaşlığın müasir diplomatik müstəvidə təntənəsidir. Dəyişən dünya nizamında oxşar formatlı görüşlərin mütəmadi xarakter alması inteqrasiya proseslərinin geridönməzliyini təsdiqləyir.

Təqdim edilən rəsmi mövqelər açıq şəkildə sübuta yetirir ki, xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrimiz birmənalı olaraq prioritet təşkil edir. Fəal diplomatik gedişlərin sayəsində təsdiqlənir ki, Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına daim böyük töhfə verir, gələcəkdə də eyni amala tam sadiq qalacağını bildirir. Dövlətlərarası formalaşmanın qanunauyğunluqlarını rəhbər tutan aparıcı elita həqiqətən əzmkar siyasi kurs sərgiləyir. Prezident İlham Əliyevin qeyd etdiyi klimi: “Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Yeganə ailəni gələcəyə aparmaq məqsədilə müştərək səylərin göstərilməsi təbii ki, çox önəmlidir”.

Dövlətimizin başçısı, həmçinin əlavə mesaj da verib: “Türk Dövlətləri Təşkilatının gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq”. Səsləndirilən tarixi fikirlər verilən qərarların həm regional, həm də qlobal miqyasda mütləq hədəfləri gücləndirəcəyinə inam yaradır. Sarsılmaz təməllər üzərində qurulan vəhdət yeni və fərqli nailiyyət səhifələrinə yol açacaq. Hədəflənən məqsədlərə çatmaq naminə vahid iqtisadi platformanın, əlavə olaraq ortaq informasiya məkanının formalaşdırılması mütləq zərurətə çevrilib.

Azərbaycan paytaxtında gerçəkləşən rəsmi qəbul, əslində, inteqrasiyanın əsas strukturunu dərinləşdirir. Hökumət rəhbərlərinin, eləcə də vitse-prezidentin mərkəzləşdirilmiş görüşlərinin təşkili TDT daxilində çoxtərəfli əməkdaşlığın struktur etibarı ilə daha da gücləndirilməsi baxımından mükəmməl imkanlar yaradıb. Söhbət əsnasında yuxarıda sadalanan məsələlərin önəminə xüsusi toxunularaq, aparılan müzakirələrin perspektiv nəticələri yüksək qiymətləndirilib. Dövlətlərarası münasibətlərin institusional müstəviyə keçidi ortaq ticarət zonalarının yaradılmasına, nəqliyyat marşrutlarının şaxələndirilməsinə, tranzit potensialının maksimum səviyyəyə çatdırılmasına xidmət edir. Şərqlə Qərb arasında təbii körpü rolunu oynayan coğrafiyamız artıq, sadəcə, marşrut xətti sayılmır, eyni zamanda, qərarların qəbul edildiyi əsas mərkəzi qərargaha çevrilir.

Müzakirələr zamanı diqqəti cəlb edən mühüm məqamlardan biri də Türkiyə nümayəndə heyətinin rəhbərinin sərgilədiyi yanaşma olub. Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz Prezident İlham Əliyev ilə keçirdiyi görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Baş nazirinin iclasda iştirakını xüsusi məmnunluqla qeyd edərək, bu iştirak üçün yaradılan əlverişli şəraitə görə Azərbaycan dövlətinə dərin minnətdarlığını ifadə edib. Şimali Kiprin ali səviyyədə təmsil olunması ədalətsiz izolyasiya divarlarının parçalanması, həmrəyliyin real nümayişi kimi səciyyələndirilməlidir. Bu format daxilindəki vəhdət nümayişi kənar qüvvələrə qarşı yönəlməyərək, sırf mənəvi dəyərlərin, tarixi ədalətin bərpasına xidmət göstərir. Qarşılıqlı etimad əsasında qurulan mexanizmlər süni əngəlləri minimuma endirəcək, qərarların çevik icrasını təmin edəcək. Diplomatiya tarixində nadir hallarda rast gəlinən bu tərəfdaşlıq modeli əməkdaşlığın saysız istiqamətlərini əhatə edir, zəncirvari inkişaf dinamikasını formalaşdırır. Ünal Üstelin ali platformada yer alması diplomatik tanınma prosesinə mühüm təkan verməklə bərabər, qardaş xalqların heç vaxt tənha olmayacağını nümayiş etdirir. Əldə edilən diplomatik irəliləyişlər ümumi gücümüzün artmasına bilavasitə təsir göstərir.

Qlobal siyasi sistemdə etibarlı tərəfdaşlığın formalaşdırılması olduqca çətin prosesdir. Sözügedən format daxilində atılan addımlar təkcə diplomatik çərçivələrlə məhdudlaşmır, həmçinin texnoloji yeniliklərin mübadiləsi, müdafiə sənayesi sektorunda əməkdaşlığın genişləndirilməsi, innovativ layihələrin həyata keçirilməsi istiqamətlərini sıx şəkildə ehtiva edir. Təbii resurslarla zəngin coğrafiyaların ortaq strategiya çərçivəsində cəmləşməsi iqtisadi potensialı dəfələrlə artırır. Geosiyasi maraqların uzlaşması fonunda həyata keçirilən davamlı görüşlər təşkilatın gələcək hədəflərinə doğru qətiyyətli addımladığını aydın göstərir. Hər mühüm görüş, hər imzalanan sənəd yeni hədəflərin reallaşmasına xidmət edir. Şübhəsiz ki, respublikamızın liderliyi altında irəli sürülən təşəbbüslər regionda sülhün, təhlükəsizliyin qarantı kimi çıxış etməyə davam edəcək. Yeni dövrün tələblərinə cavab verən yanaşmalar müasir xarici siyasət doktrinasının mükəmməl işlədiyini təsdiqləyir.

Son onillikdə formalaşan siyasi trendlər təsdiqləyir ki, genişmiqyaslı inteqrasiyalar qaçılmazdır, fəqət yalnız genetik kodlara bağlanan ittifaqlar davamlı sülhə zəmin yaradır. Nəticə etibarilə, Bakı təkcə enerji layihələrinin mərkəzinə çevrilmir, həm də Türk dünyasının intellektual, hərbi, iqtisadi ideyalar mərkəzinə qovuşur. Regional güclərin yaratdığı mürəkkəb fon içərisində tam vəhdət mövqeyinin nümayiş etdirilməsi son dərəcə səmərəli gələcək vəd edir. Tarixi dövrlərdən süzülüb gələn ortaq mənəvi sərvətlər indi praqmatik iqtisadi təməllərlə sintez olunur. Yaradılan sarsılmaz bünövrə isə gələcək nəsillər üçün firavan, təhlükəsiz, qüdrətli yaşayış mühitini zəmanət altına alır. Atılan uğurlu addımlar bəşəriyyət tarixində mühüm izlər qoyacaq, bütöv məfkurə daim ali zirvələrdə bərqərar olacaq. Rəsmi səfərlər əsnasında imzalanacaq hər hansı sənəd, təsdiqlənəcək hər hansı qərar şübhəsiz ki, xalqlarımızın ümumi rifahına qulluq edəcək.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# TDT-nin Bakı görüşü və Orta Dəhliz

## *Kiçik Asiyadan Mərkəzi Asiyaya uzanan ortaq hədəflər*

**Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hökumət başçılarının görüşü və Prezident İlham Əliyevin bu görüşdə səsləndirdiyi fikirlər geniş geosiyasi kontekstdə Türk dünyasının iqtisadi inteqrasiyası, Avrasiya nəqliyyat marşrutlarının yenidən formalaşması və Azərbaycanın bu prosesdə oynadığı rol haqqında siyasi mesajlar kimi qiymətləndirilə bilər.**

Son illər beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər – Rusiya-Ukrayna müharibəsi, Avropa ilə Asiya arasında ticarət marşrutlarının yenidən qiymətləndirilməsi, enerji və logistika təhlükəsizliyi məsələlərinin ön plana çıxması – Orta Dəhlizin strateji əhəmiyyətini ciddi şəkildə artırıb. Soyuq müharibədən sonra formalaşmış qlobal iqtisadi və logistika sistemi əsasən sabit marşrutlara – dəniz daşımalarına və Rusiya üzərindən keçən quru yollarına əsaslanırdı. Lakin son illərdə baş verən siyasi böhranlar, sanksiyalar müharibəsi, regional münaqişələr və böyük güclər arasında rəqabətin artması bu sistemin etibarlılığını sual altına qoydu. Nəticədə, dövlətlər və böyük şirkətlər ticarət və enerji marşrutlarını diversifikasiya etməyə, yəni alternativ yollar axtarmağa başladılar. Məhz bu kontekstdə Orta Dəhliz məsələsi regional layihədən qlobal geosiyasi layihəyə çevrilməyə başladı. Əgər əvvəllər bu dəhliz daha çox Azərbaycan, Gürcüstan və Türkiyə üçün regional nəqliyyat layihəsi kimi qiymətləndirilirdisə, indi Avropa İttifaqı, Çin, Mərkəzi Asiya ölkələri və hətta bəzi Yaxın Şərq dövlətləri üçün strateji alternativ marşrut kimi nəzərdən keçirilir. Rusiya üzərindən keçən Şimal dəhlizi Ukrayna müharibəsindən sonra siyasi risklərlə üzləşdi, İran üzərindən keçən marşrutlar isə sanksiyalar və geosiyasi qeyri-müəyyənlik səbəbindən tam sabit hesab edilmir. Belə bir vəziyyətdə Xəzər dənizi üzərindən keçən Orta Dəhliz Avropa ilə Asiyanı birləşdirən ən təhlükəsiz və siyasi baxımdan balanslı marşrutlardan biri kimi ön plana çıxır.

Prezident İlham Əliyevin çıxışında Orta Dəhliz, Trans-Xəzər dəhlizi və Zəngəzur dəhlizi xüsusi olaraq vurğulandı. Həmin layihələr bütövlükdə Avrasiyanın yeni logistika xəritəsinin elementləridir. Əslində, burada yeni geoiqtisadi məkan formalaşır və bu məkan Çin istehsal mərkəzlərindən başlayaraq Mərkəzi Asiya, Xəzər hövzəsi, Cənubi Qafqaz və Türkiyə üzərindən Avropaya qədər uzanan böyük iqtisadi zəncir yaradır. Təbii ki, bu zəncirin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, bu marşrut əsasən türk dövlətlərinin yerləşdiyi coğrafiyadan keçir. Bütün bunlar isə ilk dəfə olaraq Türk dünyasını vahid geoiqtisadi məkan kimi formalaşdırmaq potensialına malikdir.

* * *

Əgər xəritəyə diqqətlə baxsaq, görərik ki, Çin – Mərkəzi Asiya – Xəzər dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə – Avropa marşrutu faktiki olaraq Orta Dəhlizin əsas xəttini təşkil edir. Həmin ox Şərqdən Qərbə uzanan və böyük bazarları, enerji resurslarını, sənaye mərkəzlərini və tranzit ölkələri birləşdirən geniş iqtisadi məkan yaradır. Məkanın isə ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, burada yerləşən ölkələrin böyük hissəsi ya Türk Dövlətləri Təşkilatına üzvdür, ya da bu coğrafiya ilə sıx iqtisadi və siyasi əlaqələrə malikdir



Orta Dəhlizin işləməsi isə bir neçə ölkənin koordinasiyalı siyasətindən asılıdır. Çünki burada vahid logistika sistemi, tarif siyasəti, gömrük prosedurlarının sadələşdirilməsi, limanların koordinasiyası, dəmir yolu xətlərinin uyğunlaşdırılması, rəqəmsal logistika sistemlərinin yaradılması kimi kompleks məsələlər var. Əgər bu ölkələr ayrı-ayrılıqda hərəkət etsələr, Orta Dəhliz rəqabətədavamlı marşrut ola bilməz. Lakin koordinasiyalı siyasət aparılarsa, bu marşrut Rusiya üzərindən keçən Şimal dəhlizi və İran üzərindən keçən Cənub marşrutu ilə rəqabət apara bilər.

Məhz buna görə Türk Dövlətləri Təşkilatı çərçivəsində nəqliyyat, logistika və investisiya məsələləri artıq mədəni-humanitar əməkdaşlıqdan daha vacib mövzuya çevrilir. Təşkilatın ilk yarandığı dövrlərdə əsas diqqət ortaq tarix, dil, mədəniyyət, təhsil və humanitar layihələrə yönəlmişdi. Lakin beynəlxalq münasibətlərdə təşkilatların real gücü iqtisadi inteqrasiyadan və ortaq infrastruktur layihələrindən keçir.

* * *

Prezident İlham Əliyevin çıxışında diqqətçəkən digər mühüm məqam Zəngəzur dəhlizi ilə bağlı verilən konkret göstəricilər idi. Avtomobil yolunun 90 faizinin, dəmir yolunun isə 70 faizinin hazır olması barədə məlumat siyasi və geosiyasi mesaj kimi qiymətləndirilməlidir. Dövlət başçısnın mesajı ondan ibarətdir ki, regionun yeni nəqliyyat infrastrukturu artıq layihə mərhələsini keçərək reallığa çevrilmək üzrədir və Cənubi Qafqazın kommunikasiya xəritəsi faktiki olaraq dəyişir.

Zəngəzur dəhlizi məsələsi ətrafında gedən müzakirələrə daha geniş geosiyasi kontekstdə baxmaq lazımdır. Dəhliz Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirməklə yanaşı, eyni zamanda, Türkiyə ilə Mərkəzi Asiya arasında birbaşa quru bağlantısı yaradır. Belə bir xəttin formalaşması Türk dünyasının geosiyasi inteqrasiyası istiqamətində mühüm addım kimi qiymətləndirilə bilər. Çünki tarix boyu coğrafi bağlantılar siyasi və iqtisadi inteqrasiyanın əsasını təşkil edib. Digər tərəfdən, Zəngəzur dəhlizi Cənubi Qafqazda güc balansına da təsir edən layihədir. Zəngəzur dəhlizinin açılması regionda bütün nəqliyyat xətlərinin yenidən formalaşmasına səbəb ola bilər. Əgər bu marşrut tam şəkildə fəaliyyətə başlasa, Azərbaycan və Türkiyə regionun əsas tranzit aktorlarına çevrilə bilər. Uzun illər Azərbaycan beynəlxalq iqtisadi sistemdə əsasən neft və qaz ixrac edən ölkə kimi tanınırdı. Lakin son illərdə aparılan infrastruktur siyasəti göstərir ki, Bakı iqtisadi modelini şaxələndirməyə və ölkəni regionun nəqliyyat-logistika mərkəzinə çevirməyə çalışır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, yeni beynəlxalq hava limanları, avtomobil magistralları və logistika mərkəzləri bu strategiyanın əsas elementləridir. Belə bir trategiyanın arxasında duran əsas məntiq ondan ibarətdir ki, enerji resursları tükənə bilər və ya bazar şərtləri dəyişə bilər, lakin coğrafi mövqe dəyişmir.

Çıxışın başqa bir siyasi xətti Türk Dövlətləri Təşkilatının gələcək statusu ilə bağlı idi. Prezident İlham Əliyevin təşkilatın dünyanın aparıcı beynəlxalq təşkilatları sırasına daxil edilməli olduğu barədə fikri strateji hədəf kimi qiymətləndirilməlidir. Prezident çıxışında göstərdi ki, TDT gələcəkdə siyasi və iqtisadi koordinasiya mərkəzi kimi nəzərdə tutulur. Yəni təşkilatın tədricən institusional gücə çevrilməsi ideyası artıq açıq şəkildə siyasi diskursda səsləndirilir. Əgər təşkilat gələcəkdə daha institusional formaya keçərsə, bir neçə istiqamətdə inteqrasiya dərinləşə bilər: ortaq investisiya və inkişaf bankı mexanizmləri, vahid tranzit və logistika siyasəti, gömrük prosedurlarının sadələşdirilməsi, enerji ixrac marşrutlarının koordinasiyası və beynəlxalq təşkilatlarda daha koordinasiyalı siyasi mövqe.

* * *

Qarabağın bərpasında Türk dövlətlərinin iştirakı ilə bağlı səsləndirilən fikirlər ayrıca və çoxqatlı siyasi məna daşıyır. Özbəkistan, Qazaxıstan və Qırğızıstan tərəfindən Qarabağda məktəb və mədəniyyət obyektlərinin tikilməsi dərin geosiyasi məzmun dayanır. Qarabağın bərpasında Türk dövlətlərinin iştirakının təmin olunması bu ərazini tədricən Türk dünyasının ortaq siyasi və mənəvi məkanına inteqrasiya edən bir proses kimi çıxış edir. Ümumilikdə, Bakı görüşü və Prezident İlham Əliyevin çıxışı bir neçə mühüm geosiyasi tendensiyanı aydın şəkildə ortaya qoyur. İlk növbədə, TDT çərçivəsində iqtisadi və nəqliyyat inteqrasiyası artıq deklarativ mərhələdən praktik mərhələyə keçir. İkinci mühüm tendensiya Orta Dəhlizin Avrasiya ticarət sistemində artan roludur. Üçüncü istiqamət Azərbaycanın bu prosesdə oynadığı roldur. Azərbaycan siyasi təşəbbüsləri, maliyyə resursları və infrastruktur yatırımları ilə bu inteqrasiyanın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Dördüncü və daha strateji tendensiya isə Türk dünyasının tədricən daha koordinasiyalı siyasi və iqtisadi blok kimi formalaşmasıdır.

Son olaraq qeyd edək ki, Bakı görüşü Avrasiyanın yeni nəqliyyat və iqtisadi arxitekturasının müzakirə olunduğu, Türk dünyasının inteqrasiya istiqamətlərinin konkretləşdirildiyi və Azərbaycanın bu prosesdə mərkəzi rolunu möhkəmləndirdiyi siyasi platforma kimi qiymətləndirilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Türk dövlətləri Orta Dəhlizə böyük önəm verir

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin hökumət başçıları Bakıda keçirilən iclasın yekunu üzrə Orta Dəhliz də daxil olmaqla, regional nəqliyyat marşrutlarının inkişafına dəstək ifadə ediblər. Bu barədə Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşünün sonunda qəbul edilmiş birgə bəyanatda deyilir.**



**Sənədə əsasən, görüş iştirakçıları innovasiya, rəqəmsal transformasiya və süni intellektin iqtisadi inkişaf üçün strateji əhəmiyyətini qeyd edib və bu sahələrdə əməkdaşlığın genişləndirilməsini dəstəkləyiblər.**

**Bəyanatda qeyd olunub: “Kosmik texnologiyaların artan əhəmiyyətini nəzərə alaraq, bu sahədə birgə təşəbbüslərin təşviqini, nəqliyyat dəhlizlərinin inkişafını və rəqəmsal əlaqələndirmə infrastrukturunun inteqrasiyasını dəstəkləyirik”.**

**Bundan başqa, tərəflər Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulayıblar.**

*XQ*

# Fransanın siyasi olimpində yeni qütbləşmə

## *Sosialistlər niyə zəifləyirlər?*

**Fransada siyasi qüvvələr arasında gərginlik partiyalara da sirayət edib. Xüsusilə Fransa Sosialist Partiyası daxilində son bələdiyyə seçkiləri zamanı hərəkatı zəiflədən dərin parçalanmalar indi onun 2027-ci ildə prezidentliyi qazanmaq şansını təhlükə altına salıb.**

Bir vaxtlar Fransa siyasi sisteminin əsas dayaqlarından biri kimi çıxış edən partiyanın bugünkü zəifliyi təkcə cari taktiki səhvlərlə izah oluna bilməz. Söhbət daha geniş, struktur xarakterli transformasiyadan gedir. Partiya uzun illər sosial rifahın müdafiəçisi kimi geniş seçici bazasına malik idi, lakin qloballaşma, sosial təbəqələşmənin dəyişməsi və yeni siyasi prioritetlərin ortaya çıxması bu modelin dayanıqlığını sarsıtdı. Nəticədə partiya özünün ideoloji əsaslarını yenidən müəyyənləşdirmək zərurəti ilə üzləşdi və prosesi uğurla idarə edə bilmədi. Uğursuzluq isə onun nüfuzunun tədricən azalmasına gətirib çıxardı.

Bir məqamı da vurğulayaq ki, ənənəvi seçici qrupları – işçi sinfi, aşağı və orta gəlirli təbəqələr artıq əvvəlki kimi sosialistlərin ətrafında konsolidasiya olunmurlar. Onların bir hissəsi mərkəzçi liberal qüvvələrə, digər hissəsi isə daha radikal sol və ya ifrat sağ partiyalara üz tutur. Bu parçalanma Fransa Sosialist Partiyasını siyasi spektrdə boşluqda saxlayır. Partiya daxilində gedən mübahisələr də ideoloji qeyri-müəyyənliyin birbaşa nəticəsidir. Hətta mübahisə o qədər kəskinləşib ki, sosialistlərin lideri Boris Vallo "Le Parisien" qəzetinə müsahibəsində strategiya ilə bağlı fikir ayrılığı səbəbindən istefa verə biləcəyini açıq şəkildə bəyan edib. Onun açıqlaması bir daha təsdiqləyir ki, rəhbərlik səviyyəsində belə strateji konsensus yoxdu, partiya daxilində qərarların qəbul edilməsi prosesi dərin fikir ayrılıqları ilə müşayiət olunur.



**ARAYIŞ:** *Mövcud vəziyyətin kökləri 2017-ci ildən, Fransua Hollandın prezidentlik dövrünün sonundan başlayır. Onun hakimiyyətdən aşağı reytinqlərlə getməsi sosialistlərin siyasi kapitalına ciddi zərbə vurdu. Həmin hadisədən sonra partiya artıq hakimiyyət iddiası olan əsas qüvvə əvəzinə, daha çox öz mövqeyini qorumağa çalışan struktur kimi fəaliyyət göstərməyə başladı. Sonrakı dövrdə Fransa siyasətində yeni mərkəzçi dinamika formalaşdı və Emmanuel Makronun rəhbərlik etdiyi liberal-sentrik xətt siyasi mərkəzi yenidən qurdu. Sosialistlər də seçim qarşısında qaldılar. Onlar ya bu mərkəzə inteqrasiya olunmalı, ya da daha sol mövqeyə keçməli idilər. Lakin partiya seçim edə bilmədi. Olivier Faurenin rəhbərliyi dövründə partiyanın "Əyilməz Fransa" ilə əməkdaşlığı bu dilemmanın praktik ifadəsi oldu. Məqsəd sol elektoratı birləşdirmək idi. Amma bu addım da əks effekt verdi. Çünki Jan-Lük Melanşonun təmsil etdiyi xətt daha radikal və qütbləşdirici xarakter daşıyırdı.*

Yeri gəlmişkən, partiyanın mərkəzçi qüvvələrlə əməkdaşlıq etməsi də onun siyasi xəttini ziddiyyətli hala gətirdi. Bir tərəfdən dövlət idarəçiliyində məsuliyyətli mövqe sərgiləmək, digər tərəfdən isə radikal sol qüvvələrlə ittifaqlar qurmaq seçicilərdə etimadsızlıq yaratdı. Son bələdiyyə seçkiləri bu ziddiyyətlərin nəticəsini açıq şəkildə ortaya qoydu. Ayrı-ayrı şəhərlərdə müəyyən uğurlar əldə olunsa da, ümumi mənzərə sistemli zəiflikləri ört-basdır edə bilmədi.

Bu gün partiya daxilində formalaşan iki əsas istiqamət gələcək strategiya ilə bağlı ciddi fikir ayrılığı yaradır. Bir tərəf hesab edir ki, geniş sol koalisiyalar vasitəsilə seçki uğuru əldə etmək mümkündür. Digər tərəf isə bunun partiyanın kimliyini daha da zəiflətdiyini və onu daha radikal qüvvələrin kölgəsində qoyduğunu düşünür. Mövcud fikir ayrılıqları kompromisi çətinləşdirir və qərarların gecikməsinə səbəb olur. Proses fonunda ifrat sağın yüksəlişi vəziyyəti daha da mürəkkəbləşdirir. Cordan Bardellanın artan populyarlığı siyasi rəqabətə təsir göstərir. Əlqərəz, mübarizə həm də sistem daxilində olan qüvvələrlə sistemə alternativ kimi çıxış edən populist hərəkatlar arasında gedir. Sosialistlər isə bu yeni siyasi reallıqda öz mövqelərini dəqiq müəyyənləşdirə bilmirlər.

Ölkədə keçirilən rəy sorğularının nəticələri də xüsusi diqqət çəkir. Nəticələrə görə, sol düşərgənin potensial namizədləri geniş elektorat üçün cəlbedici görünmür. Rafael Qlüksman kimi daha mülayim fiqurlar belə ifrat sağ qarşısında kifayət qədər güclü alternativ formalaşdıra bilmir. Görünür, partiya həm də liderlik böhranı yaşayır. Mərkəz-sağ düşərgədə Eduard Flipp kimi fiqurların ön plana çıxması siyasi spektrdə yeni balans yaradır. Belə olan halda Fransa Sosialist Partiyası iki qütb arasında sıxışaraq marginal mövqeyə sürüklənmək riski ilə üzləşir.

Mövcud şəraitdə FSP-nin qarşısında duran əsas vəzifə növbəti seçkilərə hazırlaşmaqla yanaşı, həm də siyasi kimliyini yenidən qurmaqdır. Lakin proses qısa müddətdə həyata keçirilə biləcək taktiki dəyişikliklərlə mümkün deyil. Partiya ya aydın ideoloji xətt seçməli, ya da mövcud qeyri-müəyyənliklə siyasi səhnədə arxa plana keçmək riskini qəbul etməlidir.

Sonda baş verən hadisələr fonunda alman filosofu Fridrix Nitşenin "kim öz yolunu müəyyən edə bilmirsə, başqalarının yolunda itib gedər" fikirlərini xatırlatmaq yerinə düşər. Çünki bu gün Sosialist Partiyasının üzləşdiyi çətinliklər də məhz ideoloji istiqamətin və siyasi kimliyin qeyri-müəyyənliyindən qaynaqlanır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Fransa Sosialist Partiyasında müşahidə olunan parçalanma ideoloji istiqamətin qeyri-müəyyənliyi ilə bağlı dərin böhranın göstəricisidir. Partiya daxilində fərqli qanadlar arasında həm iqtisadi siyasət, həm də seçki strategiyası ilə bağlı ciddi fikir ayrılıqları mövcuddur. Bu isə vahid namizəd və vahid siyasi xətti formalaşdırmağı çətinləşdirir. Xüsusilə bələdiyyə seçkilərində ortaya çıxan uyğunsuzluqlar göstərir ki, yerli səviyyədə belə koordinasiya zəifdir və bu, milli səviyyədə seçki kampaniyasına birbaşa təsir edir.

Mövcud vəziyyət 2027-ci il prezident seçkiləri ərəfəsində Sosialist Partiyasının mövqeyini daha da zəiflədir. Seçici bazasının parçalanması və liderlik böhranı partiyanın alternativ siyasi qüvvə kimi çıxış etməsini çətinləşdirir. Boris Vallonun istefa ehtimalını açıq şəkildə dilə gətirməsi isə daxili böhranın nə qədər dərin olduğuna dəlalət edir. Əgər yaxın zamanda partiya daxilində konsensus əldə olunmasa, sosialistlər yalnız seçkilərdə uduzan tərəf deyil, eyni zamanda, Fransa siyasətində təsir imkanlarını daha çox itirən bir aktora çevrilə bilər.

# Ölkəmizin tranzit gələcəyi

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan ərazisindən keçən yük qatarları artıq Ermənistana çatır. Rusiya və Qazaxıstandan gələn taxıl və digər kənd təsərrüfatı məhsulları ərazimizdən keçməklə Ermənistana göndərilir. Son aylar bu marşrutla 23,5 min ton taxıl, 1000 ton gübrə və 68 ton qarabaşaq daşınıb. Sonuncu dəfə aprelin 1-də Ermənistana taxıl daşıyan 5 vaqondan ibarət yük qatarı "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri Dəmiryol Stansiyasından yola düşüb. Bu, əlaqələrin genişləndiyini və regional iqtisadi inteqrasiyanın gücləndiyini göstərir.

Qeyd edək ki, 2025-ci ilin oktyabrında Azərbaycan yük tranziti üzrə mövcud məhdudiyyətləri tam aradan qaldırdı. Bu addım bir neçə mühüm aspekt üzrə Azərbaycanın maraqlarına xidmət edir. Birincisi, Azərbaycan yalnız mövcud nəqliyyat infrastrukturundan istifadə etməklə kifayətlənmir, həm də yeni marşrutlar üzrə imkanlarını diversifikasiya edir. Bu, ölkənin strateji mövqeyini gücləndirir və xarici investorlar üçün etibarlı tranzit tərəfdaşı imicini möhkəmləndirir. İkincisi, yenidən açılmış marşrutlar vasitəsilə yük daşımaları, xüsusən taxıl və enerji resursları, Azərbaycanın tranzit gəlirlərini artırmaqla yanaşı, regionda ticarət dövriyyəsini sürətləndirir və iqtisadi inteqrasiyanı təşviq edir. Üçüncüsü, bu yük tranziti yalnız iqtisadi maraqların qarşılıqlı toqquşması deyil, həm də sülhün gündəmə gəlməsinin praktiki nümunəsidir. Əslində, 1990-cı illərdən dayandırılmış dəmiryolu əlaqələrinin bərpası Azərbaycan və Ermənistan arasında etimad mühitinin formalaşmasına xidmət edir.

Eyni zamanda, bu hərəkətlilik yalnız iqtisadi fayda gətirmir, regional kommunikasiya infrastrukturunun normallaşmasına təkan verir. Bundan əlavə, həyata keçirilən tranzit Azərbaycan və Ermənistan arasında iqtisadi asılılıq yaradaraq siyasi etimadı gücləndirir. Azərbaycanın təşəbbüsü ilə açılmış yollar vasitəsilə nəqliyyat əlaqələrinin bərpası, tərəflər arasında dialoqun genişlənməsi üçün konkret vasitə rolunu oynayır və bölgədəki digər aktorlar – Gürcüstan, Türkiyə və ABŞ üçün də strateji imkanlar yaradır. Regional kommunikasiya şəbəkələrinin normallaşdırılması yalnız iqtisadiyyat və ticarət üçün vacib deyil, həm də Cənubi Qafqazda uzunmüddətli sülh və təhlükəsizliyin təmin olunması baxımından həlledici rol oynayır.

Onu da qeyd edək ki, tranzit marşrutları yalnız kənd təsərrüfatı məhsullarını deyil, enerji daşıyıcılarını da əhatə edir. 2025-ci ilin dekabrından SOCAR Ermənistana 6 min 878 ton yanacağı dəmiryolu ilə göndərib ki, bu da regionda enerji ticarətinin bərpasını təsdiqləyir.

Sərhədlərin açılması və nəqliyyat sistemlərinin birləşdirilməsi sülh prosesinə də müsbət təsir göstərir. ABŞ-ın vasitəçiliyi ilə əldə olunan bəzi razılaşmalarda regional inteqrasiya, kommunikasiya və sülhün dayanıqlığı mühüm yer tutur. Bu, siyasi dialoq və etimadın artması üçün real mexanizmlərin formalaşmasına yönəlmiş addımlardır. Bununla bağlı **Cənubi Qafqaz üzrə ekspert Konstantin Tasiç** bildirib: "Şübhəsiz ki, Rusiyadan Ermənistana Azərbaycan vasitəsilə yük daşımalarının açılması Ermənistan–Azərbaycan sülh prosesinə müsbət təsir göstərib. Bu, iki ölkə üçün sülh gündəliyinin əhəmiyyətli bir hissəsidir. Fakt budur ki, buğda və neft məhsullarını dəmir yolu ilə daşımaq daha sərfəlidir. Ümumiyyətlə, bu malların dəmir yolu ilə ixracı sərfəli olduğundan, onların tədricən artdığını demək olar".

Ekspert qeyd edib ki, Sovet dövründə Azərbaycanla Ermənistanı birləşdirən dəmir yolları Qarabağ münaqişəsi ərzində dağıdılıb: "Ermənistan hakimiyyəti dəmir yolu xətlərinin Azərbaycana bərpa edilməsinin zəruriliyindən və gələcəkdə iki ölkə arasında birbaşa əlaqəni təmin etmək üçün yenidən qurulacağından danışır. Bu perspektiv, birincisi, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması,



ikincisi, Ermənistan–Azərbaycan sərhədini keçmək üçün hüquqi və texniki məsələlərin (sərhəd keçid məntəqələrinin tikintisi) həlli ilə əlaqələndirilir".

K.Tasiç TRIPP layihəsinə də toxunub. Onun sözlərinə görə, TRIPP texniki layihə olmaqla yanaşı, Ermənistan və Azərbaycan arasında normallaşmanı dəstəkləyir, yeni iqtisadi qarşılıqlı asılılıq yaradır və münaqişəni keçmişdə buraxmağı hədəfləyir: "Layihə regional etimadı gücləndirir və gələcəkdə daha böyük tranzit koridorları üçün zəmin yaradır. Şübhəsiz, TRIPP dayanıqlı və alternativ bağlantı təmin edən layihədir. Ermənistan üçün əsas fayda TRIPP-in özündən çox, Azərbaycanın, Türkiyənin və digər istiqamətlərə açılan şərq–qərb bağlantılarıdır".

Beləliklə, indiki geosiyasi vəziyyətdə regionun nəqliyyat baxımından strateji əhəmiyyəti daha da artır. Orta Dəhliz, Trans-Xəzər dəhlizi və Zəngəzur dəhlizi yalnız ölkələrarası ticarətin təşkili üçün deyil, həm də regional inteqrasiyanın gücləndirilməsi, enerji və yük daşımalarının səmərəliliyinin artırılması baxımından böyük önəm daşıyır. Bu dəhlizlər, həmçinin Avropa ilə Asiya arasında etibarlı tranzit marşrutlarının formalaşmasında həlledici rol oynayır, müxtəlif geosiyasi gərginliklər şəraitində alternativ və dayanıqlı nəqliyyat imkanları yaradır.

Strateji baxımdan, bu dəhlizlərin fəaliyyəti geosiyasi risklərin idarə edilməsinə də imkan verir. Məsələn, enerji və ticarət resurslarının müxtəlif marşrutlarla daşınması, regional asılılığın azaldılmasına və iqtisadi təhlükəsizliyin təmin edilməsinə töhfə verir. Eyni zamanda, bu infrastruktur layihələri yalnız milli iqtisadiyyata deyil, həm də regional sabitliyə və təhlükəsizliyə müsbət təsir göstərir. Bu da ölkəmizi həm regional, həm də qlobal miqyasda etibarlı tranzit və iqtisadi tərəfdaş kimi mövqeləndirir, uzunmüddətli perspektivdə isə strateji üstünlük yaradır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Overçukun Ermənistanı təhdid tonu

*(əvvəli 1-ci səhifədə)*

Görünən budur ki, Paşinyan Prezident Vladimir Putinlə görüşdə Ermənistanın üzvü olduğu və Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına zidd xəttini bir daha açıqladı. O, keçmişi yada saldı və bildirdi ki, KTMT Ermənistanın təhlükəsizlik ehtiyaclarını ödəyə bilməyib. Söhbətin nədən getdiyinə qısaca nəzər salaraq xatırladaq ki, 2022-ci ildə Azərbaycan Silahlı Qüvvələri Ermənistanın davamlı təxribatına cavab olaraq şərti sərhəddəki bəzi yüksəklikləri nəzarətə götürdü. Rəsmi İrəvan bunu suverenliyə qəsb olaraq qiymətləndirdi və KTMT-dən kömək istədi.

Dediyimiz kimi, sərhəd şərti olduğundan, KTMT eskalasiya şəraitinin doğurduğu vəziyyəti işğal qismində qiymətləndirməkdən uzaq durdu və bu, Paşinyan və tərəfdarlarında ciddi qəzəb yaratdı. O zamandan Ermənistan və KTMT arasında hələ də aradan qalxmayan soyuqluq var. İndi isə soyuqluğun başqa fazası aktivdir. Yəni Paşinyan yada keçmişi salırsa, Overçuk hazırda baş verənlərdən söz açır. Əlbəttə, Paşinyan–Putin danışıqlarında digər məqamlara da toxunuldu və onları bir kənara qoyaraq, A.Overçukun bilavasitə nəyin üzərində dayandığına nəzər salaq.

Beləliklə, Overçuk deyib ki, Moskva Ermənistanın Rusiya üçün artıq düşmən blok halına gəlmiş Avropa İttifaqına qoşulmağa hazırlaşmasından narahatdır: "Ermənistan dəmir yolları ilə bağlı konsessiya ətrafında baş verən proseslərin nümunəsində müşahidə etdiklərimiz Ermənistan rəhbərliyinin iqtisadi tənəzzül yaşayan və Rusiya üçün düşmən hərbi-siyasi bloka çevrilən Avropa İttifaqı ilə yaxınlaşma kursunun siyasi məntiqinə uyğun gəlir".

Ona görə də Overçuk İrəvana gəldiyi nöqtəni xatırladır və mesaj verir. O mesajı ki, onu Prezident Putin də vermişdi. Məsələn, Rusiya dövlət başçısı Paşinyanla görüşdə demişdi ki, ölkəsi Ermənistana qiyməti 600 dollar olan qazı cəmi 170 dollara satır. Satmasa, necə olacaq? Hesab edirik ki, Ermənistan üçün kifayət qədər ciddi problem yaranacaq. Overçuk da problemlə bağlı xəbərdarlıq edir. Yəni Putinin açıq şəkildə demədiyini diqqətə çatdırır: "Ermənistan elə bir nöqtəyə yaxınlaşıb ki, bundan sonra Rusiyanın onunla iqtisadi münasibətləri başqa cür qurmalı olacağı qaçılmazdır".

Şübhəsiz, "münasibətləri başqa cür qurmaq" məntiqində Ermənistana 170 dollara aldığı qazı 600 dollara satmaq ola bilər. Buna görə də A.Overçuk rəsmi İrəvanın seçim etməli olduğunu vurğulayır. Seçimə gəldikdə, onun siyasi təzahürü aydındır. İrəvan Qərbyönümlü xətt yürütməkdə, iqtisadi planda isə Rusiyadan asılıdır. Paşinyan administrasiyasının bu asılılığı aradan qaldırmaq üçün müxtəlif üsul və vasitələrə əl atdığı məlumdur. Amma...

"Əmma" var və böyükdür. Axı A.Overçuk hazırda Ermənistan dəmir yolları ilə bağlı məsələdən əbəs yerə söz açmır. Qeyd edək ki, Rusiya baş nazirinin müavini əvvəllər mövzuya daha əhatəli nəzər salmışdı. Məsələ ondadır ki, "Cənubi Qafqaz Dəmir Yolu" şirkəti "Rusiya Dəmir Yolları" ASC-nin törəmə qurumu kimi Ermənistanın dəmir yolu şəbəkəsinin idarə olunması üzrə





konsessiyaya malikdir. Müvafiq olaraq, regionda Rusiya dəmir yolunun ölçüsü istifadə olunur. Overçukun vaxtilə dedikləri onu söyləməyə əsas vermişdi ki, təkcə bu sistemin özünün sıradan çıxması, yaxud əvəzlənməsi Ermənistanı Rusiya qarşısında borclu çıxaracaq. Bu barədə bir qədər ətraflı söz açaq.

Rəsmi Moskvanın yanaşmasına görə, Ermənistan öz dəmir yollarını Rusiyanın patronajlığından çıxarmaq istəsə, birincinin ikinciyə elə bir borcu yaranacaq ki, həmin borcu nə onun özü, nə də xaricdəki dostları ödəyə biləcək. Nəzərə alaq ki, Rusiya tərəfi 1990-cı illərin əvvəllərində Ermənistanın dəmir yolu şəbəkəsinin vəziyyətinin acınacaqlı olduğunu və Moskvanın mövcud sahəyə ciddi investisiya yatırdığını rəqəmlərlə göstərməyi də yaddan çıxarmır.

Yəni obrazlı desək, Ermənistanın Rusiya ilə "məcburi nigahdan" ayrılmasının təzminatı böyük olacaq və bunu Paşinyan administrasiyası anlamamış olmaz. Amma Nikol və tərəfdarları qəsdən əsl mahiyyətdən uzaq dururlar. Onların düşüncələrindən gəlinən iki qənaət var. Birincisi, Ermənistan KTMT ilə pis keçinə bilər, amma Avrasiya İqtisadi İttifaqı ilə yaxşı olacaq. İkincisi, İrəvan Aİİ-də qala-qala, Avropa İttifaqına can atacaq.

A.Overçukun fikirləri belə bir dünyanın mümkünsüzlüyünün vurğulanmasıdır. Ən əsası, o, İrəvan üçün çəmbərin daraldığını deyir və Paşinyan administrasiyasını səmimi davranmağa çağırır. Məsələn, Overçuk bildirib ki, həm ikitərəfli görüşlərdə, həm də Avrasiya İqtisadi İttifaqı formatında erməni rəhbərləri Rusiya ilə dostluqdan danışır və Aİİ-yə sadiq olduqlarını bildirirlər. Halbuki onların sözləri ilə əməlləri üst-üstə düşmür. Sözlə əməl üst-üstə düşmürsə, deməli, baxış dəyişməlidir. Overçuk Rusiyanın Ermənistanla iqtisadi münasibətləri fərqli şəkildə qurmalı olacağını məhz buna görə vurğulayır.

Sonda diqqət yetirəcəyimizi anons etdiyimiz məqama gələk. Deməli, Overçuk ermənilərin Rusiyaya düşmən bir blokun tərkib hissəsinə çevrilmək istəyib-istəməməsinin onların öz işi olduğunu vurğulayıb. "Bizim üçün isə aydındır ki, onları buna hazırlayırlar və hadisələrin bu cür inkişafının uzunmüddətli ağır nəticələri də aydındır", – deyən Kreml təmsilçisinin fikirlərindəki ən böyük təhdid tonu məhz budur.

Ən başlıcası, Overçukun tonunda müəyyən subliminalizm elementi var. Məsələ ondadır ki, Rusiya uzun müddət forpostu olmuş Ermənistanın nəzarətdən çıxması reallığını qəbul etmir. Ölkənin həm rəsmi dairələrində, həm də ictimai fikrində belə düşüncə var ki, sadə ermənilər ayrıdır, Paşinyan hakimiyyəti bir ayrı.

A.Overçukun diqqətə çatdırdığımız fikirləri də məhz diqqətə çatdırdığımız baxışa əsaslanır. O, faktiki olaraq, Ermənistan vətəndaşlarının Rusiya ilə yolları ayırmaq istəmədiklərini deyir. Amma onu da deyir ki, Rusiya ilə yolları ayırmaq istəməyən ermənilər hərəkətə gəlməli və ölkələrini Rusiyaya düşmən münasibətdə olan birliyə aparan hökuməti tarixin arxivinə göndərməlidirlər. Göndərməsələr, vəziyyətləri pis olacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Planetimiz ciddi gərginlik içindədir. ABŞ və İsrailin İrana qarşı başlatdığı müharibə fonunda Yaxın Şərqdə yaşananlar “böyük güclər”in görünməyən enerji daşıyıcıları uğrunda mübarizəsi eskalasiyanı səngiməyə qoymur. Körfəz ölkələrinin müharibəyə qarışması diqqəti müəyyən qədər Rusiya–Ukrayna müharibəsindən yayındırıb. İntəhası, həm Yaxın Şərq, həm də Ukrayna müharibələri eskalasiyanın praktiki olaraq qaçılmaz olduğu nöqtələrdir. İlk baxışda iki qitədə iki cəbhənin yaratdığı və bütün dünyanı sarsıdan hərbi-siyasi, iqtisadi-ticari gərginliyi mümkün sayılan vasitələrdən istifadə etməklə azaltmaq olar. Amma həmin vasitələrin uğurla həyata keçirilməsi qarşı duran tərəflərdən siyasi iradə və cəsarət tələb edir.**

# Qərbdə və Şərqdə silahları kim susduracaq?

## *Planetimiz hərbi-siyasi təhlükənin astanasındadır*

Problem ondan ibarətdir ki, hər iki münaqişədə müharibə alovunun yeni ərazilərə və ölkələrə yayılması riskini daşıyan üfüqi eskalasiya ehtimalı artır. Görünən odur ki, ABŞ və İsrailin İrana qarşı hərbi kampaniyası Vaşinqton və Təl-Əvivin əvvəlcədən düşündüyü və ümid etdiyi ssenari üzrə inkişaf etmədi. Tandemin hansı siyasi və hərbi



məqsədləri güdməsinə baxmayaraq, birləşmiş qüvvələrini İran üzərinə yeritməklə tez nail olmaq istədikləri hədəflərə çata bilmədi. Nəticədə, “A” planının təşəbbüskarları hazırda böyük qüvvə və resurslar istəyən, prinsipial olaraq onları uzunsürən və gözlənilməz müharibəyə cəlb edən və getdikcə daha da mürəkkəbləşən “B” ssenarisinə keçmək məcburiyyəti ilə üz-üzə qoyub.

Diqqətçəkən məqamlarıdan biri də raket və anti-raket ehtiyatlarının kritik tükənməsi ABŞ siyasət dairələrində və mediasında əsas müzakirə mövzusuna çevrilib. Bu zaman Tehran özünün əsas geoiqtisadi arqumentindən – Hörmüz boğazı vasitəsilə daşınmaları məhdudlaşdırmaq üsulundan istifadə etməyə başladı. Nəticədə dünyanın enerji ixrac edən əksər ölkələri Yaxın Şərq müharibəsinin fəsadlarını daxili bazarlarında və öz ciblərində hiss etdilər. Bu isə qlobal tənəzzülün əlaməti kimi qəbul oluna bilər. Arzuolunmaz prosesin qarşısını almağa çalışan rəsmi Vaşinqton öz üzərində siyasi təzyiqləri hiss etməkdədir. Donald Tramp administrasiyası üçün ideal alternativ hərbi əməliyyatların aktiv fazasını mümkün qədər tez bitirmək, məqsədlərinə çatdığını elan etmək və böhranı İranla siyasi razılaşma yolu ilə həll etmək olardı. Amma indiki durumda tərəflərin dialoq üçün zəruri sayılan qarşılıqlı kompromislərə nə dərəcədə hazır olduğunu müəyyən etmək çətindir. Ağ Ev Tehrana münaqişəyə son qoymaq üçün 15 bəndlik plan göndərsə də, qarşı tərəf bu planı qeyri-real, maksimalist plan kimi rədd edib. Buna baxmayaraq, kompromisə doğru qarşılıqlı hərəkət zəruridir. Belə gərgin mərhələdə kompromis ya siyasi iradə, ya da hərbi qarşıdurmanın daha da kəskinləşməsi nəticəsində əldə edilir. Ən pisi, hər iki tərəfin eskalasiya potensialına malik olmasıdır. Belə arzuolunmaz variantda ABŞ-ın hərəkətləri və ən çox ehtimal olunan yolu İrana qarşı hava hücumlarının dağıdıcılığını və uzunmüddətli həssaslığını artırmaqdır. Burada yerüstü işğal planına da start verilə bilər. Fəqət quru əməliyyatını başlatmaqdan ötrü ABŞ-dan böyük canlı qüvvə, texniki-maddi və bəlkə də siyasi resurslar tələb olunur.

İranın da öz növbəsində hərbi eskalasiyanı daha da artırmaq üçün öz variantları var. Birincisi, Tehranın körfəz ölkələrində eskalator zərbələrinə tuş gələ biləcək çoxsaylı potensial hədəfləri var. Üstəlik və ən qorxulusu, İran hakimiyyəti İsrailin nüvə obyektlərinə raket hücumlarını istisna etmədiyini açıq şəkildə bildirib. Təxminən 1 həftə bundan əvvəl İran raketləri İsrailin nüvə başlıqlarının saxlanıldığı anbarın yerləşdiyi Dimona şəhərinə zərbə endirib. Ekspertlər hesab edirlər ki, İranın bu obyektlərə zərbə endirmək üçün texniki imkanları var. Bundan ötrü, sadəcə, müvafiq siyasi qərarın qəbul edilməsi lazımdır.

***

Beləliklə, hər iki müharibədə mümkün eskalasiyanın nəticələrini ancaq təxmin etmək mümkündür. Hazırda nə münaqişənin bilavasitə tərəfləri, nə də sonradan nəzarətsiz eskalasiyanın nəticələrini yaşayacaq ölkələr fəsadları heç bir ağlabatan dəqiqliklə hesablaya bilməzlər. Açıq demək lazımdır ki, məhz bu, beynəlxalq ictimaiyyətin xüsusi həssaslıqla yanaşdığı və artıq üzləşdiyi əsas təhlükədir. Ukrayna və Yaxın Şərq müharibələrinin getdikcə bir-birinə bənzəyən bəhanə qarışıq məntiqlərini və hərəkətverici qüvvələrini nəzərə alsaq, təhlükənin nə qədər real olduğunu təsəvvür etmək belə qorxuludur. Bəzi analitik və şərhçilərin irəli sürdükləri fərziyyələrə görə, bu, heç də planetin III Dünya müharibəsinə doğru mümkün sürüşmə astanasında olması anlamına gəlmir.

Canlı şahidi və zorən iştirakçısı olduğumuz dövrün iki əsas döyüş meydanının bir-birinə qarışmış məntiq və dinamikasını Üçüncü Dünya müharibəsi adlandırmaq üçün hələlik heç bir əsas yoxdur. Sadəcə olaraq, “dünya müharibəsi” termininə bütün tarixi ciddiliklə yanaşsaq, həm Ukrayna, həm də İran müharibələrini sistemli və “xüsusi hərbi əməliyyatlar” adlandırmaq üçün əsaslar daha çoxdur. Danılmaz həqiqət ondan ibarətdir ki, dünyamızın gələcək nizamı bu iki münaqişənin nəticəsindən birbaşa asılı olacaq. Təəssüf ki, hazırda planetin “ən böyük gücləri” belə sadə hərəkətlərlə növbəti beynəlxalq düzənin dəqiq formasına təsir edə bilməzlər. Yəni hər şeyi çoxsaylı mürəkkəb və gözlənilməz hadisələr zənciri və proseslər müəyyən edəcək. Bunu isə ancaq zaman göstərəcək. Bununla belə, maraqlı dövlətlər İran və Ukrayna müharibələrində eskalasiya perspektivlərinə, xüsusən də yeni ölkələrin eskalasiya potensialına təsir göstərə bilərlər. Eskalasiya risklərini məhdudlaşdırmaq üçün atılması tələb olunan zəruri addımlar bəllidir: siyasi və hərbi dialoq, qarşılıqlı güzəştə gedilməsi, etimad və təhlükəsizliyin möhkəmləndirilməsi tədbirləri, hərbi şəffaflığın artırılması.

Effektiv təsirə malik bu alətlər dəsti yaxşı işlənib hazırlanmış, institusionallaşdırılmış və uzunmüddətli ikitərəfli və çoxtərəfli sazişlərdə təsbit edilib. Amma problem onu həyata keçirmək üçün siyasi iradədədir. İndiki təhlükəli şəraitdə siyasi iradə və cəsarət qızıl dəyərindədir.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

İran 90 milyondan çox əhaliyə malik böyük dövlətdir. Tarixi inkişaf mərhələləri var. Beş-altı raket atıb hədə-qorxu gəlməklə İranın təslim olacağını güman etmək qeyri-ciddi düşüncə idi. Amma onu da deməliyik ki, ABŞ və İsrail qarşılarına qoyduqları məqsədlərin böyük əksəriyyətinə nail olublar. İranın nüvə proqramı neçə on illər geri atılıb. Onları bərpa etməkdən ötrü yüz milyardlarla dollar vəsait tələb olunacaq. Raket proqramı ilə bağlı da eyni sözləri demək olar. Bunlardan başqa, bu ölkənin hərbi infrastrukturu darmadağın edilib. Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə sistemləri, eləcə də donanması sıradan çıxarılıb. Məhz bu baxımdan ABŞ-İsrail tandemi öz məqsədlərinə çatıb.

Sadəcə olaraq, İranda faktiki olaraq hakimiyyəti ələ alan SEPAH mövcud vəziyyətə “əgər təslim olmamışıqsa, deməli, münaqişədən qalib çıxmışıq” prizmasından yanaşır. Amma nəticə göz qabağındadır. Hörmüz boğazını bağlamaqla dünyanın şantaj edilməsi də uzun sürməyəcək. Elə məqam gəlib çatıb ki, tərəflər papaqlarını qarşılarına qoyub fikirləşməlidirlər: bundan sonra nəyi qazana, nəyi isə itirə bilərlər?

Onu da deyim ki, İranda insanlar artıq ayılıb və onlar boğazından kəsilən trilyonlarla vəsaitin lazımsız məqsədlər üçün xərcləndiyinin fərqindədirlər. Əlbəttə ki, davam edən eskalasiyadan təkcə bölgə ölkələri deyil, bütün dünya narahatdır. Hesab edirəm ki, aprelin sonunadək əməliyyat davam etdiriləcək. ABŞ Konstitusiyasına görə, prezident Konqresin icazəsi olmadan hərbi əməliyyat 60 gündən artıq aparıla bilməz. O vaxtadək eskalasiyanın zəifləyəcəyini, hücumların intensivliyinin azalacağını güman edirəm. İstisna olunmur ki, “böyük güclər”, xüsusilə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ və Çin hansısa ortaq məxrəcə gələcəkləri halda TŞ-nin müvafiq qətnaməsi ilə məlum hərbi münaqişənin həm tamamlanması, həm də gələcəklə bağlı hüquqi çərçivələr müəyyənləşdiriləcək.

# Aprel 2016: işğalçı Ermənistana “ayılmaq” dərsi

## *Qarabağ münaqişəsinin “hərbi həll yoxdur” yalanının iflası*

**Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərinin 10-cu ildönümü tamam olur. 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq ordumuz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Ordumuz Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Dördgünlük döyüşlər keçmiş Qarabağ münaqişəsində dönüş anına səbəb olaraq ölkəmizin artan hərbi qüdrətini və status-kvonun dəyişmək əzmini nümayiş etdirdi.**



Aprel döyüşləri lokal hərbi qarşıdurma olmaqdan çıxaraq qısa müddətdə beynəlxalq gündəmin də əsas mövzularından birinə çevrildi. Hadisələrin miqyası müxtəlif qlobal aktorların diqqətini bölgəyə yönəltdi və prosesə dair mövqelərin səsləndirilməsinə səbəb oldu. Müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar eskalasiyanın dayandırılması üçün çağırışlar etsələr də, bu çağırışlar tərəflərin mövqeləri kimi fərqliliyi ilə seçildi. Əlbəttə, ilk növbədə keçmiş münaqişənin həllini öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun 3 həmsədr dövlətinin – ABŞ, Fransan və Rusiyanın xarici siyasətə cavabdeh qurumlarının və rəsmi şəxslərinin verdikləri açıqlamalar diqqəti cəlb edirdi. Qeyd etmək lazımdır ki, həmin dövrdə ABŞ-da Prezident İlham Əliyevin bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibədə dediyi sözlərlə desək, Azərbaycanla kifayət qədər məsafəli davranan Obama–Bayden administrasiyası hakimiyyətdə idi. Onların Dövlət katibi, qatı ermənipərəst, senator olduğu dövrdə bədnam 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmiş Con Kerri, ermənipərəstlikdə və azərbaycanofobiyada ondan geri qalmayan müavini Viktoriya Nuland ölkəmizi açıq şəkildə təhdid etdilər. Kerrinin bəyanatında deyilirdi: “Birləşmiş Ştatlar dinc əhali arasında da ölümlə nəticələnən Dağlıq Qarabağda qoşunların təmas xətti boyunca atəşkəs rejiminin genişmiqyaslı şəkildə pozulmasını qətiyyətlə pisləyir. Biz bütün tərəfləri təmkin göstərməyə və atəşkəs rejiminə ciddi riayət etməyə çağırırıq. Biz bir daha təkrarlayırıq – münaqişənin hərbi yolla həlli yoxdur. Həmsədr ölkə olaraq ABŞ dayanaqlı və razılaşdırılmış sülhə nail olmaq üçün münaqişə tərəfləri ilə işləməyə sadiqdir”.

Fransa Prezidenti Fransua Olland da münaqişəni yalnız danışıqlar yolu ilə həll etmək mümkün olduğu fikrini bildirdi. Onun ofisinin yaydığı açıqlamada deyilirdi: “Prezident Dağlıq Qarabağda, təmas xəttinin yaxınlığında dinc əhali arasında da itkilərlə nəticələnən ciddi insidentlərdən dərindən təəssüflənir”. Olland bütün tərəfləri (?) təmkinliyə və atəşkəs rejiminə əməl etməyə çağırmışdı: “Danışıqlara alternativ yol yoxdur. 2014-cü ilin oktyabrında Parisdə Azərbaycan və Ermənistan prezidentlərini qəbul etmiş prezident Olland münaqişənin tez bir zamanda sülh yolu ilə nizamlanmasına sadiqliyini təsdiqləyib”.

Digər həmsədr dövlət – Rusiyanın reaksiyası isə operativ və ehtiyatlı xarakter daşıyırdı. Moskva dərhal atəşin dayandırılmasına, eskalasiyanın qarşısının alınmasına və vasitəçilik rolundan istifadə olunmasına fokuslanmışdı. Moskva döyüşlərin dayandırılmasında fəal iştirak etdi. Rusiya Müdafiə Nazirliyi Ermənistan və Azərbaycanın baş qərargah rəislərinin görüşünü təşkil etdi və nəticədə atəşkəs barədə razılaşma əldə olundu. Bütövlükdə, şimal qonşumuz ehtiyatlı mövqe nümayiş etdirdi. Rusiya açıq şəkildə hansısa tərəfi dəstəkləməkdən çəkinərək balansı qorumağa çalışdı. Bununla belə, Ermənistanın KTMT müttəfiqi, Azərbaycanın isə strateji tərəfdaş olması vəziyyəti daha həssas edirdi. Rusiya danışıqlar prosesinin tezliklə bərpasına çağırış edir, həmçinin münaqişənin davam etməsinə təhrik edən xarici qüvvələri tənqid edirdi. Aprel döyüşləri Rusiya–Ermənistan və Rusiya–Azərbaycan münasibətləri üçün bir növ sınağ çevrildi. Hadisələr göstərdi ki, Moskva kritik eskalasiyaya yol verməddən hər iki tərəf üzərində təsirini qorumağa çalışır.

BMT-nin Baş katibi Pan Gi Mun bütün tərəfləri hərbi əməliyyatlara son qoymağa, atəşkəs rejiminə tam əməl etməyə və vəziyyətin sabitləşməsi üçün addımlar atmağa çağırdı. O dövrdə Almaniyanın xarici işlər naziri, hazırda prezidenti olan Frank-Valter Ştaynmayer hər iki tərəfi dərhal döyüşü dayandırmağa və atəşkəs rejiminə tam əməl etməyə səsləmişdi.

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini qarşıdurmanın getdikcə ciddi xarakter almasından narahatlığını bildirmişdi: “Əmin olmaq istəyirik ki, münaqişə tərəfləri baş verənlərin məsuliyyətini anlayır və beynəlxalq təşkilatların narahatlığına anlayış göstərəcəklər. Biz münaqişənin danışıqlar masası arxasında və sülhlə nəticələnməsini istəyirik”.

***

Aprel döyüşləri gerçək dostlarımızın və düşmənlərimizin kim olduğunu bir daha üzr çıxardı. Əsas strateji müttəfiqimiz olan qardaş Türkiyənin Prezidenti Rəcəb Prezident İlham Əliyevə telefonla zəng etdi. O, qoşunların təmas xəttində baş verən silahlı toqquşma zamanı Azərbaycan Ordusunun hərbi qulluqçularının şəhid olması ilə bağlı İlham Əliyevə başsağlığı verdi. Rəcəb Tayyib Ərdoğan başqa bir açıqlamasında isə “çox təəssüf ki, neçə illər ərzində Dağlıq Qarabağ bölgəsindəki münaqişəyə Minsk qrupu həmsədrləri laqeyd yanaşdığı üçün biz bu mənzərə ilə qarşı-qarşıya qaldıq” demişdi.

Pakistan Prezidentinin katibi Əhməd Fərrux bildirmişdi ki, İslamabad həmişə Bakının yanındadır və Azərbaycana dost və qardaş ölkədir. Gürcüstanın müdafiə naziri Tinatin Xadeşeli Tbilisinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin tezliklə beynəlxalq hüquq normaları əsasında sülhlə həll olunacağına ümid etdiyini bildirmişdi.

Həmin günlərdə müdafiə naziri, general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri, general-mayor Hüseyn Dehqanla qoşunların təmas xəttində yaranmış gərginliyi telefon vasitəsilə müzakirə etmişdilər. Danışıqlar zamanı H.Dehqan İranın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha qeyd edərək münaqişənin qısa müddət ərzində beynəlxalq hüquq normaları əsasında həll olunacağına ümid etdiyini bildirmişdi. O, İranın Azərbaycan tərəfinə münaqişənin həll olunması istiqamətində yardım və dəstəyini təklif etmişdi. Ukrayna Prezidenti Petro Poroşenko Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirmişdi. Belarus Xarici İşlər Nazirliyinin aprelin 2-də yaydığı bəyanatda deyilirdi ki, Minsk Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

Bütövlükdə, bütün beynəlxalq reaksiyaların məzmunu göstərirdi ki, həmin dövrdə bir çox aktorlar regionda mövcud status-kvonu qorumağa çalışır, prosesin hərbi yolla dəyişməsinin mümkünsüzlüyünü iddia edirdilər. Lakin zaman göstərdi ki, bu yanaşmalar reallığı əks etdirmirdi. Azərbaycanın getdikcə möhkəmlənən siyasi iradəsi, artan hərbi gücü və strateji qərarlılığı nəticəsində illərlə “hərbi yolla həlli yoxdur!” deyilən münaqişə 2020-ci ildə öz ədalətli sonluğunu tapdı. Bu gün Cənubi Qafqazda tamamilə yeni təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşırsa, bunun təməlində məhz Aprel döyüşlərinin yaratdığı dönüş nöqtəsi dayanır. Həmin döyüşlər sübut etdi ki, ədalət hər zaman güclü mövqe və prinsipial siyasət tələb edir. Azərbaycan öz suverenliyini bərpa etməklə yalnız tarixi ədaləti təmin etmədi, həm də regionda yeni geosiyasi düzənin əsasını qoydu. Şanlı Aprel döyüşləri bu yolun başlanğıcı, qələbəyə aparan iradənin ilk parlaq təzahürü oldu.

***Səxavət HƏMİD***
***XQ***

# Regional və qlobal əməkdaşlıqda Azərbaycan təcrübəsi



## III MƏQALƏ

### Beynəlxalq davranış strukturuna təhdid

Cənubi Qafqazda regional sabitlik və təhlükəsizliyin qlobal miqyasda əməkdaşlığa yaratdığı imkanlar kontekstində iki əhəmiyyətli məqama nəzər salmaq lazım gəlir. Bu məqam Azərbaycan Prezidentinin müəyyən etdiyi üçüncü təməl prinsipdə dəqiq ifadə edilmişdir. Üçüncü prinsip aşağıdakı kimidir.

**Üçüncü prinsip:** “Zənnimcə, dünyada hazırda baş verənlər – yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu, həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur” (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev).

Bu prinsip Azərbaycanın müasir siyasi təcrübəsinin çox mühüm cəhətini aydınlaşdırır. Dövlət başçısının yanaşmasında müstəqil dövlətin ərazi bütövlüyünün bütün hallarda təmini şərtinin olduğu aydın görünür. Ərazi bütövlüyünün pozulması beynəlxalq hüquq və normalara hörmət edilməyəndə və bunun təzahürlərindən biri olan beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda baş verir.

Deməli, Azərbaycan təcrübəsində dünya üçün qiymətli olan məqamlardan biri beynəlxalq hüquq və normalara əməl olunmasının müasir milli dövlətçiliyin təməl şərtlərindən olan ərazi bütövlüyünün pozulmaması üçün xüsusi əhəmiyyət daşıdığının təsdiqi ilə bağlıdır.

Buradan belə alınır ki, Azərbaycan Prezidentinin ifadə etdiyi siyasi təcrübə prinsipi – beynəlxalq hüquqi normalara əməl etmənin mücərrəd deyil, hər bir cəmiyyət üçün tarixi əhəmiyyəti olan dövlətçiliyin təmini ilə sıx əlaqəlidir. Yəni dünya ictimaiyyəti və beynəlxalq təşkilatların uzun illər Azərbaycana təcavüz edib ərazi bütövlüyünü pozanlara dəstək vermələri “dünyanın öz ayağının altını qazması” oldu. İndi hansı dövlətin ərazi bütövlüyünün hansı beynəlxalq təşkilat tərəfindən qoruna biləcəyi sualına kimsə cavab verə bilməz!

Bütün bunlardan Azərbaycan təcrübəsinin üçüncü prinsipinin ana tezisi – “yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdiddir”, alınır. Bu, məntiqi olaraq, Azərbaycan liderinin dahiyanə surətdə dünyaya həm xəbərdarlıq etməsidir, həm də uğurlu təcrübəni paylaşmağa hazır olduğunun ismarışıdır. Bu məqam xüsusilə, son zamanlar dünyada baş verən gərgin proseslərin fonunda arxiaktual görünür.

İndi siyasilər, diplomatlar, hərbçilər, analitiklər və ekspertlər dünyanın həqiqi anlamda xaosun astanasında olduğundan bəhs edirlər. ABŞ və İsrailin İrana qarşı başladığı hərbi əməliyyatlar nəzərdə tutulan çərçivədən çıxaraq, bütün dünya üçün təhdid yaradan vəziyyətə gəlmişdir. Qarşılıqlı hərbi zərbələr intensivləşir və həm də miqyası genişlənir. Belə görünür ki, bəşəriyyət artıq 3-cü dünya müharibəsi içindədir.

Bunların fonunda Azərbaycanın siyasi təcrübəsinin növbəti prinsipinin vacibliyini dərk etmək çətin deyildir. Bu prinsip aşağıdakı kimidir.

### Savaşçılarla paylaşa biləcəyimiz təcrübə

**Dördüncü prinsip:** “Bəzən bunu etmək zəruridir, xüsusilə də əmin olduğunuz halda ki, haqlısınız. O zaman sizi əngəlləməyə çalışanları, maraqlarınıza xələl gətirmək istəyənləri nəzərə almamalısınız. Həmçinin hesab edirəm ki, bu, müharibə aparanlarla paylaşa biləcəyimiz daha bir təcrübədir” (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev).

Bu prinsipdə lider üçün mühüm olan iki psixoloji şərt ifadə edilmişdir. Birincisi, lider haqlı olduğuna tam əmin olmalıdır. İkincisi, belə bir əminlik şəraitində qarşıya çıxa biləcək hər növ əngəli aşmaq iradəsinə, zəkasına və diplomatik məharətinə malik olmalıdır.

Vurğulanan 2 vacib zəkavi-psixoloji-iradi keyfiyyətin indi müharibə aparanlarla paylaşmaya Azərbaycan Prezidentinin hazır olmasının tam əsası vardır. Çünki artıq daha aydın olur ki, müharibəyə başlayanlar tam haqlı olduqlarına dərinlərdə əmin deyillərmiş. Buna görə də qarşıya çıxan müqaviməti keçmək üçün sona qədər qətiyyətli olmaya bilərlər. Bunun nəticəsi isə bütün dünya üçün faciəvi ola bilər. Artıq buna uyğun ehtimalları hətta Qərbdəki bir sıra ekspertlər belə ifadə edirlər.

Deməli, Azərbaycan təcrübəsi sübut edir ki, haqlısansa, sona qədər gedə bilərsən. Bu yolda səni dayandıra biləcək qüvvə meydana çıxa bilmir. Əks halda, müxtəlif ssenarilər və qeyri-müəyyən proqnozlar ağıla hakim kəsilir.

Bunlar Azərbaycanın siyasi təcrübəsində ayrıca yeri olan növbəti prinsipi aktuallaşdırır.

### Qlobal nizam və enerji təhlükəsizliyi

XIII Qlobal Bakı Forumunda Azərbaycan dövlət başçısı bəyan etmişdir: “Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin – neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq”.

Azərbaycan Prezidentinin vurğulanan qənaəti indiki qlobal vəziyyəti tam dəqiqliklə ifadə edir. Sözün həqiqi mənasında, hazırkı mərhələdə hər bir ölkə üçün “enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır”. İndi Hörmüz boğazının açıq və ya qapalı qalması enerji ilə təminat məsələsində ölüm-dirim mücadiləsi kimi qəbul edilir. Hindistan İrana boğazı bağladığına görə rəsmi etiraz etmişdir. ABŞ özünün Hörmüzdən asılı olmadığını bəyan edir. Vaşinqton hətta Avropanı hədələmişdir ki, “məsələni özünüz həll edin”. D.Tramp “qorxaqlar”, “NATO oyuncaq şirdir” kimi ifadələr işlətmişdir. Avropa ölkələri isə həyəcan təbili çalmaqdadırlar.

Enerji infrastrukturunun dağıdılması ərəb ölkələrini son dərəcə çətin vəziyyətə salmışdır. Onlar böyük zərər görürlər, lakin proses dayanmaq bilmir. Bunun fonunda ABŞ-ın 1 ay müddətinə İran neftinə tətbiq etdiyi sanksiyanı ləğv etməsi maraqla qarşılanmışdır. Bütün bunların fonunda beşinci təməl prinsip Azərbaycan Prezidentinin aşağıdakı fikirləri böyük önəm daşıyır.

Dövlət başçısı demişdir: “Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada, bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırılabilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir”.

### Bağlılıq və nəqliyyat marşrutları

Belə qənaət alınır ki, artıq dünyanın xilası məsələsi nəzəri-konseptual məsələdən praktiki reallaşma mərhələsinə keçid etmişdir. Liderlərin siyasi-diplomatik manevr imkanları tükənmək üzrədir. Bəşəriyyət əvəzinin ödənilməsinin çox çətin ola biləcəyi fəlakət həddinə yaxınlaşmaqdadır. Bunun fonunda uğurlu siyasi təcrübənin qlobal miqyasda yeri və rolu yeni prizmada daha aktual görünür. Azərbaycanın siyasi təcrübəsi fonunda bu məsələ necə görünür?

Prezident İlham Əliyevin forumda ifadə etdiyi aşağıdakı fikirlərinə bir daha diqqət edək. Ölkə rəhbəri bəyan etmişdir: “Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir”.

Ölkələrarası bağlılığın müasir qloballaşma mərhələsində çox əhəmiyyətli olduğuna kimsənin şübhəsi yoxdur. Hətta son illər qlobal bağlılıqda müxtəlif regional qrupların yeri və rolu ilə əlaqədar geosiyasi və siyasi-nəzəri konseptual araşdırmalar intensivləşmişdir. Belə hesab edirlər ki, regional bağlantılardan dayanıqlı qlobal əlaqələr şəbəkəsinə uğurlu keçid etmək olar.

Bu o deməkdir ki, regional miqyasda ölkələr arasında dayanıqlı və davamlı bağlantı sistemi qurmaq olduqca vacib məsələdir. Azərbaycan təcrübəsi məhz bu aspektdə çox qiymətli ola bilər. Çünki Azərbaycan insanlar və ölkələr miqyasında iqtisadiyyat, mədəniyyət, enerji, tədarük, loqistika, informasiya və təhlükəsizlik sferalarında müsbət nəticə verən geniş təcrübəyə malikdir. Bu təcrübə Çindən tutmuş Avropaya qədər geniş bir geosiyasi məkanda yerləşən onlarla dövlətlə qarşılıqlı əlaqələr sistemində toplanmışdır. Nümunələrə baxa bilərik.

Azərbaycan Çinin “Yeni İpək Yolu” layihəsi çərçivəsində Mərkəzi Asiya ölkələri, Türkiyə, Yaxın Şərq və Avropa dövlətlərinə qədər uzanan Orta Dəhliz layihəsi çərçivəsində dayanıqlı və faydalı əlaqələr şəbəkəsi qura bilmişdir. İndi bu layihənin Yaxın Şərqdən başlayaraq Qafqaza qədər olan hissəsində hərbi gərginlik hökm sürür. Proseslər bu istiqamətdə davam etsə, yaradılmış əlaqələr sisteminin zərər görəcəyi şübhə doğurmur.

Bu kontekstdə Azərbaycanın ölkələrarası əlaqələr şəbəkəsi yaratmaq fəlsəfəsi ilə nəqliyyat-loqistika proqramlarının işləməsi arasında yeni şərtləri nəzərə alaraq malik olduğu təcrübədən faydalanmaq zərurət kimi görünür.

### Siyasi təcrübədən sabaha baxış

Azərbaycan liderinin yuxarıda vurğuladığımız siyasi təcrübənin təməl prinsipləri yalnız mövcud geosiyasi vəziyyəti adekvat dərk etmək üçün deyil, həm də gələcəyin mümkün ssenrailərini proqnozlaşdırmaq baxımından əhəmiyyətlidir. Bu təcrübə müsbət nəticəverici və faktiki olaraq qlobal miqyasda tətbiq edilə bilən konseptual özəlliyə malik olduğundan ciddi elmi proqnozlaşdırmada əhəmiyyətli faktor kimi istifadə oluna bilər.

Geosiyasi proseslərin regional miqyasından regionlararası səviyyəyə və oradan da qlobal miqyasa qədər geniş bir geosiyasi mühitdə sülhü, barışı, əməkdaşlığı və təhlükəsizliyi davamlı təmin etmənin ümumi formulu axtarışında çox fayda verər.

Onu unutmaq olmaz ki, söhbət bütövlükdə XXI əsrdə dünyanın dayanıqlı düzəninin formalşmasından gedir. Azərbaycan təcrübəsi bu aspektdə də regional miqyasdan qlobal səviyyəyə proyeksiya oluna biləcək və konkret tətbiqi potensialı geniş olan töhfələr verə bilər!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Azərbaycan və Portuqaliya arasında ikitərəfli münasibətlər Avrasiya materikinin iki fərqli coğrafi qütbündə yerləşən dövlətlərin qarşılıqlı maraqlar, beynəlxalq hüquq prinsipləri və strateji enerji təhlükəsizliyi əsasında qurduğu dinamik tərəfdaşlıq modelini təmsil edir. Otuz ildən artıq bir dövrü əhatə edən əlaqələr yeni mərhələyə qədəm qoyur. Söhbət Portuqaliyanın ölkəmizdə səfirlik açmaq niyyətindən gedir.**

Portuqaliya müstəqilliyimizi 1992-ci il yanvarın 7-də tanıyıb. Həmin il avqustun 4-də isə diplomatik münasibətlər qurulub. 2022-ci il avqustun 4-də iki ölkənin Xarici İşlər nazirlikləri diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunmuş birgə bəyanat yayıblar. Bu sənəddə ötən üç onillik ərzində əldə edilmiş nailiyyətlər yüksək qiymətləndirilərək siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair qarşılıqlı sadiqlik ifadə olunub. Bakı və Lissabon arasında ikitərəfli münasibətlərin praktiki müstəvidə dərinləşməsi 2015-ci ildə Bakıda Portuqaliya diplomatik missiyasının fəaliyyətə başlaması ilə yeni nəfəs qazanıb.

2010-cu ilin iyulun 15-də Portuqaliyanın xarici işlər naziri Luis Amadonun rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri xüsusi çəkiyə malikdir. Səfər zamanı “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu” iki ölkə arasında sistemli dialoqun bünövrəsini təşkil edib. Münasibətlərin dinamikasında ötən ilin sentyabrında Nyu-Yorkda, BMT Baş Assambleyası çərçivəsində Prezident İlham Əliyev və Portuqaliya Prezidenti Marselo Rebelo de Souza arasında keçirilən görüş strateji əhəmiyyət kəsb edir.

# Bakı–Lissabon: Avrasiyada yeni geostrateji körpü

## *Portuqaliya Azərbaycanla əməkdaşlığa ciddi önəm verir*



Bu günlərdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Portuqaliyanın dövlət və xarici işlər naziri Paulo Rangel arasında baş tutan telefon danışığında Bakı-Lissabon əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub. Portuqaliya tərəfi Azərbaycandakı diplomatik statusun keyfiyyətcə yeni mərhələyə keçidi və ölkəmizdə rezident səfirliyin təsis olunması ilə bağlı strateji qərarını bəyan edib.

Azərbaycan və Portuqaliya arasında siyasi dialoqun formalaşmasında dövlət başçılarının ötən dövrlərdə keçirilmiş mütəmadi görüşləri və beynəlxalq sammitlər çərçivəsində aparılan müzakirələr mühüm rol oynayıb. 1994-cü il ATƏT-in Budapeşt sammiti, 1995-ci il BMT Baş Assambleyasının sessiyası və xüsusilə 1996-cı il ATƏT-in Lissabon sammiti çərçivəsində reallaşan təmaslar iki dövlət arasında siyasi etimadın fundamental əsaslarını formalaşdırıb. Lissabonda keçirilən sammit Azərbaycanın çoxvektorlu diplomatiya tarixində milli maraqların beynəlxalq müstəvidə təsbit olunması baxımından müstəsna əhəmiyyət kəsb edib. Məhz Lissabon sammitinin qəbul edilən yekun sənədi Ermənistan–Azərbaycan münaqişəsinin həlli üçün beynəlxalq hüquqi çərçivəni müəyyən etdi.

* * *

Prezident İlham Əliyevin rəhbərliyi dövründə Bakı və Lissabon arasında münasibətlər keyfiyyətcə yeni və şaxələnmiş inkişaf trayektoriyasına qədəm qoyub. Xüsusilə 2010-cu il noyabrın 19-21-də NATO-nun Lissabon sammiti çərçivəsində baş tutan yüksəksəviyyəli təmaslar ikitərəfli əməkdaşlığın gündəliyini daha da zənginləşdirib. İkitərəfli əlaqələrin institusionallaşması baxımından

İki ölkə arasında uzun illər siyasi münasibətlərin mühüm spektrini qlobal platformalarda nümayiş etdirilən qarşılıqlı həmrəylik təşkil edib. BMT, ATƏT və Avropa Şurası müstəvisində tərəflər bir-birinin suverenliyini və strateji maraqlarını ardıcıl şəkildə dəstəkləyirlər. Lissabonun Azərbaycanın 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünə verdiyi dəstək, eləcə də Bakının Portuqaliyanın COVID-19-la mübarizəyə dair beynəlxalq təşəbbüslərinə ilk reaksiya verən paytaxtlardan biri olması bu tərəfdaşlığın müsbət məcrada inkişafı üçün əlverişli mühitin olduğunu göstərir.

Regional təhlükəsizlik müstəvisində Portuqaliyanın ATƏT-dəki rolu xüsusi qeyd edilməlidir. ATƏT Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi, portuqaliyalı deputat Lüis Qrasanın fəaliyyəti regionda davamlı sülhün qurulmasına yönəlib. O, 2025-ci ilin avqustunda Ermənistan və Azərbaycan arasında Vaşinqtonda imzalanan sülh sənədini tarixi addım kimi qiymətləndirərək prosesin gələcək nəsillər üçün sabitlik vədlərini diqqətə çatdırıb.

Nəticə etibarilə Portuqaliyanın ölkəmizdə səfirlik açmaq niyyətini Azərbaycanın regionda formalaşdırdığı yeni geosiyasi reallığın Qərbi Avropanın mühüm siyasi mərkəzlərinin biri tərəfindən qəti şəkildə qəbul edilməsi kimi qələmə verə bilərik. Yeni mərhələ ölkələr arasında münasibətləri qlobal enerji təhlükəsizliyi və suverenliyə hörmət müstəvisindən çıxararaq, daha operativ, birbaşa və strateji dialoq müstəvisinə daşıyır. Beləliklə, qitənin iki fərqli qütbünü birləşdirən Bakı–Lissabon xətti gələcək onilliklərdə praqmatik tərəfdaşlığın uğurlu modellərindən biri olmağa iddialıdır.

*Tacir SADIQOV*
*XQ*

### *Ekspert rəyi*

**Samir VƏLİYEV,**
**Milli Məclisin deputatı,**
**Azərbaycan-Portuqaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri**



Hər iki dövlət BMT və ATƏT kimi mühüm beynəlxalq platformalarda sıx əməkdaşlıq edərək, bir çox məsələlərdə qarşılıqlı dəstək nümayiş etdirirlər. İkitərəfli əlaqələrin dərinləşməsində müxtəlif illərdə dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində keçirilən görüşlər, habelə parlamentlərarası səmərəli əməkdaşlıq mexanizmləri xüsusi rol oynayıb. Bu siyasi dialoq iqtisadi sahədəki tərəfdaşlıq üçün də möhkəm zəmin yaradıb.

Məlumat üçün deyim ki, bu ilin yanvar-fevral aylarında Azərbaycanın Portuqaliya ilə ticarət dövriyyəsinin ümumi həcmi 2025-ci ilin müvafiq dövrünə nisbətdə 2,3 faiz artaraq 114,1 milyon dolları üstələyib. Mövcud dinamika nəqliyyat, turizm, kənd təsərrüfatı və enerji sektorlarında hələ də böyük əməkdaşlıq potensialının olduğunu göstərir. Bu sahələr üzrə perspektivlərin dəyərləndirilməsi yaxın gələcəkdə hər iki ölkənin iqtisadi bağlarının daha da diversifikasiya olunmasına imkan verəcək. İki ölkə arasında ticari əlaqələr əsasən Azərbaycanın ixrac etdiyi enerji resursları hesabına formalaşır və son illər ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi müşahidə olunur. İqtisadi tərəfdaşlıqla yanaşı, mədəniyyət və təhsil sahəsində əlaqələr də hazırda yeni inkişaf mərhələsinə qədəm qoymaqdadır.

Azərbaycan üçün Avropa İttifaqına üzv dövlətlərlə əlaqələrin gücləndirilməsi strateji əhəmiyyət daşıyır. Bu kontekstdə, Portuqaliyanın nüfuzlu Avropa İttifaqı ölkəsi statusu onunla münasibətlərin daha ciddi və genişmiqyaslı platformada qurulmasını Azərbaycanın xarici siyasəti üçün prioritet məsələlərdən birinə çevirir.

Onu da qeyd edim ki, uzun müddət Portuqaliyanın Azərbaycanda, Azərbaycanın isə Portuqaliyada diplomatik nümayəndəliyi olmayıb. Münasibətlər əsasən qeyri-rezident səfirliklər vasitəsilə idarə edilib. Portuqaliyanın Azərbaycanda səfirlik açmaq qərarı təbii olaraq iki ölkə arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək.

# Azərbaycan TDT-də aparıcı mövqe qazanıb

*Ölkəmiz birlik dövlətlərinin iqtisadiyyatına 20 milyard sərmayə yatırıb*



**Azərbaycanın xarici siyasətində Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrlə münasibətlərin inkişaf etdirilməsi strateji prioritetlərdən biri hesab olunur. Bu yanaşma siyasi əməkdaşlıqla yanaşı, eyni zamanda çoxşaxəli inteqrasiyanı əhatə edir. Rəsmi Bakı TDT çərçivəsində ortaq maraqlara əsaslanan siyasətin formalaşdırılmasına, regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə xüsusi önəm verir.**

Siyasi sahədə üzv dövlətlərlə qarşılıqlı etimadın gücləndirilməsi, ortaq mövqelərin koordinasiyası və beynəlxalq platformalarda birgə çıxışların təşkili diqqət mərkəzindədir. İqtisadi sahədə TDT ölkələri ilə ticarət dövriyyəsinin artırılması, nəqliyyat və logistika layihələrinin inkişafı, xüsusilə Orta Dəhliz kimi strateji marşrutların gücləndirilməsi Azərbaycanın əsas hədəflərindən biridir. Enerji sahəsində əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir və bu istiqamətdə ortaq layihələrin reallaşdırılması davam edir.

Aprelin 2-də Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edib. Dövlət başçısı iqtisadi sahəyə diqqət çəkərək bildirib ki, Azərbaycanın üzv ölkələrlə ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artır: “Biz təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoymuşuq. Düzdür, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Ancaq digər üzv ölkələrlə də qarşılıqlı sərmayə qoyuluşu prosesi gedir. Bizim Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılmışdır. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir, yaxud da ki, onların icrası üçün hazırlıq işləri aparılır”.

Qeyd edək ki, ötən il Azərbaycan ilə Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında ümumi ticarət dövriyyəsində 5 faizdən artıq artım qeydə alınıb. 2025-ci ilin yekun göstəricilərinə görə, TDT məkanında qarşılıqlı ticarətin həcmi 12,9 milyard dollara yüksəlib. Türk İnvestisiya Fondunun əməli fəaliyyətə başlaması ilə üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın daha da genişlənəcəyi gözlənilir.

Mühüm məqamlardan biri də TDT-nin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi olub. Təşkilata üzv ölkələrdən Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan işğaldan azad edilmiş ərazilərin bərpasında öz dəstəklərini nümayiş etdiriblər. İşğaldan azad edilmiş ərazilərdə sosial infrastrukturun bərpası çərçivəsində qardaş türk dövlətlərinin dəstəyi ilə bir sıra mühüm təhsil və mədəniyyət obyektləri istifadəyə verilib. Belə ki, Özbəkistan tərəfindən hədiyyə edilən Mirzə Uluqbəy adına məktəb bu gün fəaliyyətini uğurla davam etdirir və regionda təhsil həyatının canlanmasına töhfə verir.

Eyni zamanda, Qazaxıstanın dəstəyi ilə inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi uşaqların istedadlarının inkişafı üçün geniş imkanlar yaradır və mədəni mühitin formalaşmasında mühüm rol oynayır. Qırğızıstan tərəfindən hədiyyə edilən Manas adına məktəb də fəaliyyət göstərərək bölgədə təhsil infrastrukturunun gücləndirilməsinə xidmət edir. Bu layihələr, əsasən, Füzuli və Ağdam rayonlarında həyata keçirilib və türk dövlətləri arasında həmrəyliyin, qarşılıqlı dəstəyin və strateji tərəfdaşlığın bariz nümunəsidir.

Belə təşəbbüslər regionun sosial-iqtisadi dirçəlişinə mühüm töhfə verməklə yanaşı, ortaq dəyərlərin möhkəmləndirilməsinə də xidmət edir. Bundan başqa, Xankəndi şəhərində Özbəkistanın dəstəyi ilə irihəcmli tikiş fabrikinin fəaliyyətə başlaması qeyri-neft sektorunun inkişafına və məşğulluğun artırılmasına xidmət edir.

Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurma prosesində iştirak edən xarici tərəfdaşlar arasında Türkiyə xüsusi çəkisi ilə seçilir və faktiki olaraq, aparıcı mövqedə qərarlaşıb. Türkiyə şirkətləri bu ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinə fəal şəkildə qoşularaq, regionun infrastrukturunun yenidən formalaşdırılmasına mühüm töhfələr verir. Xüsusilə yol-nəqliyyat infrastrukturunun qurulması istiqamətində – avtomobil yolları, körpülər, tunellər və dəmir yolu xətlərinin inşasında qardaş ölkənin şirkətləri aktiv iştirak edirlər. Bütün bu faktlar göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi kimi strateji əhəmiyyətli prosesdə Azərbaycan ən böyük dəstəyi məhz qardaş və dost ölkələrdən alır.

Qarşılıqlı münasibətlər isə yalnız bir istiqamətdə inkişaf etmir. Azərbaycan da öz növbəsində çətin anlarda tərəfdaşlarına dəstəyini nümayiş etdirir. Bunun bariz nümunəsi kimi 2023-cü ildə Türkiyədə baş verən dağıdıcı zəlzələ zamanı Azərbaycanın göstərdiyi genişmiqyaslı humanitar və maliyyə yardımını qeyd etmək olar. Azərbaycan dövlətinin maliyyə imkanları hesabına Kahramanmaraş şəhərində təxminən 100 milyon ABŞ dolları dəyərində “Azərbaycan məhəlləsi”i inşa edilib.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının görüşünün iştirakçılarını qəbul edərkən bildirib ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün üzv dövlətlər qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarının genişləndirməkdir: “Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta Dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta Dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır... Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Həm dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib. O ki qaldı, Zəngəzur dəhlizinin icrasına, orada avtomobil yolunun təqribən 90 faizi, dəmir yolunun isə təxminən 70 faizi hazırdır. Ümid edirəm ki, yaxın gələcəkdə bu layihə tam icra ediləcəkdir. Bilirik və çox şadıq ki, Türkiyədə də Qars-Naxçıvan dəmir yolunun tikintisinə start verilmişdir”. Dövlət başçısı onu da əlavə edib ki, bu layihələrin uzlaşdırılması, koordinasiya şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaqdır.

Yeri gəlmişkən, Zəngəzur dəhlizi Orta Dəhlizin bir qolu kimi fəaliyyət göstərəcək. Azərbaycanın inşa etdiyi dəmir yolu infrastrukturu birinci mərhələdə 15 milyon ton yükün daşınmasına hesablanıb. Gələcəkdə bu həcmin artacağı gözlənilir. Proqnozlardan aydın olur ki, bu dəhliz həm TDT, həm də materik üçün starteji əhəmiyyət kəsb edəcək.

Qeyd olunmalıdır ki, Orta Dəhliz Çindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya qədər uzanan strateji nəqliyyat marşrutudur. Təxminən 7 min kilometr uzunluğa malik bu xətt Çin–Avropa istiqamətində yük daşımalarının müddətini ənənəvi 35–45 gündən 15–20 günə endirməyə imkan verir ki, bu da qlobal ticarət baxımından ciddi üstünlük yaradır.

Son illərdə dəhliz üzrə yük axını nəzərəçarpacaq dərəcədə artıb. 2025-ci ildə daşınmaların həcmi 4,7 milyon tona çatıb və 2027-ci ilədək bu göstəricinin 10 milyon tona yüksələcəyi proqnozlaşdırılır. Azərbaycan bu dəhlizdə əsas tranzit mərkəzlərindən biri kimi çıxış edir və nəqliyyat infrastrukturu əhəmiyyətli şəkildə modernləşdirilib.

Bundan əlavə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının hazırkı illik ötürmə qabiliyyəti 15 milyon ton və 100 min TEU təşkil edir, perspektivdə isə bu rəqəmin 25 milyon tona çatdırılması nəzərdə tutulur.

*Musa BAĞIRLI*
*XQ*

### *Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Türk Dövlətləri Təşkilatının bütövlükdə regionda, eləcə də qlobal iqtisadiyyatda payının artdığı aydın şəkildə müşahidə olunur. Nəzərə alsaq ki, hazırda təşkilata üzv ölkələrin nominal ümumi daxili məhsulu 2,1 trilyon ABŞ dollarını ötür, alıcılıq qabiliyyəti pariteti üzrə isə bu göstərici 6 trilyon dollara yaxınlaşır, bu dinamika Türk dünyasının iqtisadi potensialının nə qədər geniş olduğunu göstərir.

Bu baxımdan Türk dünyası həm coğrafi mövqeyinə, həm resurs imkanlarına, həm də siyasi çəkisinə görə qlobal miqyasda seçilən platformalardan biri kimi çıxış edir. Bu struktur daxilində Azərbaycanın rolu xüsusi diqqət çəkir. Ölkəmiz Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqların əsas memarlarından biri kimi çıxış edir və bu təşkilatın ümumi gücünü artıran mühüm faktor kimi qiymətləndirilir.

Faktiki olaraq, Cənubi Qafqazda yeni düzənin formalaşması Azərbaycanın siyasi iradəsi və strateji mövqeyi ilə birbaşa bağlıdır. Bu isə Türk Dövlətləri Təşkilatının inkişafına əlavə təkan verir. Çünki Azərbaycan coğrafi baxımdan Türkiyə ilə Mərkəzi Asiya ölkələri arasında əsas körpü rolunu oynayır, eyni zamanda Mərkəzi Asiya ilə Avropa arasında strateji bağlantı nöqtəsi kimi çıxış edir.

Bu kontekstdə Azərbaycanın həm siyasi, həm də iqtisadi baxımdan təşkilat daxilində təsir imkanlarının genişləndiyi aydın görünür. Ölkəmiz yalnız tranzit və geosiyasi mövqeyi ilə deyil, həm də investisiya təşəbbüsləri ilə seçilir. Doğrudur, ümumi sərmayə qoyuluşlarında əsas pay daha çox Türkiyəyə məxsusdur. Bununla belə, son illərdə xüsusilə Mərkəzi Asiya dövlətləri ilə birgə investisiya fondlarının yaradılması və müxtəlif layihələrin həyata keçirilməsi Azərbaycanın bu sahədə rolunun getdikcə artdığını göstərir. Bu proseslər ölkəmizin Türk dünyasında iqtisadi inteqrasiyaya verdiyi töhfənin genişləndiyini nümayiş etdirir. Azərbaycanın regional iqtisadi inkişafda oynadığı rol, xüsusilə investisiya axınları vasitəsilə daha da güclənir.

**Xəzərin Azərbaycan sektorunda yerləşən “Abşeron” yatağının tammiqyaslı işlənməsi layihəsi üzrə əraf mühitə və sosial sahəyə təsirlərin qiymətləndirilməsinə dair hesabatın bu ayın ortalarında təqdim olunması nəzərdə tutulur. Bu barədə sözügedən layihə üzrə ətraf mühitə və sosial sahəyə təsirlərin qiymətləndirilməsinə dair hesabatın ictimai müzakirələri zamanı məlumat verilib.**

# “Abşeron” yatağının tammiqyaslı işlənməsinə hazırlıq



“Greenwich Consulting” şirkətinin layihə üzrə rəhbəri Tahir Cəfərov bildirib ki, sənəd ictimai müzakirə prosesi bitəndən sonra Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunacaq. Layihəyə üç (üstəgəl bir gələcək) sualtı quyunun qazılması, sualtı infrastrukturun quraşdırılması, dənizdə və quruda boru kəmərlərinin çəkilməsi və Səngəçal terminalından, təxminən, 4 kilometr cənub-qərbdə, quruda mərkəzi emal obyektinin tikintisi daxildir. Adıçəkilən obyekt Cənubi Qafqaz boru kəmərinə və Azərbaycanın daxili qaz şəbəkəsinə ixrac etmək üçün xam qaz mayelərini, qazı emal edəcək və sabitləşdirilməmiş kondensatı Səngəçal terminalına ixrac edəcək.

Şirkət rəsmisi onu da qeyd edib ki, layihənin dəniz hissəsi üzrə satınalma, mühəndislik, tikinti və istifadəyə vermək işlərinə cari ilin üçüncü rübündə başlanılması və 2029-cu ilin eyni rübündə bitirilməsi nəzərdə tutulur. Onun sözlərinə görə, layihə üzrə quruda satınalma, mühəndislik, tikinti və istismar işləri də həmin vaxtadək davam edəcək.

“Abşeron” qaz-kondensat yatağının tammiqyaslı işlənməsi layihəsi çərçivəsində qazma işlərinə gələn ilin birinci rübündə başlanılacaq və 2029-cu ilin ortalarınadək davam edəcək. Layihə çərçivəsində ilk qazın hasilatına isə 2029-cu il sentyabrın 1-də başlanılması nəzərdə tutulur.

Xəzər dənizi şelfində, Bakıdan 100 kilometr cənub-şərqdə – “Şahdəniz” yatağından şimal-şərqdə, “Azəri–Çıraq–Günəşli” yataqlar blokundan isə cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən bu yatağın ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir.

Xatırladaq ki, “Abşeron” qaz-kondensat yatağı ötən əsrin 60-cı illərində Azərbaycan geoloqları tərəfindən kəşf edilib. Həmin dövrdə mövcud texnika və texnologiyalar Xəzər dənizinin dərinliklərində qazma işlərinə imkan vermədiyindən yatağın istismarı mümkün olmayıb. Nəhayət, 1997-ci ildə “Abşeron” yatağı üzrə hasilatın pay bölgüsünə dair birinci beynəlxalq saziş imzalanıb. Layihə çərçivəsində görülən işlər uğursuz nəticələndiyindən 2005-ci ildə müqaviləyə xitam verilib. Bununla belə, Azərbaycan geoloqları, Dövlət Neft Şirkətinin mütəxəssisləri “Abşeron” yatağında məhsuldar layların olması ilə bağlı əvvəlki fikirlərində israrlı idilər. Eyni zamanda, xarici tərəfdaşlar da burada kifayət qədər karbohidrogen ehtiyatlarının olmasını ehtimal edirdilər.

Məhz bunun nəticəsi olaraq 2009-cu il fevralın 27-də SOCAR ilə “Total” şirkəti arasında “Abşeron” yatağının işlənilməsi ilə bağlı yeni müqavilə imzalanıb. Sazişin 30 il müddətinə həyata keçirilməsi nəzərdə tutulur. 2015-ci ildə isə “SOCAR” və “Total” birgə “JOCAP” (Joined Operating Company Absheron Petroleum) əməliyyat şirkətini yaradıblar. Beləliklə, “SOCAR Absheron” və “Total E&P Absheron” törəmə şirkətlərinin bərabər paylarla iştirak etdiyi JOCAP (Joined Operating Company Absheron Petroleum) birgə müəssisəsi “Abşeron” yatağının operatoru seçilib.

750 kvadratkilometrə yaxın ərazini əhatə edən müqavilə sahəsində aparılan ilkin kəşfiyyat işlərinin nəticəsi olaraq 2011-ci ilin sentyabr ayında “Abşeron”da çox böyük qaz ehtiyatlarının aşkara çıxarılması rəsmən elan edilib. 2020-ci il sentyabrın 19-da isə Prezident İlham Əliyevin iştirakı ilə Bakı Dərin Özüllər Zavodunda “Abşeron” yatağının ilkin işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə başlanılıb. SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən “Abşeron”da hasilata başlamaq üçün 4 əsas dayaq bloku və digər sualtı qurğular tikilib. Tikinti layihəsi çərçivəsində ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq blokları, körpülər, estakadalar, məşəl sistemi, sualtı qurğular, boru xətti və modullar inşa edilərək müqavilə sahəsində quraşdırılıb.

Qaz və kondensat ehtiyatlarının zənginliyi ilə seçilən “Abşeron” yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasilata 2023-cü il iyulun 10-da başlanıb. Həmin ilin sonunadək JOCAP (Joint Operating Company of Absheron Petroleum B. V.) əməliyyat şirkəti tərəfindən “Abşeron” yatağından 0,3 milyon ton kondensat və 0,8 milyard kubmetr qaz çıxarılıb. 2024-cü ildə buradan 0,6 milyon ton kondensat və 1,5 milyard kubmetr qaz çıxarılıb. Ötən il isə yataqda qaz və kondensat hasilatı müvafiq olaraq 1,6 milyard kubmetr qaz və 0,6 milyon ton təşkil edib. Göründüyü kimi, əvvəlki illə müqayisədə yataqda qaz hasilatı artsa da (1,5 milyard kubmetr), kondensat hasilatı dəyişməyib. Ümumilikdə isə, 2025-ci ilin sonunadək “Abşeron” yatağından 3,5 milyard kubmetrdən çox qaz və 1,5 milyon ton kondensat çıxarılıb.

Yeri gəlmişkən, 2023-cü ilin yayında ilkin hasilata başlanıldığından bir qədər sonra “Abşeron” layihəsi ilə bağlı daha bir əlamətdar hadisə baş verib. Belə ki, avqust ayının 4-də SOCAR, “TotalEnergies” və ADNOC (Birləşmiş Ərəb Əmirlikləri) şirkətləri arasında “Abşeron” qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışına dair saziş imzalanıb. Satınalma tamamlandıqdan sonra ADNOC şirkəti “Abşeron” qaz-kondensat yatağında həmin paya sahib olub. Yerdə qalan iştirak payları isə hər biri 35 faiz olmaqla SOCAR və “TotalEnergies” şirkətləri arasında bölünüb.

Tərəfdaşlarla olan razılaşma əsasında SOCAR yataqdan hasil olan qazı alır, kondensat isə Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə nəql olunur. Qeyd edək ki, “Abşeron” yatağının birinci işlənmə çərçivəsində hasil edilən qaz Azərbaycanın daxili bazarı üçün nəzərdə tutulub. İlkin mərhələdə buradan ildə, təxminən, 1,5 milyard kubmetr qaz hasil edilməlidir. Bu da Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək. Gələcəkdə isə yataqdan hasilatın dörd dəfəyədək artırılması planlaşdırılır. Bu isə “Abşeron” yatağının növbəti işlənmə mərhələsi çərçivəsində mümkün olacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Türk Dövlətləri Təşkilatı (TDT) ölkələri "yaşıl enerji" layihələrinin inkişafında əldə edilmiş irəliləyişi alqışlayıblar. Bu barədə TDT-yə üzv dövlətlərin hökumət başçılarının dünən Bakıda keçirilən ikinci iclasının yekunlarına dair birgə bəyanatda bildirilib.**

# Bakı görüşündə Yaşıl Enerji Dəhlizinin inkişafı dəstəkləndi

Sənəddə regional enerji təhlükəsizliyinin gücləndirilməsi, enerji mənbələrinin şaxələndirilməsi və enerji marşrutlarının təhlükəsizliyinin təmin edilməsinin vacibliyi qeyd olunub.

Bəyanatda qeyd olunub: “Görüş iştirakçıları neft, qaz və digər karbohidrogenlərin nəqli üzrə mövcud infrastrukturun səmərəli istifadəsini və genişləndirilməsini dəstəkləyiblər. Bununla yanaşı, hökumət başçıları “yaşıl enerji” layihələrinin inkişafı və ötürülməsi sahəsində əldə edilmiş irəliləyişi alqışlayıb və Yaşıl Enerji Dəhlizinin inkişafına qətiyyətli dəstəklərini ifadə edirlər”.

Bəyanatda həmçinin kritik vacib faydalı qazıntıların iştirakçı ölkələrin enerji təhlükəsizliyi üçün əhəmiyyəti və bu sahədə əməkdaşlığın vacibliyi vurğulanıb: “Ölkələr enerji səmərəliliyinin artırılması və qabaqcıl təcrübə mübadiləsi üzrə tədbirlərin təşviqini, nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq imkanlarının öyrənilməsini dəstəkləyirlər”.



*XQ*

# Görünməyən dalğalarda “kiber epidemiya”

## *Tələdə “duza gedənlər” dələduzların ovuna çevrilirlər*

**Son günlər ölkə mediasında kiberdələduzluq hallarının geniş vüsət alması ilə bağlı yayılan məlumatlar cəmiyyətin diqqətini yenidən bu təhlükəli problemə yönəldib. Artıq kiberdələduzluq texnoloji sahənin və ya bank sektorunun problemi olmaqla bərabər, birbaşa vətəndaşların gündəlik həyatına da təsir göstərən sosial təhlükə səviyyəsinə yüksəlib. Ən narahatedici məqam isə odur ki, bu tip fırıldaq üsulları getdikcə daha “inandırıcı”, daha “sadə” və daha sürətli mexanizmlərlə tətbiq edilir. Nəticədə, minlərlə insan bir neçə saniyə içində şəxsi məlumatlarını, bank hesablarına çıxışı və hətta maddi vəsaitini itirmək təhlükəsi ilə üz-üzə qalır.**



Paytaxt sakinlərindən birinin açıqladığı hadisə isə son dövrlər geniş yayılmış klassik kiberdələduzluq sxeminin bariz nümunəsidir. Belə ki, vətəndaş telefonuna bir neçə dəqiqə ərzində müxtəlif tanış kontaktlardan mesajlar daxil olduğunu bildirib. Mesajlarda guya “Araz” supermarketlər şəbəkəsi adından kampaniya keçirildiyi, istifadəçilərə “iPhone 17 qazanmaq imkanı” təqdim edildiyi vurğulanıb. Məlumatın ən vacib şərti isə linkə daxil olmaq və onu ən azı 15 nəfərə göndərmək olub.

Bu hadisə təkcə bir vətəndaşın üzləşdiyi təsadüfi olay deyil. Əksinə, bu tip mesajlar son aylarda Azərbaycan internet məkanında kütləvi şəkildə yayılmağa başlayıb. Mütəxəssislərin də qeyd etdiyi kimi, “kampaniya”, “hədiyyə”, “endirim”, “bonus” adı altında göndərilən saxta linklər vasitəsilə dələduz şəbəkə insanların telefonlarına zərərli proqramlar yükləyir və daha sonra onların sosial şəbəkə profillərinə, messencer hesablarına, hətta mobil bankçılıq tətbiqlərinə giriş əldə edir.

### Şirin vədlər, aldadıcı kələklər

**İKT eksperti Eldar Qasımovun** sözlərinə görə, kiberdələduzluq təkcə texniki bilik üzərində qurulmur. Burada əsas amil insan psixologiyasının manipulyasiyasıdır, başqa sözlə, insan düşüncəsinə gizli və ya açıq şəkildə təsir göstərərək onu müəyyən bir istiqamətə yönəltməkdir. Saxta kampaniya mesajları şəxsin diqqətini ilk saniyələrdən özünə çəkmək üçün bir neçə əsas elementdən, məsələn “qazanc”, “pulsuz hədiyyə”, “məhdud vaxt”, “təhlükəsiz link”, “rəsmi kampaniya” və s. istifadə edir. Belə təkliflər ilk anda adi vətəndaş üçün maraqlı görünür və müəyyən şirnikləndirici təsir bağışlayır.

Dələduzların daha təhlükəli üsulu isə “tanışdan gələn mesaj” mexanizmidir. İnsan tanıdığı şəxsin adını görəndə mesajı avtomatik olaraq etibarlı hesab edir. Bu isə diqqət səviyyəsini aşağı salır. Beləliklə, vətəndaş mesajın məzmununu araşdırmadan linkə daxil olur və nəticədə, necə deyərlər, tələyə düşür. Bu vəziyyət bir daha sübut edir ki, kibertəhlükəsizlik sahəsində ən zəif həlqə texnologiya yox, insan amilidir. Telefonun ən müasir modeli, ən güclü antivirus proqramı belə vətəndaşın ehtiyatsız davranışını tam sığortalaya bilmir.

E.Qasımov qeyd edir ki, kiberdələduzların məqsədi təkcə insanların telefonuna “virus” yerləşdirmək deyil. Onların əsas hədəfi şəxsi məlumatların oğurlanması və maliyyə resurslarına çıxış əldə etməsidir. Bu cür linklərə daxil olduqda istifadəçinin qarşısına çox vaxt “anket”, “qeydiyyat forması”, “kampaniya üçün təsdiq səhifəsi” çıxır. Vətəndaş isə adını, soyadını, telefon nömrəsini, bank kartı məlumatlarını və digər şəxsi informasiyanı yazaraq “hədiyyə qazanacağını” düşünür.

Əslində isə həmin məlumatlar dələduzların bazasına ötürülür və daha sonra bu informasiyalar vasitəsilə bank hesablarına giriş cəhdləri edilir. Bəzi hallarda isə istifadəçinin telefonuna arxa planda zərərli tətbiqlər yüklənilir. Bu proqramlar mesajları oxuya, OTP kodlarını ələ keçirə, bank tətbiqlərinin giriş məlumatlarını oğurlaya bilir.

### Kiberdələduzluğun qaynaqları

**Kibertəhlükəsizlik üzrə mütəxəssis Məmməd Məmmədov** bildirir ki, bu problemin genişlənməsinin bir neçə əsas səbəbi var. İlk növbədə, ölkədə rəqəmsal xidmətlərdən istifadə sürətlə artır. İnsanlar bank əməliyyatlarını, kommunal ödənişləri, alış-verişi və hətta rəsmi dövlət xidmətlərini belə mobil telefon vasitəsilə həyata keçirirlər. Bu, ümumilikdə, müsbət tendensiyadır, eyni zamanda, riskləri də artırır. İkinci səbəb, əhali arasında rəqəmsal savadlılığın hələ də istənilən səviyyədə olmamasıdır. Belə ki, çox sayda insan linkin saxta olub-olmadığını yoxlamaq, domen ünvanını təhlil etmək, rəsmi platforma ilə saxta səhifəni ayırd etmək bacarığına malik deyil. Xüsusilə yaşlı nəsil və texnologiyaya daha az bələd olan vətəndaşlar bu cür fırıldaqlara daha tez aldanırlar. Nəhayət, digər bir səbəb kiberdələduzların getdikcə daha peşəkar və sistemli fəaliyyət göstərmələridir. Başqa sözlə, artıq bu iş “tək-tük fırıldaqçıların oyunu” olmaqdan çıxaraq, müəyyən qrupların, şəbəkələrin və hətta beynəlxalq səviyyədə işləyən cinayətkar strukturların gəlir mənbəyinə çevrilməsidir.

Saxta kampaniya mesajlarında ən təhlükəli məqam informasiyanın başqalarına göndərilməsi şərtidir. Bu, zəncirvari yayılma mexanizmi yaradır. Belə ki, istifadəçi linki 15 nəfərə göndərdikdə artıq dələduzlar bir nəfər üzərindən daha 15 potensial qurban əldə etmiş olurlar. Beləliklə, cəmi bir neçə saat ərzində yüzlərlə insan eyni tələyə cəlb edilir. Bu üsul həm də psixoloji təzyiq yaradır. Yəni insan “şərti yerinə yetirməsə, hədiyyəni itirəcəyini” düşünür və daha tələsik qərar verir. Halbuki rəsmi kampaniyalar, adətən, belə məcburiyyətlər qoymur və şəxsi məlumatların paylaşılmasını tələb etmir.

Məsələ ilə bağlı rəsmi qurumlar və şirkətlər dəfələrlə vətəndaşlara müraciət edərək bildiriblər ki, kampaniyalar yalnız rəsmi saytlar və təsdiqlənmiş platformalar üzərindən elan edilir. Lakin bu çağırışlara baxmayaraq, dələduzların fəaliyyəti azalmır. Burada əsas məsələ informasiya təhlükəsizliyi ilə bağlı maarifləndirmənin daha geniş miqyas almasıdır. Vətəndaşların xəbərdarlıq mesajları ilə yanaşı, həm də müvafiq biliklərlə təmin olunması vacibdir. Məsələn, insanlar bilməlidir ki, şübhəli linklərə daxil olmaq kiberdələduzlara əlverişli şərait yaradır, eyni zamanda, mesaj tanışdan gəlsə belə, mənbənin təsdiqlənməsi, kampaniya barədə rəsmi sayt və sosial şəbəkə hesablarının yoxlanılması, eləcə də kart məlumatlarının heç bir “kampaniya səhifəsində” yazılmaması kimi məsələlərin diqqət mərkəzində saxlanılması zəruridir.

Kiberdələduzluğun təhlükəsi təkcə vətəndaşların pul itirməsi ilə bitmir. Bu cür hallar cəmiyyətdə ümumi rəqəmsal inamsızlıq yaradır. İnsanlar onlayn ödənişdən, mobil bankçılıqdan, rəqəmsal xidmətlərdən çəkinməyə başlayırlar. Bu isə ölkənin rəqəmsal iqtisadiyyatının inkişafına mənfi təsir göstərir. Digər tərəfdən, şəxsi məlumatların oğurlanması və onların qanunsuz istifadəsi vətəndaşın gələcək həyatında ciddi problemlər yaradır. Məsələn, oğurlanmış məlumatlarla kredit götürülməsi, saxta əməliyyatlar aparılması və ya sosial şəbəkə hesablarından təhqiredici və ya cinayət xarakterli məlumatların yayılması halları mümkündür.

### Ödəniş kartı fırıldaqçılığına son?

Mütəxəssislər qeyd edirlər ki, Azərbaycanda maliyyə sektorunun rəqəmsallaşması və nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində son illər mühüm addımlar atılıb. Bu prosesdə əsas rol oynayan qurumlardan biri olan Mərkəzi Bankın həyata keçirdiyi layihələr nəticəsində ölkədə elektron ödəniş infrastrukturu əhəmiyyətli dərəcədə güclənib, bank xidmətlərinə çıxış genişlənib və nağdsız hesablaşmaların həcmi davamlı şəkildə yüksəlib.

Rəqəmsal ödənişlərin geniş yayılması ilə yanaşı, kiberdələduzluğun bir növü kimi, ödəniş kartları vasitəsilə törədilən maliyyə fırıldaqçılığı da yeni çağırışlar yaradıb. Buna görə də son illər respublikada ödəniş texnologiyalarının inkişafı ilə bərabər, həm də onların təhlükəsizliyinin təmin edilməsi, rəqəmsal ödəniş infrastrukturunun genişlənməsi prioritet istiqamətlərdən biri kimi diqqət çəkib.

Xatırladaq ki, ölkədə nağdsız ödəniş ekosisteminin formalaşmasında bir neçə mühüm platforma xüsusi rol oynayır. Bunlardan biri milli ödəniş sistemi olan Azərbaycan Banklararası Kart Mərkəzi tərəfindən idarə olunan Azərikard platformasıdır. Bu sistem respublikada bank kartlarının emalı və elektron ödəniş əməliyyatlarının təhlükəsiz həyata keçirilməsi üçün texnoloji baza yaradır. Eyni zamanda, son illər istifadəyə verilən Ani Ödəniş Sistemi və Rəqəmsal Ödəniş Platforması kimi layihələr də banklararası əməliyyatların sürətini artıraraq maliyyə xidmətlərinin daha əlçatan olmasında mühüm rol oynayır. Rəqəmsal bankçılıq xidmətlərinin inkişafı nəticəsində mobil bank tətbiqləri, elektron ticarət və POS terminallar vasitəsilə ödənişlər də sürətlə artır. Bu isə ölkədə nağdsız iqtisadiyyatın payının yüksəlməsinə ciddi töhfə verir.

Elektron ödəniş sistemlərinin inkişafı ilə paralel olaraq bu gün maliyyə kibercinayətkarlığı ilə də müxtəlif formalarda üzləşilir. Ekspertlər tərəfindən ödəniş kartları üzrə fırıldaqçılıq hallarının daha çox fişinq hücumları ilə həyata keçirildiyi bildirilir. Belə ki, bu üsulla istifadəçilərə saxta mesaj və ya e-poçt göndərilərək bank məlumatlarının əldə edilməsinə cəhd göstərilir və bir sıra hallarda buna nail olunur. Bundan başqa, saxta internet mağazalarının yaradılması ilə ödəniş kartlarından müəyyən məlumatlar ələ keçirilir. Başqa sözlə, elektron ticarət platformalarının imitasiyası, eləcə də kart məlumatlarının kopyalanması (skimming) ilə kart məlumatlarındakı müvafiq göstəricilər oğurlanır.

Kart məlumatlarının gizli şəkildə əldə edilməsində sosial mühəndislik üsullarından da geniş istifadə olunur. Belə ki, fırıldaqçılar tərəfindən özlərini bank əməkdaşı kimi təqdim edərək vətəndaşlardan kart məlumatları və ya təsdiq kodları tələb edilir. Bu kimi halların artması fərdi maliyyə itkiləri ilə yanaşı, həm də ümumi maliyyə sisteminə inamın azalmasına səbəb ola bilər.

#### *Ekspert rəyi*



**Elvin ABBASOV,**
**İKT üzrə ekspert**

Təəssüflər olsun ki, ölkədə kibercinayət halları ildən-ilə geniş miqyas alır. Belə məqamlar az sayda olanda bunun məsuliyyətini vətəndaşın üzərinə qoymaq olar ki, maariflənsin və özünü kiberdələduzlardan qorusun. Məsələ burasındadır ki, kibercinayətkarlıq ölkəmizdə kütləvi hal alıb. Xüsusilə bankların, bank və ödəmə sistemlərində olan boşluqların yaratdığı problemlər ondan ibarətdir ki, fərdi identifikasiya nömrəmizi yazanda müəyyən cərimələrimiz çıxır. Dələduzluq saytları isə elan edirlər ki, 10-20 faiz “cashback” qaytaracağıq. Vətəndaşlar da bundan yararlanmağa çalışırlar. Bunun kimi onlarla fərqli ssenari var ki, vətəndaşlar aldanır və onlardan pul çıxılır.

Azərbaycanda ödəniş kartlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra texnoloji mexanizmlər tətbiq olunur. Birinci mühüm addım çip texnologiyalı kartların tətbiqidir. EMV standartına uyğun kartlar məlumatların kopyalanması riskini əhəmiyyətli dərəcədə azaldır. İkinci istiqamət çoxmərhələli autentifikasiya sistemləridir. Onlayn ödənişlər zamanı istifadəçilər əməliyyatı SMS kodu və ya mobil tətbiq vasitəsilə təsdiqləyirlər. Üçüncü istiqamət isə real vaxt rejimində əməliyyat monitorinqidir. Banklar xüsusi proqram təminatı vasitəsilə şübhəli əməliyyatları avtomatik şəkildə aşkar edir.

Bütün bunlarla bərabər, qanunvericilik istiqamətində bir sıra vacib addımların atılması zəruridir. Fikrimcə, kart fırıldaqçılığı ilə mübarizə yalnız texnoloji tədbirlərlə məhdudlaşmamalı, bu sahədə hüquqi mexanizmlərin də təkmilləşdirilməsi vacibdir. Eyni zamanda, kibermaliyyə cinayətləri üzrə məsuliyyət daha da sərtləşdirilməlidir. Ödəniş kartları ilə bağlı fırıldaqçılıq hallarına qarşı ciddi hüquqi sanksiyalar tətbiq olunmalıdır. Banklararası məlumat mübadiləsi də gücləndirilməlidir.

Kart təhlükəsizliyinə gəldikdə isə, qeyd edim ki, kartın PIN kodu heç kimlə paylaşılmamalı, bankdan gəldiyi iddia edilən şübhəli mesajlara etibar edilməməli, kart məlumatları sosial şəbəkələrlə və ya mesaj vasitəsilə göndərilməməlidir. Yalnız etibarlı internet saytlarında ödəniş aparılmalıdır. Kart əməliyyatları barədə SMS bildiriş xidmətindən yararlanılmalıdır.

Azərbaycanda elektron ödəniş sistemlərinin inkişafı və nağdsız hesablaşmaların genişlənməsi ölkənin maliyyə sektorunda mühüm struktur dəyişikliklərinin baş verdiyini göstərir. Bu proses maliyyə xidmətlərinin əlçatanlığını artırmaqla yanaşı, iqtisadiyyatın şəffaflığını da gücləndirir. Lakin rəqəmsal maliyyə xidmətlərinin sürətlə yayılması yeni təhlükəsizlik çağırışlarını da gündəmə gətirir. Bu baxımdan, ödəniş kartları üzrə fırıldaqçılıq hallarına qarşı mübarizənin gücləndirilməsi, texnoloji və hüquqi mexanizmlərin təkmilləşdirilməsi və vətəndaşların maliyyə savadlılığının artırılması böyük əhəmiyyət daşıyır.

**İKT eksperti Əli Abbasovun** sözlərinə görə, mövcud vəziyyət göstərir ki, kiberdələduzluqla mübarizə təkcə hüquq-mühafizə orqanlarının və bankların işi deyil. Bu, hər bir vətəndaşın gündəlik diqqət tələb edən şəxsi təhlükəsizlik məsələsidir. İnsanlar bilməlidir ki, “pulsuz hədiyyə” və “asan qazanc” vədi ilə gələn mesajların böyük hissəsi tələdir. Bu gün Azərbaycanda kiberdələduzluğun qarşısını almaq üçün əsas istiqamət rəqəmsal savadlılığın artırılması, ictimai maarifləndirmənin gücləndirilməsi və vətəndaşların şübhəli mesajlara qarşı daha diqqətli olmasıdır. Çünki müasir dövrdə kibertəhlükəsizlik texniki məsələ olmaqla bərabər, həm də sosial və psixoloji müdafiə mexanizmi tələb edir.

Əgər cəmiyyət bu təhlükəni ciddi qəbul etməzsə, saxta kampaniya adı altında yayılan linklər gələcəkdə daha böyük miqyasda maliyyə fəlakətlərinə, şəxsi məlumatların sistemli oğurlanmasına və rəqəmsal təhlükəsizlik böhranına səbəb ola bilər. Ona görə də hər bir vətəndaş bilməlidir ki, tanışdan gələn mesaj belə olsa, şübhəli linkə daxil olmaq birbaşa təhlükəlidir.

Bəs belə halların qarşısının alınması, başqa sözlə, təhlükəsizlik mexanizmlərinin gücləndirilməsi istiqamətində hansı layihələrə üstünlük verilir? Bununla bağlı ölkədə ödəniş kartlarının təhlükəsizliyinin artırılması məqsədilə bank kartlarında beynəlxalq təhlükəsizlik standartlarının tətbiqi getdikcə genişləndirilir. Bu çərçivədə “EMV” çip texnologiyası və çoxmərhələli autentifikasiya sistemləri tətbiq olunur. Bununla da kart məlumatlarının kopyalanması riski əhəmiyyətli dərəcədə azalır.

Ödəniş kartları üzrə fırıldaqçılığın qarşısının alınması məqsədilə onlayn ödənişlərdə əlavə təhlükəsizlik qatları da yaradılıb. Banklar tərəfindən birdəfəlik təsdiq kodları və mobil tətbiqlər vasitəsilə autentifikasiya mexanizmləri işə salınmaqla əməliyyatların təhlükəsizliyinə müəyyən dərəcədə nail olunub. Eyni zamanda, bank sektorunda real vaxt rejimində monitorinq sistemlərinin tətbiqi ilə şübhəli əməliyyatlar avtomatik müəyyənləşdirilərək riskli əməliyyatların sayı azaldılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

**Qlobal iqtisadi sistemdə enerji resurslarının istehsalı, nəqli və istehlakı yalnız iqtisadi səmərəlilik kateqoriyası kimi deyil, eyni zamanda, geosiyasi, institusional və təhlükəsizlik amilləri kontekstində qiymətləndirilir. Xüsusilə enerji ehtiyatları olan ölkələrlə tranzit mövqedə yerləşən dövlətlər arasında formalaşan əməkdaşlıq regional iqtisadi inteqrasiyanın əsas dayaqlarından biri hesab olunur.**

# Azərbaycan – Gürcüstan: dəyişməyən ortaq maraqlar

Bu baxımdan Azərbaycan və Gürcüstan arasında enerji əsaslı iqtisadi əməkdaşlıq modeli Cənubi Qafqaz regionunda strateji əhəmiyyət kəsb edir. Azərbaycanın zəngin karbohidrogen ehtiyatları ilə Gürcüstanın əlverişli geostrateji mövqeyinin uzlaşması enerji sahəsində uzunmüddətli və institusional cəhətdən möhkəm tərəfdaşlığın formalaşmasına şərait yaradıb. Bu əməkdaşlıq yalnız enerji daşıyıcılarının tranziti ilə məhdudlaşmır, eyni zamanda, investisiya axını, normativ-hüquqi mexanizmlər və iqtisadi inteqrasiya prosesləri ilə müşayiət olunur.

### Əməkdaşlığın enerji amili

Azərbaycan və Gürcüstan arasında transmilli enerji infrastrukturu vasitəsilə həyata keçirilən əməkdaşlıq iki ölkənin iqtisadi əlaqələrinin dinamik inkişafını təmin edən əsas amillərdən biridir. Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kimi iri transmilli enerji layihələri Gürcüstan ərazisini regional enerji tranzitinin əsas həlqələrindən birinə çevirib. Statistikaya görə, Gürcüstandan keçən enerji kəmərləri vasitəsilə illik 10 milyonlarla ton xam neft və milyardlarla kubmetr təbii qaz beynəlxalq bazarlara çıxarılır ki, bu da ölkənin tranzit gəlirlərinin əhəmiyyətli hissəsini formalaşdırır.



Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəməri vasitəsilə neftin daşınması illər ərzində xarici bazarlara çıxışın mühüm hissəsini təşkil edib: 2024-cü ilin ilk 9 ayında bu kəmərlə təxminən 21,68 milyon ton neft nəql olunub ki, bu da regional tranzit gəlirlərinə əhəmiyyətli töhfə verir. Transmissiyanın həcmi gündəlik 1,2 milyon barrel səviyyəsinə qədər çatma qabiliyyəti ilə BTC Azərbaycan neftinin Avropaya çıxışında strateji əhəmiyyət daşıyır.

Enerji təhlükəsizliyi kontekstində qaz ixracı sahəsində də Bakı–Tbilisi–Ərzurum kəməri mühüm rol oynayır. 2025-ci ildə bu kəmər vasitəsilə təxminən 22,93 milyard kubmetr təbii qaz nəql edilib ki, bu da 2024-cü illə müqayisədə artım deməkdir. Bu göstəricilər Azərbaycan qazının regional və beynəlxalq bazarlara çıxmasında Gürcüstanın tranzit ölkə kimi önəmini vurğulayır.

Bundan əlavə, Bakı–Supsa neft kəməri vasitəsilə milyonlarla ton neft Gürcüstan ərazisindən keçərək Avropa bazarına çatdırılıb. Bu kəmər 833 kilometr uzunluğunda olub, ildə təxminən 7,2 milyon ton ixrac imkanına malikdir. Statistika göstərir ki, enerji layihələri nəticəsində Gürcüstan özünü regionun strateji tranzit mərkəzi kimi möhkəmləndirmiş, Azərbaycan isə ixrac marşrutlarını diversifikasiya etməklə geosiyasi və iqtisadi səviyyədə üstün mövqe əldə etmişdir. Nəticə etibarilə, enerji sektorunun bu inteqrasiyası iki ölkə arasında iqtisadi münasibətlərin əsas hərəkətverici qüvvəsinə çevrilmişdir və hər iki tərəf üçün qarşılıqlı faydalı bazar və coğrafi diversifikasiya təmin edir.

### İnvestisiya axınlarının mahiyyəti və yönləri

Azərbaycanın Gürcüstana yönəltdiyi birbaşa xarici investisiyaların əsas hissəsi enerji sektorunda cəmlənmişdir. Gürcüstanın Milli Statistika Xidmətinin məlumatlarına əsasən, son illər Azərbaycan Gürcüstan iqtisadiyyatına yatırılan xarici investisiyaların aparıcı mənbələrindən biri olmuşdur. Bu investisiyaların mühüm hissəsi enerji və enerji ilə əlaqəli sahələrə yönəlmişdir. Statistik göstəricilər göstərir ki, 2015-2024-cü illər ərzində Azərbaycan mənşəli investisiyalar Gürcüstanın enerji sektorunda sabit və davamlı xarakter almış, xüsusilə təbii qazın paylanması və yanacaq infrastrukturlarının inkişafı üzrə yatırımlar üstünlük təşkil etmişdir. Rəsmi hesabatlara görə, bəzi illərdə enerji sektoru Azərbaycan investisiyalarının ümumi həcminin 50-70 faizini özündə cəmləşdirib ki, bu da sektorun investisiya strukturu baxımından dominant mövqeyini təsdiqləyir.

Enerji sektorunda investisiya axınlarının əsas istiqamətləri aşağıdakılardır:
– təbii qazın paylanması və pərakəndə satışı;
– neft məhsullarının idxalı və satış infrastrukturlarının yaradılması;
– enerji nəqli və paylanma şəbəkələrinin modernləşdirilməsi;
– texniki xidmət və yardımçı sahələrin inkişafı.

Qeyd olunan istiqamətlər üzrə yatırımlar əsasən SOCAR-ın Gürcüstandakı törəmə strukturları vasitəsilə həyata keçirilmiş və ölkənin, demək olar ki, bütün regionlarını əhatə etmişdir. Xüsusilə qazlaşdırma layihələri nəticəsində minlərlə yaşayış məntəqəsi təbii qazla təmin olunmuş, bu isə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və enerji istehlakının strukturunda keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur.

Bu investisiyalar Gürcüstanın daxili enerji bazarının formalaşmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə və enerji təminatının sabitliyinə töhfə verir. Eyni zamanda, enerji sektoruna yönəlmiş kapital qoyuluşları nəqliyyat, logistika, tikinti və xidmət sahələrində multiplikativ təsir yaradaraq ümumi iqtisadi aktivliyi artırır. Enerji infrastrukturu layihələri çərçivəsində həyata keçirilən tikinti və modernləşdirmə işləri yerli podratçıların və xidmət təminatçılarının bazara cəlb olunmasını stimullaşdırıb, yerlərdə məşğulluq səviyyəsinin artmasına şərait yaradıb.

### Əsaslı mexanizmlər və sosial-iqtisadi təsirlər

Azərbaycan–Gürcüstan enerji əməkdaşlığı çoxsəviyyəli institusional mexanizmlər əsasında tənzimlənir. Bu mexanizmlərə hökumətlərarası sazişlər, uzunmüddətli enerji təchizatı müqavilələri, investisiyaların qorunmasına dair ikitərəfli razılaşmalar və tranzit-tarif siyasətini tənzimləyən normativ-hüquqi aktlar daxildir. Möhkəm institusional çərçivə investisiya risklərinin azaldılmasına, enerji layihələrinin siyasi və iqtisadi dəyişikliklərə qarşı davamlı olmasına şərait yaradır. Enerji əməkdaşlığının sosial-iqtisadi təsirləri isə məşğulluğun artması, fiskal gəlirlərin yüksəlməsi və regionların iqtisadi inkişafı ilə özünü göstərir. Enerji infrastruktur ətrafında formalaşan yardımçı xidmət sahələri yerli əmək bazarının canlanmasına mühüm töhfə verir.

Azərbaycanın Gürcüstanla enerji əməkdaşlığının əsas institusional aktorlarından biri Azərbaycan Dövlət Neft Şirkətidir. Bu qurum Gürcüstanda qaz paylanması, pərakəndə satış və enerji təminatı sahələrində aparıcı mövqeyə malikdir. Şirkətin fəaliyyəti Gürcüstanın enerji balansında sabitliyin qorunmasına və enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir. Neft şirkəti eyni zamanda sosial məsuliyyət layihələri vasitəsilə yerli icmalarla münasibətləri möhkəmləndirir və institusional legitimliyini artırır. ARDNŞ-in korporativ idarəetmə modeli dövlət maraqları ilə bazar mexanizmlərinin uzlaşdırılmasına əsaslanır ki, bu da onun regional səviyyədə uzunmüddətli və davamlı fəaliyyətini təmin edən əsas amillərdən biridir.

***Elşad ÇOBANLI,***
***Odlar Yurdu Universiteti***
***iqtisadiyyat və iqtisadi münasibətlər kafedrasının müəllimi***

# Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət mükafatlarına təqdim edilən əsərlərin adları açıqlanıb




**Azərbaycan Respublikasının Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına 2026-cı ilin Dövlət mükafatlarına təqdim edilən işlərin adları açıqlanıb.**

Bu barədə Dövlət Mükafatları Komissiyasından məlumat verilib.

Dövlət mükafatlarına aşağıdakı işlər təqdim edilib:

**I. Elm və texnologiya sahəsində**

1. **Adil Qəribov** – "Atom-hidrogen energetikasında termo- və radiasion-heterogen proseslər" monoqrafiyası (rus dilində - "Термо- и радиационно-гетерогенные процессы в атомно-водородной энергетике").

**Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutu (optimallaşdırmadan sonra Fizika İnstitutunun tərkibində) təqdim edib.**

2. **Asəf Hacıyev** – "Çoxölçülü reqressiya analizi və süni intellekt" kitabı (ingilis dilində - "High-Dimensional Regression Analysis and Artificial Intelligence").

**Bakı Mühəndislik Universiteti təqdim edib.**

3. **Akif Əlizadə, Tələt Kəngərli, Dadaş Hüseynov, Zaur İmrani, Rauf Qardaşov, Amin İsmayılov, Xəyyam Rəhimov, Səyyarə İbadullayeva, Təvəkkül İsgəndərov, Qurban Yetirmişli, Nazim İsmayılov** – "Qarabağ və Şərqi Zəngəzur. Təbii Ehtiyatlar Atlası".

**Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutu (optimallaşdırmadan sonra Geologiya İnstitutunun tərkibində) təqdim edib.**

4. **Bədirxan Əhmədov** – "XX əsr Azərbaycan ədəbiyyatı tarixi. İcmallar, təhlillər, portretlər" (3 clddə) monoqrafiyası.

**Xəzər Universiteti təqdim edib.**

5. **Camaləddin Aslanov** – "Düzaxınlı siyirtmə" ixtirası və onun əsasında elmi nəzəri perspektivliyi sübuta yetirilmiş ixtiranın təkmilləşdirilməsinə dair kompleks elmi-tədqiqat.

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya Elmi-Tədqiqat İnstitutu təqdim edib.**

6. **Əsgər Zeynalov** – "İrəvan ziyalıları" monoqrafiyası (rus dilində - "Эриванская аристократия").

**Azərbaycan Dillər Universiteti təqdim edib.**

7. **İlqar Nəzərov, Natiq Cavadov, Məmmədsaleh Əliyev, Soltan Qasımov, Rafiq Hüseynov** – Müdafiə təyinatlı məmulatların yaradılması, istehsalı və utilizasiyası sahəsində aparılmış elmi-tədqiqat, təcrübi-konstruktor işlərinin nəticələri əsasında müasir istehsalat sahələrinin yaradılması.

**Müdafiə Sənayesi Nazirliyinin "İqlim Elmi-İstehsalat Müəssisəsi" təqdim edib.**

8. **İlyas Həmidov, Məmməd Qocayev, Rəna Məmmədova, Leyla Həmidova** – "Azərbaycan dilinin frazeologiya lüğəti".

**Bakı Slavyan Universiteti təqdim edib.**

9. **Könül Bünyadzadə** – "Sufi fenomenologiya" ikicildlik monoqrafiyası.

**Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu təqdim edib.**

10. **Qəzənfər Paşayev və Orxan İsayev** – "İraq-Türkman ədəbiyyatı tarixi" monoqrafiyası.

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu təqdim edib.**

11. **Mahirə Hüseynova, Sayalı Sadıqova** – "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" monoqrafiyası.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti təqdim edib.**

12. **Məhəmməd Camalbəyov, Nazim Vəliyev** – "Yeni "Diskret-imitasiya modelləşdirmə konsepsiyası": nasos-quyu-lay sistemlərinin kompüter simulyasiyası ilə neft hasilatının optimallaşdırılması" elmi əsəri.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Neftqazelmitədqiqatlayihə" İnstitutu təqdim edib.**

13. **Rahib İmamquluyev** – "Qeyri-Səlis Məntiq və Süni İntellekt Əsaslı Adaptiv və İzaholunan İdarəetmə Sistemləri: IoT, 6G və Kibertəhlükəsizlik Tətbiqləri" elmi işlər silsiləsi.

**Bakı Biznes Universiteti təqdim edib.**

14. **Tarix Dostiyev** – "Orta əsr Gəncəsinin şirli keramikası (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası)" və "Şəmkirin şirli keramikası: forma və məzmunun birləşdiyi mədəniyyət fenomeni" monoqrafiyaları.

**Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu təqdim edib.**

15. **Vəfaddin İbayev** – "Suverenliyin Zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" kitabı.

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi təqdim edib.**

**II. Memarlıq və mədəniyyət sahəsində**

16. **Eldar Mikayılzadə** – Xalça sənəti sahəsində fəaliyyətinə, xalçaçı rəssam kimi son illərdə yaratdığı əsərlərinə görə ("Azərbaycan xalçası – ilmələrin rəqsi", "Xəmsə" silsilələri və "Səmavi dinlər" triptixi).

**Mədəniyyət Nazirliyi təqdim edib.**

17. **Musa İsmayılov (Mərcanlı)** – Azərbaycan mədəniyyətinin təbliği ilə bağlı silsilə əsərlər: "Azərbaycan. Yeni Era", "Tükənməz xəzinə", "Şirvanşahların minilliyi", "Dirçəliş. Başlanğıc", "Daşları toplamaq vaxtıdır", "Qarabağ Yeni sətirdən", "Şuşa. Zirvədən uca".

**Bakı Dövlət Universiteti təqdim edib.**

18. **Sakit Məmmədov** – "Heydər Əliyev və multikultural dəyərlər" silsilə əsərləri.

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təqdim edib.**

19. **Siyavuş Kərimi** – "Nəsimi" operası.

**Azərbaycan Teatr Xadimləri İttifaqı təqdim edib.**

20. **Yusif Eyvazov** – ifaçılıq fəaliyyətinə görə.

**Azərbaycan Musiqi Xadimləri İttifaqı təqdim edib.**

**III. Ədəbiyyat sahəsində**

21. **Kamal Abdulla** – "Gizli "Dədə Qorqud" – yeni mənalar axtarışında" kitabı.

**Azərbaycan Yazıçılar Birliyi təqdim edib.**

Dövlət mükafatlarına irəli sürülmüş işlərlə ictimaiyyətin geniş tanış olması və müvafiq rəylərin bildirilməsi məqsədilə idarə və təşkilatlardan, ictimai və yaradıcı birliklərdən xahiş olunur ki, yuxarıda göstərilən işlərin müzakirəsini təşkil etsinlər.

**Komissiyanın ünvanı: AZ1066, Bakı şəhəri, Lermontov küçəsi, 68.**

**Azərbaycan Respublikasının Nazirlər Kabineti. E-mail: nk@nk.gov.az**

*AZƏRTAC*

*Nurəddin KAZIMOV – 100*

# Milli pedaqogika elmini zənginləşdirmiş alim

**Azərbaycanın elmi-pedaqoji ictimaiyyəti Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor, Prezident təqaüdçüsü Nurəddin Kazımovun anadan olmasının 100 illiyini qədirbilənlik və dərin ehtiramla yad edir.**



Nurəddin Mustafa oğlu Kazımov 28 aprel 1926-cı ildə Gəncə şəhərində dünyaya göz açmışdır. O, 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuş, ali təhsilini Sankt-Peterburq Dövlət Universitetində davam etdirmişdir. Gənc filosof 1953–1956-cı illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda aspirantura təhsili almışdır.

Nurəddin Kazımov 1958-ci ildə "Müqayisə haqqında K.D.Uşinskinin fikirləri və məktəb təcrübəsi üçün bunun əhəmiyyəti" mövzusunda namizədlik, 1969-cu ildə isə "Məktəbdə müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmiş, 1973-cü ildə professor elmi adına layiq görülmüşdür.

Pedaqoji fəaliyyətə Şəki Müəllimlər İnstitutunun pedaqogika və psixologiya kafedrasının müəllimi kimi başlayan Nurəddin Kazımov sonrakı illərdə Bakı Vilayət Maarif Şöbəsində və Maarif Nazirliyində inspektor, Azərbaycan Pedaqoji Dillər İnstitutunda baş müəllim, Elmi-Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktor müavini və direktor, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda elmi işlər üzrə prorektor, Azərbaycan Dövlət İncəsənət və Dillər universitetlərində pedaqogika kafedrasının müdiri (1984–2014-cü illər) vəzifələrində çalışmışdır. Nüfuzlu və təcrübəli pedaqoq alim uzun illər Azərbaycan Pedaqoji Cəmiyyətinin sədri olmuşdur.

Professor Nurəddin Kazımov orta ümumtəhsil məktəblərinin III, IV sinifləri üçün "Ana dili" və "Oxu" dərsliklərinin və 500-dən artıq elmi əsərin, "Nurlu yol", "Tərbiyənin elmi-pedaqoji əsasları", "Pedaqogika", "Ali məktəb pedaqogikası", "Milli pedaqogika yollarında", "Məktəb pedaqogikası", "Məktəb pedaqogikası sxemlərdə", "Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət", "Müqayisənin nəzəri və əməli problemləri", "Pedaqogika kafedrası üzrə təhsil proqramı (kurikulum)", "Mərhələli tərbiyə nəzəriyyəsi", "Pedaqoji ustalığın problemləri", "Tətbiqi pedaqogika" və 16 cilddən ibarət "Seçilmiş əsərlər"in müəllifidir. Alimin tədqiqatları daha çox didaktika, pedaqogika nəzəriyyəsi, məktəbşünaslıq və tərbiyə məsələlərini əhatə edir. Nurəddin müəllimin dərslik və dərs vəsaitlərindən ali təhsil müəssisələrində bu gün də istifadə edilir.

Professor Nurəddin Kazımov müxtəlif illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində, Tiflis Pedaqoji Universitetində və Gürcüstan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda, Naxçıvan Dövlət Universitetində dissertasiyaların müdafiəsi şuralarının üzvü, bir müddət respublikada Pedaqoji və Psixoloji Elmlər sahəsində Tədqiqatları Əlaqələndirmə Şurasının sədri olmuşdur. Alim 25 aspirant və dissertantın elmi rəhbəri olmuş, 30 doktorluq və namizədlik dissertasiyasının rəsmi opponenti kimi çıxış etmiş, 90-dək dissertasiyaya rəy vermişdir.

Azərbaycan təhsilinin və pedaqogika elminin inkişafındakı xidmətlərinə və səmərəli yaradıcılıq fəaliyyətinə görə professor Nurəddin Kazımov "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Qocaman pedaqoq Prezident təqaüdçüsü idi. 92 il ömür sürən görkəmli alim 2018-ci il dekabrın 6-da haqq dünyasına qovuşmuşdur.

Mərhum professor Yusif Talıbov akademik Mehdi Mehdizadəni, professorlar Əhməd Seyidovu və Mərdan Muradxanovu Azərbaycan pedaqogika elminin sacayaqları (təməl daşları) adlandırmışdı. Görkəmli pedaqoqlarının yolunu onların yetirmələri – professorlar Nurəddin Kazımov, Hüseyn Əhmədov və Əjdər Ağayev davam etdirmişlər. Professor Nurəddin Kazımovun ömür yolu gənc pedaqoq-alimlərə gözəl nümunədir.

O, bir alim kimi pedaqogika elminin aktual problemlərini məqalələrində, kitablarında, elmi şuranın iclaslarında, respublika elmi-praktik konfranslarında, respublika Pedaqoji Cəmiyyətinin qurultaylarında inamla, məntiqi təfəkkürün bütün imkanlarından faydalanaraq və orijinal deyim tərzi ilə təqdim edirdi.

Professor Nurəddin Kazımov son dərəcə ciddi, tələbkar, prinsipial, obyektiv insan idi. Mühazirələri çox məzmunlu, elmi, pedaqogikanın yenilikləri ilə zəngin idi. Kafedranın əməkdaşlarından da mühazirə və seminar məşğələlərinə hazırlıqlı getmələrini, təlim prosesində vaxtdan səmərəli faydalanmağı tələb edirdi. Açıq dərslərdə olur, kafedra müəllimlərinin mühazirə və seminar məşğələlərinin təhlilini aparırdı.

Bu gün çoxsaylı təhsil işçiləri professor Nurəddin Kazımovun elmi irsindən bəhrələnir, yetirmələri onun yolunu davam etdirir, ruhuna rəhmət diləyirlər.

***Akif ABBASOV,***
***Təhsil İnstitutunun elmi katibi, professor, Əməkdar müəllim,***

***Rəhiməxanım MƏMMƏDZADƏ,***
***Azərbaycan Dillər Universitetinin dosenti***

# Hacıqabul Sənaye Parkında kvars qumu istehsal ediləcək




**"AzerKvars" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Hacıqabul Sənaye Parkının rezidenti statusu verilib.**

Agentlikdən verilən məlumata əsasən, investisiya dəyəri 15 milyon manat olan layihə çərçivəsində inşa ediləcək zavodda Hacıqabul rayonunda yerləşən Hacıvəlli yatağından hasil olunan xammal əsasında zənginləşdirilmiş kvars qumunun və texniki tikinti qumunun istehsalı planlaşdırılır. Layihə çərçivəsində 50 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Hacıqabul Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 iyun tarixli fərmanı ilə Hacıqabul Sənaye Məhəlləsinin əsasında yaradılıb. Bunda məqsəd ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkil edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarətdir.

İnvestisiya həcmi 37,65 milyon ABŞ dollar olan sənaye parkı 60 hektar ərazini əhatə edir. Ötən müddətdə Hacıqabul Sənaye Parkında 14 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Burada görülmüş işlərə isə sahibkarlar tərəfindən 66,8 milyon manatdan çox investisiya yatırılıb, 570-ə yaxın daimi iş yeri yaradılıb.

***XQ***

# Türkmənistan heyəti Bakı Limanında



**Beynəlxalq Dəniz Limanında "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov ilə Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Nökərqulu Ataqulıyev arasında görüş keçirilib. Söhbət zamanı Azərbaycan və Türkmənistan arasında Türkmənbaşı Beynəlxalq Dəniz Limanında dəniz dibinin dərinləşdirilməsi yolu ilə infrastrukturun modernləşdirilməsi və liman vasitəsilə yükdaşıma həcmlərinin artırılması məsələləri müzakirə olunub.**



ADY-nin məlumatına əsasən, Türkmənistan nümayəndə heyətinə Bakı Limanı barədə ətraflı məlumat təqdim edilib. Bura limanın ADY-yə inteqrasiyasından sonra həyata keçirilmiş layihələr, həmçinin Orta Dəhliz üzrə multimodal daşımalarda limanın oynadığı strateji rol haqqında məlumatlar daxildir. Diqqətə çatdırılıb ki, ötən il limanda tarixi rekord qeydə alınaraq 100 min TEU konteyner həcmini aşan yük emalı təmin edilib. Bu nailiyyət Azərbaycanın nəqliyyat infrastrukturuna yönəltdiyi böyük həcmli investisiyaların bilavasitə nəticəsi kimi dəyərləndirilir.

Tərəflər hər iki ölkənin dəmir yolu idarələri və beynəlxalq dəniz limanları arasında koordinasiyalı işin təmin edilməsi məqsədilə rəqəmsal məlumat mübadiləsinin zəruriliyini xüsusi qeyd ediblər. Bundan əlavə, Orta Dəhlizin və Avrasiya Nəqliyyat Marşrutunun inkişafı kontekstində multimodal daşımalar sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də Şərq-Qərb-Şərq istiqamətində yük axınının intensivləşdirilməsi üçün atılacaq addımlar diqqətə çatdırılıb.

***XQ***

# “Yaşıl” enerji birgə müəssisəsi

**Qlobal inteqrasiya olunmuş enerji şirkəti olan “TotalEnergies” və təmiz enerji sahəsində dünya lideri “Abu Dhabi Future Energy Company PJSC” – “Masdar” paritet əsaslarla birgə müəssisənin yaradılması barədə icbari xarakterli saziş imzalayıb. Ümumi portfeli 2,2 milyard ABŞ dolları təşkil edən müəssisə adıçəkilən şirkətlərin Azərbaycan və Asiyanın 9 ölkəsində quruda yerləşən bərpaolunan enerji mənbələri sahəsində fəaliyyətlərini birləşdirəcək.**




“Masdar” şirkətinin bununla bağlı yaydığı məlumata əsasən, Asiyada elektrik enerjisinə tələbatın artımının sürətlənməsi fonunda bu tərəfdaşlıq bərpaolunan enerji layihələrinin lazımi miqyasda və ən qısa müddətdə həyata keçirilməsi üçün kapital və ekspert biliklərini birləşdirir. “Sövdələşmənin əldə edilməsindən sonra birgə müəssisə Azərbaycan, İndoneziya, Yaponiya, Qazaxıstan, Malayziya, Filippin, Sinqapur, Cənubi Koreya və Özbəkistanda quruda günəş, külək enerjisi və enerji saxlanc sistemləri ilə bağlı layihələrin işlənib hazırlanması, tikintisi, sahibliyi və istismarı üçün hər iki şirkətin yeganə alətinə çevriləcək”, – deyə məlumatda qeyd olunub.

Bildirilib ki, birgə müəssisə portfelinə 3 giqavat həcmində əməliyyat aktivləri və inkişaf mərhələsindəki 6 giqavatlıq layihə daxil olacaq. Həmin layihənin 2030-cu ildə istismara verilməsi planlaşdırılır. Tərəfdaşların hər biri müqayisə oluna bilən dəyərdə aktivlər təqdim edəcək.

Mərasimdə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri və “Masdar”ın İdarə Heyətinin sədri Sultan Əl-Cabir bildirib: “Biz Mərkəzi Asiya və Qafqazda bərpaolunan enerjinin inkişafında qabaqcıl, həmçinin Asiya-Sakit okean regionunun ən perspektivli, inkişaf edən bazarlarında genişlənən portfelə malik olmağımızla qürur duyuruq. Asiya bu onillikdə qlobal elektrik enerjisinə olan tələbat artımının əsas hərəkətverici qüvvəsi olacaq. “TotalEnergies” ilə əməkdaşlıq isə rəqabətədavamlı və etibarlı enerji həllərinin təmin edilməsi üçün yeni imkanlar açaraq qitədəki inkişafımızı sürətləndirəcək”.

“TotalEnergies”in İdarə Heyətinin sədri və baş direktoru Patrik Puyanne isə deyib ki, saziş hər iki şirkətin güclü tərəflərini birləşdirməyə, bu bazarlarda əhəmiyyətli mövqelər tutmağa və əlavə dəyər yaratmağa imkan verəcək.

Qeyd edək ki, birgə müəssisənin mənzil-qərargahı “Abu Dhabi Global Market” beynəlxalq maliyyə mərkəzində yerləşəcək. Şirkətin heyəti “TotalEnergies” və “Masdar”dan olan, təxminən, 200 əməkdaşdan ibarət olacaq.

***XQ***



# Təhlükəsiz əməyə yeni yanaşma

**Əməyin mühafizəsi və təhlükəsizliyi iş yerlərində sağlam, təhlükəsiz əmək şəraitinin təmin olunmasının əsas istiqamətlərindən biridir. Müasir dövrdə əmək münasibətlərinin inkişafı, yeni texnologiyaların tətbiqi və istehsal proseslərinin genişlənməsi iş yerlərində təhlükəsizlik məsələlərini daha da aktuallaşdırır.**



Əməyin mühafizəsi yalnız işçilərin sağlamlığının qorunması deyil, istehsalın səmərəliliyinin artırılması və sosial rifahın təmin olunması baxımından da mühüm əhəmiyyət daşıyır. Təhlükəsiz şəraitin yaradılması işçilərin sağlamlığının qorunmasının əsas təminatıdır. İş yerlərində təhlükəsizlik qaydalarına riayət edilməsi, əmək şəraitinin mütəmadi qiymətləndirilməsi, risklərin müəyyən olunaraq aradan qaldırılması iş qəzalarının və peşə xəstəliklərinin qarşısının alınmasına xidmət edir.

Ölkəmizdə əməyin mühafizəsi məsələləri, ilk növbədə, Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir. Sənəddə işçilərin təhlükəsiz və sağlam əmək şəraitində işləmək hüququ, işəgötürənlərin öhdəlikləri və əməyin mühafizəsi sahəsində dövlət təminatları öz əksini tapıb. Qanunvericiliyə əsasən, hər bir işəgötürən müəssisədə əməyin mühafizəsi qaydalarının tətbiqinə, istehsalat risklərinin qiymətləndirilməsinə və işçilərin təhlükəsizlik vasitələri ilə təmin olunmasına cavabdehdir.

Son illər müəssisələrdə əməyin mühafizəsi sisteminin təkmilləşdirilməsi, işçilərin hüquqlarının qorunması və təhlükəsizlik standartlarının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Bu tədbirlər yalnız işçilərin sağlamlığının qorunmasına deyil, həm də əmək məhsuldarlığının artırılmasına və iqtisadi inkişafın davamlılığının təmin olunmasına xidmət edir.

Əməyin mühafizəsi yalnız inzibati və texniki tədbirlərlə məhdudlaşmır. İşçilərin təhlükəsizlik qaydaları barədə məlumatlandırılması, fərdi mühafizə vasitələri ilə təmin olunması və riskli işlərdə əlavə qoruyucu tədbirlərin görülməsi sağlam əmək mühitinin formalaşdırılmasına şərait yaradır.

**Dövlət Əmək Müfəttişliyi Xidmətinin Əməyin mühafizəsinə nəzarət şöbəsinin müdiri Günel Baxşiyeva** XQ-yə açıqlamasında bildirdi ki, əməyin mühafizəsi üzrə standartlar, norma və qaydalar iş yerlərində risklərin müəyyən edilməsi və idarə olunması, təhlükəsizlik tədbirlərinin tətbiqi və işəgötürənlərin məsuliyyətinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə beynəlxalq təcrübəyə uyğun standartların tətbiqi, işəgötürənlər və işçilər arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, həmçinin monitorinq və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi üzrə ardıcıl işlər görülür.

Milli standartlaşdırma üzrə Dövlət Proqramına uyğun olaraq “Fərdi mühafizə vasitələrinin təhlükəsizliyi haqqında” milli texniki reqlament layihəsi hazırlanmış və bu sahə üzrə 478 istinad standartı müəyyən edilmişdir. AZSTAND/TK21 Texniki Komitəsi çərçivəsində 110 yeni dövlət standartı qəbul olunmuş və bununla da 2024–2025-ci illər ərzində əməyin təhlükəsizliyi



sahəsində təsdiq edilmiş dövlət standartlarının sayı 167-yə çatdırılmışdır. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Onu da qeyd etmək lazımdı ki, AZS ISO 45001 “Əmək sağlamlığı və təhlükəsizliyinin idarə edilməsi sistemi. Tələblər və tətbiq üzrə izahlar” ölkəmizdə bu sahədə qəbul edilmiş ilk dövlət standartıdır.

Müasir dövrdə əmək münasibətlərinin və istehsal proseslərinin dəyişməsi əməyin mühafizəsi sahəsində yeni çağırışlar formalaşdırır. Bu baxımdan rəqəmsal texnologiyaların tətbiqi, riskəsaslı yanaşmanın gücləndirilməsi, psixososial risklərin idarə olunması və təhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Yeni yanaşmaların tətbiqi iş yerlərində təhlükəsizliyin artırılmasına və əməyin mühafizəsi sisteminin daha effektiv fəaliyyətinə imkan yaradır.

Əməyin mühafizəsi və təhlükəsizliyi əmək münasibətlərinin mühüm tərkib hissəsi olmaqla yanaşı, insan kapitalının qorunması və inkişafı baxımından da strateji əhəmiyyət daşıyır. İş yerlərində təhlükəsiz və sağlam əmək şəraitinin təmin olunması həm işçilərin sosial rifahını artırır, həm də müəssisələrin dayanıqlı inkişafına və iqtisadi səmərəliliyin yüksəlməsinə mühüm töhfə verir.

# Azərbaycan–Qazaxıstan gəmiçilik əməkdaşlığı



**Aprelin 2-də rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ölkəmizdə işgüzar səfərdə olan “Samruk-Kazına” ASC İdarə Heyətinin sədri Nurlan Jakupov ilə görüşüb.**

Söhbət zamanı tərəflər nəqliyyat və logistika sahəsində ikitərəfli əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə ediblər. Görüşdə, Azərbaycan və Qazaxıstan limanlarında dibdərinləşdirmə işləri üzrə birgə layihənin həyata keçirilməsinə xüsusi diqqət yetirilib. Sözügedən layihənin liman infrastrukturunun keçiricilik qabiliyyətinin təmin edilməsi və iki ölkə arasında ticarət münasibətlərinin genişləndirilməsi üçün mühüm əhəmiyyəti vurğulanıb. Layihə üzrə əldə olunmuş nəticələr və əsas məqsədlər barədə fikir mübadiləsi aparılıb.

Görüşün yekununda AZCON Holding ilə “Samruk-Kazına” ASC-nin törəmə şirkəti olan “Samruk-Kazına Invest” MMC arasında dibdərinləşdirmə gəmisinin alışı və dibdərinləşdirmə işlərinin aparılması məqsədilə birgə müəssisənin yaradılmasına dair səhmdarlar sazişi imzalanıb.

***Q.YUSİFOĞLU***
***XQ***

# Bakının “Rəqəmsal əkiz” layihəsinin beynəlxalq təqdimatı

**Azərbaycan Parisdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının mənzil-qərargahında keçirilən Beynəlxalq Nəqliyyat Forumunun (BNF) 12-ci Nəqliyyat Statistikası Görüşündə təmsil olunub.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, toplantıda BNF-nin builki Zirvə toplantısının “Dayanıqlı nəqliyyatın maliyyələşdirilməsi” mövzusuna uyğun olaraq nəqliyyat sektorunda dayanıqlılığın gücləndirilməsi və gələcəyə yönələn siyasətlərin formalaşdırılmasında məlumat və statistikanın rolu müzakirə edilib.



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndəsi Əliş İsmayılov nəqliyyat siyasətində daha proaktiv və gələcəyə yönələn yanaşmaların əhəmiyyətini vurğulayıb. Texnologiyanın nəqliyyat sistemlərinin dayanıqlılığının artırılmasında və qeyri-müəyyənliklərin idarə edilməsində əsas alət olduğu diqqətə çatdırılıb.

Görüşdə Bakı şəhərinin “Rəqəmsal əkiz”i layihəsi çərçivəsində məlumatların toplanması və inteqrasiyası prosesi, istifadə olunan texnoloji həllər, eləcə də “rəqəmsal əkiz”in nəqliyyat planlaşdırılması, optimallaşdırılması və infrastruktur qərarlarının qəbulunda tətbiqi barədə məlumat verilib. Məclisdə süni intellektin rəsmi statistikaya təsiri, sektorlararası məlumatların nəqliyyat siyasətinə inteqrasiyası, məlumatların toplanması və ölçülməsi üzrə innovativ yanaşmalar da müzakirə olunub.

Azərbaycan bu görüşdə fəal iştirakı ilə BNF-yə sədrliyi çərçivəsində məlumat əsaslı, dayanıqlı və gələcəyə yönələn nəqliyyat sistemlərinin təşviqinə, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verib.

***XQ***

# Məşğulluq xidmətləri də rəqəmsallaşır

**Hazırda süni intellekt texnoloji inkişafın əsas istiqamətlərindən biri kimi çıxış edir və cəmiyyətin müxtəlif sahələrində dərin transformasiyalara səbəb olur. Rəqəmsallaşmanın sürətlənməsi, “böyük verilənlər” bazasının formalaşması və hesablama gücünün artması nəticəsində süni intellekt artıq yalnız elmi-tədqiqat mövzusu deyil, iqtisadiyyatın, idarəetmənin və sosial həyatın ayrılmaz elementinə çevrilir.**

Artıq süni intellekt cəmiyyətin inkişafına güclü təsir göstərən strateji texnologiya kimi qiymətləndirilir. Müxtəlif sahələrdə tətbiqi iqtisadi səmərəliliyin artmasına, sosial xidmətlərin keyfiyyətinin yüksəlməsinə və idarəetmə proseslərinin daha effektiv həyata keçirilməsinə imkan yaradır.

Ölkəmizdə də rəqəmsal transformasiya prosesində süni intellekt texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirilir. Bu kontekstdə məşğulluq xidmətlərində süni intellekt texnologiyalarının tətbiqi son illərdə əmək bazarının idarə olunması və işaxtaranlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması baxımından mühüm istiqamətlərdən birinə çevrilməkdədir.

Rəqəmsal transformasiya və “böyük verilənlərin” analizi nəticəsində məşğulluq xidmətləri daha çevik, fərdiləşdirilmiş və effektiv mexanizmlərlə təmin olunur. Müasir dövrdə bir çox ölkələrdə dövlət məşğulluq xidmətləri süni intellekt əsaslı platformalar və innovativ layihələr vasitəsilə əmək bazarının tələblərinə uyğun yeni yanaşmalar tətbiq edir.

Ekspertlər qeyd edirlər ki, beynəlxalq təcrübədə dövlət məşğulluq xidmətlərinin təxminən yarısı artıq süni intellekt əsaslı texnologiyalardan istifadə edir. Bu texnologiyalar əsasən işaxtaranların profilinin təhlili, vakansiyaların uyğunlaşdırılması, əmək bazarı məlumatlarının analizi və vətəndaşlara məlumat xidmətlərinin göstərilməsi kimi sahələrdə tətbiq olunur. Süni intellekt alqoritmləri işaxtaranların bacarıqlarını, təcrübəsini və əmək bazarının tələblərini analiz edərək daha uyğun iş yerlərini müəyyənləşdirir və məşğulluq xidmətlərinin effektivliyini artırır.

Əmək bazarında innovativ yanaşmaların genişləndirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən məşğulluq xidmətlərində süni intellekt texnologiyalarının tətbiqi istiqamətində yeni layihələrin həyata keçirilməsi planlaşdırılır. Nazirlikdən verilən məlumatda bildirilir ki, bu çərçivədə gələcəkdə məşğulluq bazarına uyğun tövsiyə sisteminin yaradılması nəzərdə tutulur. Planlaşdırılan sistem vətəndaşın təhsil səviyyəsini, iş təcrübəsini, bacarıq və maraqlarını nəzərə alaraq ona uyğun vakansiya təkliflərini avtomatik şəkildə təqdim edəcək.



Sistemin işləmə mexanizminə əsasən istifadəçinin şəxsi anket məlumatları, bacarıq siyahısı və əvvəlki iş təcrübəsi sistemə daxil ediləcək. Süni intellekt modeli həmin məlumatları mövcud vakansiya bazası ilə müqayisə edərək uyğunluq göstəricisini hesablayacaq. Aparılan təhlillər nəticəsində vətəndaşlara ən uyğun və yaxın vakansiyalar tövsiyə ediləcək. Bu tətbiq gələcəkdə işaxtaran vətəndaşların əmək bazarında daha düzgün istiqamətləndirilməsinə, vakansiyalara çıxış imkanlarının genişlənməsinə və məşğulluq xidmətlərinin səmərəliliyinin artırılmasına xidmət edəcək. Eyni zamanda, işəgötürənlər üçün uyğun namizədlərin daha operativ müəyyənləşdirilməsinə dəstək verəcək və işaxtaranları onların bilik və bacarıqlarına uyğun vakansiyalara yönləndirəcək.

Süni intellekt texnologiyalarının tətbiqi məşğulluq xidmətlərinin fəaliyyətində yeni imkanlarla yanaşı, müəyyən çağırışlar da yaradır. Nəticə etibarilə, məşğulluq xidmətlərində süni intellekt texnologiyalarının tətbiqi əmək bazarının daha effektiv idarə olunmasına, işaxtaran və işəgötürən arasında əlaqələrin gücləndirilməsinə, məşğulluq siyasətinin daha dəqiq planlaşdırılmasına imkan yaradır. Bu sahədə həyata keçirilən yeni layihələr sayəsində süni intellekt gələcəkdə məşğulluq xidmətlərinin əsas texnoloji dayaqlarından birinə çevriləcək və əmək bazarında innovativ idarəetmə modellərinin formalaşmasına mühüm töhfə verəcək.

***Mustfi K AMAL***
***XQ***

# Sığortalı əmlaklara yağış 4 milyon manatlıq ziyan vurub

**Martın son günlərində ölkə ərazisində qeydə alınan aramsız yağışlar Bakı da daxil olmaqla ölkə ərazisində daşınar və daşınmaz əmlaklara ziyan vurub. Bu barədə Azərbaycan Sığortaçılar Assosiasiyasından məlumat verilib.**

Bildirilib ki, aprelin 1-nə olan hesablamalara görə, 2026-cı il martın 27-30-da baş vermiş sığorta hadisələri ilə bağlı 8 qeyri-həyat sığorta şirkətinə, ümumilikdə, 1649 sığortalı müraciəti daxil olub. Həmin müraciətlərin 1261-i icbari avtosığorta (Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası), 136-sı “Kasko” (“Avtonəqliyyat vasitələrinin sığortası”) sığorta növü, 190-ı “Daşınmaz əmlakın icbari sığortası” növü, 63-ü isə “Əmlakın yanğından və digər risklərdən sığortası” növü üzrə baş vermiş sığorta hadisələri ilə bağlı olub. Daxil olmuş müraciətlər üzrə hadisələrin 77 faizi paytaxt Bakıda, 23 faizi isə ölkənin digər bölgələrində (xüsusilə şimal rayonlarında) qeydə alınıb.

Məlumatlara görə, qiymətləndirilmiş 1421 sığorta hadisəsi üzrə ehtimal olunan zərər məbləği 2 milyon 472 min 480 manat həcmində müəyyənləşdirilib. Qalan 228 hadisə üzrə isə zərər qiymətləndirməsi prosesi davam edir. Bundan əlavə, 15 zərərçəkənin sığortası olmadığı üçün onların müraciətləri təmin olunmayıb.



Qurumdan bildirilib ki, hazırda daxil olmuş bütün müraciətlərə dair hadisələr tənzimləmə və zərər qiymətləndirilməsi mərhələsindədir. Sığorta hadisəsi kimi tanınan hər bir hadisə üzrə sığorta tənzimlənməsinin həyata keçirilməsi nəzərdə tutulur. Bütün hadisələr üzrə qiymətləndirmə prosesi yekunlaşdıqdan sonra ümumi zərər məbləği həcminin 4 milyon manata yaxın olacağı ehtimal edilir.

***XQ***

# Aprel döyüşləri – Ordumuzun ilk "Dəmir yumruğ"u

## Qəhrəmanlıq – alın yazısı

**İlk dəfə olaraq Qarabağ uğrunda Aprel döyüşləri işğal edilmiş ərazilərin azad olunması məsələsinin həllində Azərbaycan Silahlı Qüvvələrinin artan imkanlarını və qətiyyətini nümayiş etdirib. Həmin parlaq əməliyyatlar qısa müddət davam etsə də, burnu lazımınca ovulan erməni ordusu strateji təşəbbüsü əldən verdi, onun sıralarında çoxsaylı fərarilik halları müşahidə edildi, inamsızlıq baş alıb getdi.**



Azərbaycan Ordusunun Qarabağ zəfəri ilə bağlı dönməz iradəsinin ifadəsi olan, yolumuzu ümiddən inama, inamdan qələbəyə doğru yönəldən Aprel döyüşlərində müstəsna xidmətləri ilə seçilən igidlərimizdən biri "N" saylı hərbi hissənin komandiri, polkovnik Şükür Həmidov idi.

Əslən Qubadlı rayonunun Başarat kəndindən olan Şükür Həmidov 1993-cü ildə, 18 yaşında ikən doğma yurd-yuvasından didərgin düşərək ailəsi ilə Sumqayıta pənah gətirmişdi. Aprel döyüşləri zamanı Lələtəpənin alınması zamanı xüsusilə fərqləndi, buna görə də Prezident İlham Əliyevin 20 aprel 2016-cı il tarixli sərəncamına əsasən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Müdafiə nazirinin əmri ilə isə göstərdiyi şücaətə görə ona vaxtından əvvəl polkovnik hərbi rütbəsi verildi.

Sumqayıtlılar hər il aprelin 1-də Milli Qəhrəman Şükür Həmidovun yaşadığı ünvanda onun abidə-lövhəsini ziyarət edirlər. Bu, həm Aprel döyüşlərinin başlandığı, həm də qəhrəmanın dünyaya gəldiyi gündür. Fəxrlə xatırlanır ki, polkovnik Həmidov 2016-cı ildə, öz doğum gününün gecəsi başlanan Aprel döyüşlərinin qəhrəmanı olub. Onun öncül iştirakı ilə Azərbaycan ordusu ermənilərin qurduğu "keçilməz" Ohanyan səddini cəmi 18 dəqiqəyə yara bilib. Bu, hər tariximizin ən parlaq səhifələrindən biridir.

Onu da deyək ki, peşəkar hərbçi olan polkovnik Şükür Həmidov 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində də mərdliklə vuruşub, oktyabrın 22-də isə doğulub boya-başa çatdığı Qubadlı rayonunu düşməndən təmizləyərkən qəhrəmancasına həlak olub. Dəfn mərasimi zamanı dövlətimizin başçısı İlham Əliyev telefon vasitəsilə qəhrəmanın atasına dərin hüznlə başsağlığı verib. Mərasimdə iştirak edən Müdafiə naziri Zakir Həsənov isə şəhidin tabutu üzərində olan Azərbaycan bayrağını əbədi xatirə olaraq onun ailəsinə təqdim edib.

Şəhid polkovnikin atası – ondan 3 il sonra haqq dünyasına qovuşmuş Nəriman kişi özünü şax tutaraq, qürur hissi ilə deyib: "Müharibədə hamı həmrəy olub, bir zindana çəkic vurdu. Fəxr edirəm ki, mənim oğlum da canını Vətənə qurban verdi".

Şükür Həmidovun ölümündən sonra layiq görüldüyü fəxri ad, "Zəfər" ordeni və medallar onun şərəfli döyüş yolunun nişanələridir...

## "Murov qartalı"

**Məlum Aprel döyüşlərinin 10-cu ildönümündə hərbi hissə komandiri, polkovnik-leytenant Raquf Orucovu hər kəs onun ruhuna böyük ehtiram duyğuları ilə xatırlayır.**

Raquf 1972-ci ildə Ağdam rayonunun Çilli kəndində doğulub. 1990-cı ildə sovet ordusunda xidmət edib. Tərxis olunduğu vaxt nankor qonşularımızın Qarabağa işğalçı hücumları başlanıb və o da Silahlı



Qüvvələrimizin tərkibində düşmənə qarşı vuruşub. Fərrux dağı və Aranzəmin səmtlərində gedən hərbi əməliyyatlarda fərqlənib. Ağdamın işğalı zamanı erməni silahlı dəstələri tərəfindən anası öldürülən Raquf həmin hadisədən sonra ömrünü həmişəlik hərb sahəsinə həsr etməyə qərar verib və Bakı Ümumqoşun Komandirləri Məktəbində ali hərbi təhsil alıb.

O, düz 20 il Azərbaycan Respublikasının Silahlı Qüvvələrində zabit kimi Vətənə xidmət edib. 1998-ci ildə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib. Murovdağ istiqamətində yerləşən "N" saylı hərbi hissədə qulluq etdiyi vaxt misilsiz qorxmazlıq nümunələrinə görə "Murov qartalı" ləqəbini alıb.

Bir müddət 1-ci Ordu Korpusunun Ağdam səmtində yerləşən hərbi hissəsinin komandiri olan Raquf Aprel döyüşlərində də həmin korpusu layiqincə təmsil edib. Hərbi xidməti dövründə daim ön cəbhədə Vətənə qulluq edib. Raquf Orucov aprelin 3-də Tərtər ərazisindəki döyüş mövqeyində qəhrəmancasına həlak olub. Onun düşmən arxasına keçərək erməni alay komandirinin oğlunu əsir götürməsi və bunun sayəsində əsir düşən 5 əsgərimizin xilas olmasından bəhs edən "Komandir", eləcə də ibrətamiz, şərəfli həyat yolunun qələmə alındığı maraqlı kitablar yazılıb...

Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilən cəsur komandir ailəsinin yaşadığı Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn edilib. Məzarının üstü daim gül-çiçək olan igid komandirin ruhu qarşısında ziyarətçilər baş əyirlər.

Bəli, Aprel şəhidlərimiz, o cümlədən də Raquf Orucov Zəfər salnaməmizin ilk sətirlərini qanları ilə yazıblar və hər biri misilsiz qəhrəmanlıq simvoluna çevrilib.

Jurnalist Elşən Əliyev və Elxan Salahov Raquf Orucov haqqında yazılmış "Murov qartalı" kitabının müəllifləridir. Sumqayıt Dövlət Dram Teatrında keçirilən təqdimat mərasimində onlar şəhid kəşfiyyatçının şərəfli döyüş yolundan bəhs edən kitabın ərsəyə gəlməsindən danışıblar. Bildirilib ki, nəşrdə, həmçinin polkovnik Raquf Orucovun döyüş yoldaşlarının xatirələri, mətbuatda onun haqqında dərc olunmuş oçerklər də yer alıb. Müəlliflər çalışıblar ki, gənclərdə Vətən müdafiəçisinin dolğun obrazını yaratsınlar.



**Düz 10 il əvvəl – 2016-cı il aprel ayının ilk günlərində Qarabağda, Ermənistan işğalçı ordusu və Azərbaycan silahlı qüvvələri arasındakı təmas xətti boyunca, cəbhənin Talış və Lələtəpə istiqamətləri üzrə baş vermiş silahlı toqquşma dövlətimizin, xalqımızın və ordumuzun əsl gücünü düşmənə göstərən qələbə sorağı olub. Həmin döyüşlərin nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının böyük əraziləri işğaldan azad edilib, 2020-ci ildə qazanılan Böyük Zəfərin möhkəm təməli qoyulub.**

**Əzəli torpaqlarımıza sahib çıxmaq istəyən təcavüzkar erməni ordusunun növbəti təxribatının nəticəsi olaraq başlanan bu hərbi əməliyyatla vətənpərvər oğullarımız yağı tapdağında olan 2 min hektardan çox ərazini işğaldan azad edib, strateji əhəmiyyətə malik bir çox yüksəklikləri, yolları nəzarət altına alıblar. Düşmənin xeyli sayda hərbi texnikası və 500 nəfərlik canlı qüvvəsi məhv edilib. 4 gün davam etmiş döyüşlər Silahlı Qüvvələrimizin haqq işi xəbərdarlığı, qüdrət və qələbə anonsu olub, dərin hərbi və**



**siyasi məzmunu ilə tarixə yazılıb. Beləcə, siyasi və iqtisadi cəhətdən çökmüş Ermənistan ordusu Ali Baş Komandanımızın sərkərdəlik məharəti və qəhrəman oğullarımızın dönməz iradəsi sayəsində öz faşist xislətinin bədəlini ağır şəkildə ödəmək zorunda qalıb.**

**Əlbəttə, heç bir silahlı qarşıdurma itkisiz olmur və Aprel döyüşlərində Ordumuzun 100-ə yaxın hərbi qulluqçusu Vətən naminə şəhadətə ucalaraq əbədiyyətə qovuşub. Onlardan 39-u Birinci Ordu Korpusunun, 19-u Quru Qoşunları Ordu Korpusunun, 27-si Xüsusi Təyinatlı Qüvvələrin, 3-ü Hərbi Hava Qüvvələrinin, 1-i isə Hərbi Dəniz Qüvvələrinin təmsilçisi idi. Prezident İlham Əliyevin 19 aprel 2016-cı il tarixli sərəncamına əsasən, Aprel şəhidlərinin böyük bir qrupu Azərbaycan Milli Qəhrəmanı adına, eləcə də orden və medallara layiq görülüb.**

**Bu səhifəni Aprel döyüşlərinin qəhrəman iştirakçılarına həsr etmişik. Onların ölməz ruhu qarşısında ehtiramla baş əyərək, şanlı döyüş yollarına nəzər salmaq istəyirik.**

## Vətən sevgisi imana döndü

**Aprel döyüşlərinin şəhidi, Milli Qəhrəman Samid İmanov 35 yaşında əbədiyyətə qovuşub.**



Neftçala rayonundakı 1 nömrəli orta məktəbi bitirib attestat aldığı gün Samid "Hara gedəcəksən?" sualına "Hərbçi kimi Vətən qulluğuna gedəcəyəm", – deyə cavab verib. O, həmin il Ali Hərbi Məktəbə daxil olub və orada təhsilini fərqlənmə ilə başa vurub.

Türkiyə Cümhuriyyətində "Daxili təhlükəsizlik əməliyyatlarının planlaşdırılması və icrası" komando təlimində, "Paraşütdən sərbəst atlayış", habelə "Anadolu – 2007", "Anadolu Qartalı – 2007 birgə taktiki təlimlərində", Pakistanda "Ləpirçi" və "Antiterror" kurslarında, İsveçrə krallığında "Dağ təlimi kursunda, Rumıniyada "Dağa dırmanma üzrə təlimatçı" kursunda iştirak edən gənc zabit Samid İmanov bu sahədə bilik və təcrübəsini xeyli təkmilləşdirib. 2004-cü ilin iyun ayından xüsusi təyinatlı hərbi hissədə qrup komandirinin müavini, qrup, bölük, dəstə komandiri və hərbi hissənin qərargah rəisi – hərbi hissə komandirinin müavini vəzifələrində Vətənə layiqincə xidmət göstərib. O, hərbi qulluq müddətində 6 medalla təltif olunan az sayda hərbçilərdən biri olub.

Öyrəndiyimizə görə, Samid İmanov bir müddət müdafiə naziri Zakir Həsənovun mühafizə xidmətinin rəisi olub, daha sonra öz istəyi ilə yenidən qaynar nöqtəyə – xüsusi təyinatlı hərbi hissəyə qayıdıb, orada qərargah rəisi və xüsusi təyinatlı qoşunun komandanının köməkçisi vəzifəsini icra edib. Samid İmanov göstərdiyi qəhrəmanlıqlara görə iki dəfə ölkə rəhbərliyi tərəfindən qəbul edilərək, mükafatlandırılıb.

Mayor Samid İmanovun başçılıq etdiyi dəstələr onun yüksək komandirlik bacarığı və şəxsi nümunəsi sayəsində daim ürəklənərək, düşmənə ağır zərbələr vurub, dəfələrlə düşmənin arxasına keçib, komandanlığa çox vacib materiallar gətiriblər.

Həmin əməliyyatlardan birini misal çəkmək kifayətdir ki, Samidgilin nəyə qadir olduğu aşkar görünsün. 2014-cü il avqust ayında onlar erməni təxribatının qarşısını almaqla bağlı növbəti tapşırıq alıblar. İgid zabitin planına əsasən dəstə ildırımsürətli əməliyyat keçirib və 20-yə yaxın ermənini məhv edərək geriyə qayıdıb.

Məlum Aprel döyüşləri başlananda Samid İmanov sevinib ki, nəhayət, qisas günü gəldi. "Vətən uğrunda ölsək də, olar. Çünki Vətəni sevmək, bu yolda ölmək imandandır", – deyib. Komandanlığın bütün əmrlərini öz igidləri ilə ən yüksək səviyyədə yerinə yetirib. Önə çıxaraq, göz qırpmadan irəli atılıb, qartal kimi döyüş meydanında qıy vurub. Aprelin 3-dən 4-nə keçən gecə isə rəşadətli mayorun son döyüşü olub.

Həmin gün Tərtərin Talış kəndi ətrafındakı atışmada yaralanan cəsur komandir əsgərlərinin onu döyüş meydanından çıxarmasına etiraz edib, digər yaralının (gizirin) xilas edilməsi əmrini verib. Əsgərlərinin etirazına baxmayaraq, əmrin icra edilməsi üçün qəti göstəriş verib.

Giziri təxliyə etmək üçün ərazidən uzaqlaşan qrup qısa zamanda, təhlükəli olmasına baxmayaraq, yenidən qayıdıb ki, komandiri də təhlükəsiz yerə aparsın. Amma o, yerində tapılmayıb. Sonra məlum olub ki, əsgərləri ərazidən uzaqlaşandan sonra Samid İmanov ələ keçməmək üçün oradan aralanıb, lakin aldığı yaralardan qan axması nəticəsində dünyasını dəyişib.

Prezident İlham Əliyevin sərəncamı ilə erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdiyi qəhrəmanlığa görə, şəhid mayor Samid Gülağa oğlu İmanov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Allah rəhmət eləsin.

## "Şahidlər və şəhidlər" – qalibiyyət dastanı

**Məlum Aprel döyüşlərinin 10 illik yubileyi günlərində o zaman həlak olmuş igidlərimiz haqqında araşdırmaçı-publisist, Qlobal Jurnalistlər Birliyinin Şərqi və Mərkəzi Asiya Respublikaları üzrə qrupun katibi Aida Eyvazlı Göytürkün yazıb ərsəyə gətirdiyi "Qalibiyyət: şahidlər və şəhidlər" ikicildliyini yenidən vərəqləyirik.**

Şəhidlərimizin qəhrəmanlığını, onların arasında şairlik istedadı ilə seçilən, necə deyərlər, bir əlində silah, digərində qələm tutmuş unudulmazların haqqında hekayətlərdən (həm də onların bədii nümunələrindən) ibarət 440 səhifəlik kitaba Azərbaycan Respublikası Milli Məclisinin deputatı, tanınmış yazıçı, Əməkdar jurnalist Aqil Abbas Ön söz yazaraq bildirib ki, işğal dövründə Aida xanım Eyvazlı daim cəbhə xəttində, şəhid ailələrimizin, qazilərimizin yanında, hospitallarda yaralı əsgərlərimizin ziyarətində görmək olardı. "Onun yazdıqları təkcə şəhid ailələrinə və qazilərə deyil, eləcə də bizlərə bir təsəlli verir. Belə yazıları yazmaq çox ağırdı və ağrılıdı. O hissləri yaşamadan, o dərdlərə şərik olmadan belə yazıları yazmaq mümkün deyil. Bu kitabı oxumaq çox ağırdı. Kitab müqəddəs Qarabağ savaşımızda canlarını qurban vermiş şəhidlərimizə həsr olunub. Və xüsusilə də Aprel şəhidlərinə. "Qalibiyyət: şahidlər və şəhidlər" kitabında şəhidlərimiz haqqında, təkcə keçdikləri ömür yolu haqqında, göstərdikləri qəhrəmanlıqlar haqqında bilgi verilmir, həm də onların necə bir insan olduqları, doğmalarının, yaxınlarının acı və şirin xatirələri çox ustalıqla qələmə alınıb. Kitabı oxuduqca heç tanımadığın, bəlkə də adını birinci dəfə eşitdiyin şəhidlər sənə də doğmalaşır. Bundan əlavə, kitabda ermənilərin zaman-zaman Azərbaycan torpaqlarına etdikləri iddiaların və vəhşiliklərin tarixi də yer alıb. Bu kitab həm bir folklor nümunəsidir, həm də tariximizin qanlı səhifələrinə işıq tutur".

Kitabda, eyni zamanda, Lələtəpə, Talış yüksəklikləri, Seysulan məntəqəsi barədə maraqlı xatirələr, Aprel döyüşlərini və qələbə anını əks etdirən məqamlar, bu döyüşlərin dünyada doğurduğu əks-səda geniş əksini tapıb. Şəhidlərimizin ömür yolu, həyat hekayələri, onların doğmalarının, dostlarının xatirələri əsasında yazılan kitabda müəllifin özünün çəkdiyi şəkillər və şəhidlərin həyatından bəhs edən fotolar da yer alıb.

"Mənəvi Dəyərlərin Təbliği Fondu"nun maliyyə dəstəyi ilə çap edilmiş, həqiqətən də dəyərli olan kitabın redaktoru Dilarə Quliyevadır. Onun və Kənan Hacının "xeyir-dua" yazıları da toplunun maraqlı səhifələrini təşkil edir. Onlar Aida xanımın "Vətəni qibləgah edən şəhidlər" barəsində hekayətlərini layiqincə dəyərləndirir və vurğulayırlar ki, bu kitablar bizim qalibiyyətimiz haqqındadır və bu gündən daha çox gələcək üçün yazılıb. Gələcək nəsillər heç nəyi unutmasın...




Müəllif isə deyir: "Aprel döyüşlərində şəhid olan qəhrəman Vətən övladlarımız haqqında məlumatları toplayaraq onların xatirəsini əbədiləşdirmək qarşıya qoyduğum əsas məqsəd idi və bu, mənim üçün qürurvericidir".

Biz də Aida Eyvazlı–Göytürkün ikicildliyini oxuduqca, görürük ki, janr etibarilə salnamə-roman kimi də təqdim oluna bilərdi. Adı bu kitaba düşmüş qəhrəmanlar hər biri öz həyatının romanını yazıb gedib. Onlar həm də tarixi yazan oğullardır…

### Mərmiyəcən yaşamaq

*(Şəhidin monoloqu)*

***Ömür vəfa etmədi –***
***qara buluda girən aya döndü,***
***gizləndi məndən...***
***Kim düzdü bu ömrü sapa, bilmədim,***
***ha çırpındım,***
***ömrümün ardını tapa bilmədim.***
***Ömürümün sonunda mərmi dayandı...***
***İyirmiyəcən yaşadım,***
***Həmin mərmiyəcən yaşadım.***
***Yıxıldım qaldım torpağınan,***
***son dəfə sarmaşdıq bayrağınan.***
***Ömrüm az oldu, amma***
***Vətən sevgimdən tamsındı bir az.***
***Yağış, günəş, qarıynan sevdim,***
***Qanım süzülən əsgər paltarıynan***
***sevdim Vətəni.***

***İlham QƏHRƏMAN***

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

Ədalət Fərəcov – 90

# Bioloqların sevimli müəllimi



**Həyatda bacarıq və zəhmətlə çox şey qazanılır. Lakin qandan, candan gələn, mənəviyyatı formalaşdıran özəllik insanın özü ilə birgə doğulur, onu ucaldır, sevdirir. Ədalət müəllim də insani keyfiyyətləri ilə özünə hörmət qazanan soydaşlarımızdandır. O, həmişə ədaləti soraqlayıb. Həmişə haqqa tapınıb, doğruluğu, dürüstlüyü ilə nümunə olub. Müdriklərin gözəllik və elmlə dolu bir kuzə saydıqları dünyanın işlərindən baş çıxarmaq üçün elmin çətin yollarında yorulmadan irəliləyib. Elm aləmində özünü təsdiqləyib ki, bir gün geriyə boylananda "boşuna ömür sürdüm", – deyə peşmanlıq hissi keçirməsin. Elə keçirməyib də...**

*Ədalət Fərəcov 1936-cı ildə Masallı rayonunun Kürdəbaz kəndində dünyaya gəlib. Üzünü belə xatırlamadığı atası müharibədə həlak olmuş, anası 3 uşaqla qalmışdı. Olduqca çətin şəraitdə yaşayan, çörəyin belə tapılmadığı bir zamanda kitab-dəftər həvəskarı olan uşaq üçün həyat yalnız arzulardan ibarət idi. O, bacardığı qədər anasına kömək edir, bununla bərabər kitabı əlindən yerə qoymur, yazıb-oxumaqdan usanmırdı. Masallı rayon onillik orta məktəbi əla qiymətlərlə başa vurur və sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutuna verir. Bir zamanlar əlçatmaz, ünyetməz arzuları reallaşır: tələbə adını qazanır. Həm təhsildə, həm də ictimai işlərdə müəllimlərinin etimadını doğruldur. 1963-cü ildə ADPU-nun biologiya-kimya fakültəsini fərqlənmə diplomu ilə bitirir və institutda saxlanılır.*

*34 yaşında – 1970-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyasında fərdi inkişafda ionlaşdırıcı şüalanmanın təsirinin qanunauyğunluqları öyrənir və müəyyən edir ki, keçid dövründə orqanizmin rezidentliyi, metabolizmin mərhələləri müəyyən hədd daxilində dəyişir.*

*Neyromediatorların miqdarında və onların metabolizmində iştirak edən fermentlərin aktivliyinin müxtəlif yaş qrupuna mənsub olan heyvanların baş beyninin limbik strukturlarında müxtəlif müddətli acqalma şəraitində aşkar edilən dəyişmələrin düzgün şəkildə əsaslandırılması mütəxəssislərin diqqətini cəlb edir. Ədalət Fərəcovun tədqiqat işlərini yüksək qiymətləndirən elm adamları onun biokimya və fiziologiya ixtisaslarından elmlər doktorluğu dissertasiyası müdafiə etməsinə razılıq verirlər.*

1990-cı ildə eksperimental hissəsi baş beynin limbik strukturlarında fizioloji, morfoloji və biokimyəvi proseslərin funksional vəhdətini və qanunauyğunluqlarını əhatə edən "Qida deprivisiyasının baş beynin limbik strukturlarında neyromediatorların postnatal ontogenezdə metabolizmi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir. Dissertasiyanın laborator işləri ADPU-nun Fiziologiya kafedrasında, AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda, Moskvada "Beyin İnstitutunda", Kiyevdə A.M.Palladin adına Biokimya İnstitutunda tədqiq edilmiş, müəllifin bu mövzuda 40-dan artıq məqaləsi, tezisləri, 2 monoqrafiyası çap olunmuşdur.

Tanınmış alim Moskva, Kiyev, Minsk, Almaniya, Fransa, Türkiyə, İran, Belçika, Kanada və s. ölkələrdə keçirilən forumlarda Azərbaycanı layiqincə təmsil etmiş, elmi işlərinin nəticələri 250-dən artıq məqalə və tezis şəklində dünyanın nüfuzlu elmi jurnallarında, konfrans materiallarında çap olunmuşdur. 21 nəfər onun rəhbərliyi ilə biologiya və tibb elmləri üzrə biokimya, biofizika, fiziologiya ixtisasından dissertasiya müdafiə etmiş, müxtəlif esktremal vasitələrin, xüsusilə etil spirtinin, farmakoloji maddələrin, radioaktiv şüalanmanın, o cümlədən uzunmüddətli acqalmanın canlı orqanizmə təsirini öyrənmişlər. Bu məqsədlə etil spirtinin müxtəlif konsentrasiyalı məhlulunun heyvan orqanizminə injeksiyası aparılmışdır.

Etanolun baş beyində yaratdığı oyandırıcı və ləngidici effekti maddələr mübadiləsinə və fermentlərin aktivliyinə güclü təsir göstərir. Xüsusilə reseptorların morfologiyasının və funksional səviyyəsinin pozulması ilə nəticələnir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, əgər alkoqol prenatal ontogenezdə (doğuşdan əvvəl) tətbiq olunarsa, o zaman oyandırıcı neyromediatorların miqdarında azalma, tormozlandırıcı neyromediatorların səviyyəsində isə yüksəlmə aşkar olunur. Həmçinin neyromedioatorların mübadiləsində iştirak edən fermentlərin də aktivliyində dəyişmə qeydə alınır. Qida deprivisiyası sinir toxumasında metobalizm dəyişmələrinə, baş beyində oyanma və ləngimə arasında disbalansın yaranmasına səbəb olur. Xüsusilə ləngidici neyromediatorun miqdarının artması neyronları etanolun dağıdıcı təsirindən qorumağa istiqamətlənir.

Alim apardığı tədqiqatlarda belə bir nəticəyə gəlmişdir ki, yalnız etil spirti deyil, digər kimyəvi maddələr də baş beyində sinir hüceyrələrinə ciddi təsir göstərir. Narkotiklərin, alkoqolun təsirindən uşaq və yeniyetmələrdə ali sinir fəaliyyətində yaranan dəyişmələr böyüklərə nisbətən daha kəskin olur.

Məzun olduğu institutun fiziologiya kafedrasında dosent, professor vəzifəsində işləyən Ədalət müəllim 1988-1994-cü illərdə hərbi və fiziki təlim fakültəsinə dekan seçilir. Çox ağır və gərgin bir dövrdə bu məsuliyyətli işin ona tapşırılması əbəs deyildi. Onun vətənini, millətini sevən və eyni zamanda, məsuliyyətli və qayğıkeş insan olduğu çoxlarına bəlli idi. Ədalət müəllimi ölkəmizdə baş verən hadisələr çox narahat edir, o da hamının bir nəfər kimi səfərbər olub döyüş bölgələrinə getmələrinin, Vətənin müdafiəsinə qalxmalarının vacib olduğunu, uzaqdan tamaşaçı kimi seyr etmək yox, əsl hünər göstərmək məqamının çatdığını çox gözəl bilirdi. Lakin bunun kortəbii surətdə deyil, nizamlı, ölçülüb-biçilmiş formada olmasına çalışırdı.

15 ildən artıq respublikada biologiya fənni üzrə olimpiadanın sədri vəzifəsində çalışan Ədalət müəllimin Azərbaycan məktəblilərinin Almaniya, Belçika, Hindistan, Çin, Yaponiya, Koreya, Türkiyə, İran, Avstraliya, Kanada və Argentinada ölkəmizi layiqincə təmsil etmələrində böyük əməyi olmuşdur. Onun rəhbərliyi ilə beynəlxalq biologiya olimpiadalarında iştirak edən məktəblilərimiz ayrı-ayrı illərdə qızıl, gümüş və bürünc medallara layiq görülmüşlər.

7 monoqrafiyanın, 8 dərsliyin, 3 dərs vəsaitinin və çoxlu sayda fənn proqramlarının müəllifi olan Ədalət Fərəcov Azərbaycan elminin inkişafında öz sözünü deyən ziyalılarımızdandır. O, elmi, pedaqoji fəaliyyətində, ali və orta məktəblər üçün yazdığı dərslik və dərs vəsaitlərində insan orqanizminin tamlığının təmin olunması, neyrohumoral tənzimi mexanizminin qanunauyğunluqlarınının öyrənilməsi məsələlərinə xüsusi diqqət vermişdir. Tədqiqat işlərində uşaq orqanizminin inkişafında düzgün qidalanmanın, gigiyena qaydalarına riayət edilməsinin əhəmiyyəti, morfoloji-funksional sistemlərin və aparatların harmonikliyinin formalaşmasındakı əhəmiyyəti şərh olunmuşdur. Orqanizmin ətraf mühitə uyğunlaşmasında sinir sistemi və endokrin sistemlə yanaşı, immun sistemin də zəruriliyi göstərilmişdir.

Eksperimental tədqiqatla yanaşı, Ədalət Fərəcovun radio-televiziya verilişləri, nüfuzlu qəzet və jurnal səhifələrindəki yazıları məzmun və mahiyyətinə, gənclərdə vətənpərvərlik ideyalarının təbliğinə görə müstəsna əhəmiyyət daşıyır. O, ümummilli lider Heydər Əliyevin əvəzolunmaz tarixi xidmətlərini, ölkə Prezidenti İlham Əliyevin xarici və daxili siyasətdəki uğurlarını daim təqdir etmişdir. Ədalət Fərəcov ulu öndər Heydər Əliyevə 1992-ci ildə müraciət imzalamış və Azərbaycanın ən yeni tarixinə 91-lər adı ilə daxil olmuş görkəmli ziyalılarımızdandır.

1994-cü ildən 2017-ci ilədək ADPU-nun Fiziologiya kafedrasının müdiri, AMEA Fiziologiya İnstitutunun dissertasiya müdafiəsi şurasının həmsədri vəzifəsində neçə-neçə namizədlik və doktorluq dissertasiyalarına rəhbərlik etmiş Ədalət Fərəcov Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalına, Elm və Təhsil Nazirliyinin "Əlaçı" döş nişanına, 2006-cı ildən ADPU-da keçirilən "İlin müəllimi" və "İlin alimi" müsabiqəsində 8 dəfə (4 dəfə tədrisdə, 4 dəfə elmdə) birinci yerə layiq görülmüşdür. 2000-ci ildə İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən "İlin görkəmli ziyalısı" adını, 2001-ci ildə isə Mərkəzin qızıl medalını almışdır.

Prezident təqaüdçüsü, biologiya üzrə elmlər doktoru, professor Ədalət Fərəcovu tələbə olarkən müəllimlərinə, müəllim olarkən tələbələrinə sevdirən səmimiyyəti, elmə, təhsilə diqqət və qayğı ilə yanaşmasıdır. O, hər zaman müəllimlərindən miras qalan doğru-düzgünü, haqq-ədaləti müdafiə edib, tələbələrinin uğurlarına ürəkdən sevinib. XIII əsrdə yaşamış böyük mütəfəkkir, bəzən fikir və düşüncələrini anlamağa çətinlik çəkdiyimiz dahi filosof Cəlaləddin Rumi yazırdı:

***Torpaq ol, torpaq ol ki, gül bitəsən,***
***Səndən rəngarəng güllər açsın.***

Bəli, Ədalət müəllimin tələbələri, yetirmələri də rəngarəng güllər kimidir, elmimizin çiçəklənməsinə töhfələr verirlər. Bir müəllim, ziyalı, vətənpərvər insan ömrünün dəyəri də elə bundadır.

***Mehparə ƏLİYEVA***
***XQ***

# Eldar Mansurovun "Simfonik qravürlər"i İstanbulu da fəth etdi

**İstanbul Atatürk Mədəniyyət Mərkəzində Azərbaycanın Xalq artisti, bəstəkar Eldar Mansurovun simfonik yaradıcılığına həsr olunan təntənəli konsert proqramı təşkil edilib. Qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ərsəyə gətirilən proqramı bəstəkarın "Simfonik qravürlər" layihəsi çərçivəsində gerçəkləşdirilib. Bəstəkarın yaradıcılığının müxtəlif mərhələlərini əhatə edən musiqi silsiləsində dinləyicilərə 14 əsər təqdim olunub.**

Simfonik əsərləri Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Fuad İbrahimovun idarəsi ilə İstanbul Dövlət Opera və Balet Orkestri səsləndirib. Konsertdə dünya şöhrətli tenor Yusif Eyvazov, soprano Hale Soner, eləcə də Türkiyənin məşhur sənətçilərindən Levent Yüksel səhnəyə çıxıblar. Gecənin ən yaddaqalan məqamlarından biri bəstəkarın dünya miqyasında tanınan "Bayatılar" əsərinin ifası olub. Türkiyədə "Zalim" adı ilə məşhurlaşan bu əsər Levent Yükselin ifasında salonda böyük coşqu yaradıb.



Sonda Eldar Mansurov səhnəyə çıxaraq proqramın təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib. Xatırladaq ki, "Simfonik qravürlər" layihəsi daha əvvəl Bakı, Budapeşt və Roma şəhərlərində uğurla təqdim olunub.

***XQ***

*Sənət və biz*

**Ötən əsrin fotoşəkillərində, sanki, zaman dayanıb. Gen yaxalıqlı palto geymiş kişilərin, sünbül saçlı qadınların, tində dayanmış uşaqların kameraya məsum baxışları bizi uzaq illərə çəkib aparır. Ayna təsvirli fotolarda bax beləcə ötənlərin bir anı əbədiləşib. Kadrlarda ağır kənd həyatı yaşayan bir əkinçi obyektivə gülümsəməklə, sanki, bütün çətinlikləri geridə qoyur.**

Fotoqrafiya heçliyə qarışmış zamanın geri qayıtmayacaq yaşamın izidir. Amma zamanın əksini bir düyməyə toxunmaqla gələcəyin aynasına həkk etmək bəşər tarixində önəmli bir istək kimi gerçəkləşib. Elə bu səbəbdəndir ki, fotoşəkillər illərin görüntülü xatirəsi tarixində önəmli bir istək kimi gerçəkləşib, misilsiz bir saxlanca çevrilib.

"Azərbaycan fotoqrafları" sərgisi bu sahənin beynəlxalq müstəviyə çıxışının ilk nümunələrindən oldu. 20 noyabr 1998-ci ildə, Bakı Fotoqrafiya Dərnəyinin yaranmasının 100 illiyinə təsadüf edən bir gündə Azərbaycan Fotoqrafları Birliyi təsis olundu. Bu da Azərbaycan fotoqrafiyasının yeni mərhələyə, rəqəmsal dövrə keçidini təmin etdi.

# Zamanın aynası, həyatın görüntülü saxlancı

Xatirələri əbədiləşdirən, bəzən ağ-qara, bəzən isə rəngli çəkilmiş fotoşəkillər arasında da müəyyən fərqlər var. 1906-cı il aprelin 3-də, 120 il əvvəl Lui və Ogüst Lümyer qardaşları tərəfindən "rəngli fotoqraf" adlandırılan "Avtoxrom" aparatı kəşf etməsi hər obyekti obyektivdə öz rəngi ilə əks etdirməyə imkan yaradıb.

Bu barədə, Azərbaycan Fotoqrafları Birliyinin (AFB) təsisçisi Mirnaib Həsənoğlu və AFB-nin üzvü Şahin Sərkərov rəngli fotoşəkillərin əhəmiyyəti, digərlərindən fərqi, ölkəmizdə fotoqrafiya sənətinin inkişafı barədə maraqlı məlumatlar verdilər.

**Mirnaib HƏSƏNOĞLU,**
**Azərbaycan Fotoqrafları Birliyinin təsisçisi:**



– Rəngli fotoqrafiyanın yaranması dünya tarixində dönüş nöqtəsidir. Çünki insanlar dünyanı yalnız ağ-qara fonda "görməyə" alışmış, sanki həyat iki rəngin sərhədində sıxışıb qalmışdı. Elə bu səbəbdən insan yenilik istədi, gördüyünü olduğu kimi, bütün çalarları ilə yadda saxlamaq arzusunu reallaşdırdı. Keçmiş artıq daha uzaq və soyuq görünmürdü. İnsanlar öz xatirələrini yenidən yaşamağa başladı. Bu gün biz rəngli şəkillərə baxarkən bunu adi qəbul edirik. Amma hər bir rəngin arxasında uzun illərin axtarışı, uğursuzluqları və nəhayət, uğuru dayanır.

Bu inkişaf yolunda çoxlarının bilmədiyi məqamlardan biri də Dmitri Mendeleyev kimi böyük alimlərin bu sahəyə olan marağıdır. Kimya elminin dühası yalnız elementlərin sirrini açmaqla kifayətlənməmiş, rənglərin də mahiyyətini anlamağa çalışmışdı. Onun rəngli fotoqrafiya üzərində apardığı eksperimentlər, əslində, elm və incəsənətin vəhdətinin gözəl nümunəsidir.

Bir vaxtlar fotoaparatın əsas missiyası "həqiqəti olduğu kimi göstərmək" idisə, bu gün o, daha çox "yeni həqiqət yaratmaq" vasitəsinə çevrilib. Xüsusilə rəngli fotoqrafiyada bu tendensiya daha aydın hiss olunur. Real həyatda gördüyümüz rənglərlə fotoşəkildə gördüklərimiz arasında məsafə getdikcə böyüyür. Günəşin sarısı, səmanın mavisi, torpağın təbii tonu çox zaman obyektivdə dəyişir, filtrlərin, presetlərin və rəng korreksiyasının süzgəcindən keçir.

Nəticədə isə ortaya daha cəlbedici, çox da real olmayan görüntü çıxır. Kommersiya fotoqrafiyası bu dəyişimin əsas səbəblərindən biridir. Sosial media platformaları, reklam sənayesi və vizual kontentin sürətli istehlakı fotoqrafları "satılan" rənglərə yönəldib. İsti tonlar daha da istiləşdirilir, soyuq tonlar dramatikləşdirilir, kontrast artırılır və nəticədə foto artıq gördüyümüz dünyanın deyil, görmək istədiyimiz dünyanın əksinə çevrilir.

2026-cı il fotoqrafiya tarixində simvolik məna daşıyır. Bu il dünya fotoqrafiyasının 200 illiyi, yəni insanın işıq vasitəsilə zamanı dondurmasının iki əsrlik tarixi qeyd olunur. Bu yolun başlanğıcı isə fotoqrafiyanın banilərindən Nicephore Niepcenin adı ilə bağlıdır. Azərbaycan fotoqrafiyasının isə 165 yaşı var. Bu tarix, ölkədə ilk fotoqrafik təcrübələrin başladığı dövrlərə gedib çıxır və müharibələrin, dəyişikliklərin, gündəlik həyatın və mədəniyyətin vizual salnaməsidir. Bu il dünya fotojurnalistikasının da 175 illiyi qeyd olunur.

Fotojurnalistika sadəcə "çəkib paylaşmaq" deyil, faktı görmək, düzgün anlamaq və cəmiyyətə vizual dil ilə çatdırmaq bacarığıdır. Təəssüf ki, bu sahə ölkəmizin reallığında hələ də sistemli şəkildə formalaşmayıb. Bu gün ölkəmizdə fotoqrafiya və xüsusilə fotojurnalistika üzrə akademik tədris ya ümumiyyətlə mövcud deyil, ya da formal xarakter daşıyır. Jurnalistika fakültələrində keçirilən dərslər müasir yanaşmadan uzaqdır. Halbuki Azərbaycanın fotoqrafiya sənətinin tarixi zəngin, kökləri dərindir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində, "Bakı neft bumu" dövründə fotoqrafiya sürətlə inkişaf etməyə başlamışdı. O dövrdə fəaliyyət göstərən "əksxanalar" sonradan fotopavilyonlara və studiyalara çevrilmişdi. Bakıda fəaliyyət göstərən Aleksandr Mişon, Yulian Zelinski, "Fotografiya Jorja Baku" adı ilə tanınan studiyalar və Fedor Kokovixin kimi fotoqraflar bu sənətin formalaşmasında mühüm rol oynamışlar. Onların obyektivində Bakı neft buruqları, küçələr və şəhər həyatının müxtəlif çalarları bu gün də tarix üçün qiymətli mənbədir.

1993-cü ildən sonra ölkəyə yeni foto texnologiyaları və materialların daxil olması bu sahəni əlçatan etdi. 1995-ci ildə Nant şəhərində keçirilən

Bu gün müasir Azərbaycan fotoqrafiyası yeni yolun başlanğıcındadır. Texnologiya var, imkanlar genişdir, maraq artır. Amma əsas məsələ dəyişmir, çünki bu sahənin sistemli inkişafı üçün təhsil, nəzəri baza və peşəkar yanaşma vacibdir. Çünki foto zamanın yaddaşı, cəmiyyətin güzgüsü və bəzən sözlərin deyə bilmədiyini danışan səssiz dilidir. Azərbaycanın fotoqrafiya tarixi bunu artıq sübut edib. İndi isə əsas məsələ bu irsi qorumaq, onu daha da inkişaf etdirməkdir.

**Şahin SƏRKƏROV,**
**AFB-nin üzvü, fotoqraf:**



– Fotoqrafiya sənətində ən çox müzakirə olunan suallardan biri ağ-qara, yoxsa rəngli fotoşəkillərin daha ifadəli olmasıdır. Bu sual ilk baxışda sadə görünsə də, əslində, fotoqrafın baxış bucağını, estetik seçimlərini və demək istədiyini müəyyənləşdirən əsas məsələlərdən biridir. Rəngli foto həyata daha yaxın görünür, reallığı olduğu kimi təqdim edir, təbiətin çalarlarını, zamanın ritmini, insanın emosiyasını rənglərin dili ilə çatdırır. Xüsusilə peyzajlarda rəngli foto daha təsirli olur, çünki səmanın mavisi, günbatımının narıncı çalarları, yaşıllığın canlılığı kadrı daha cazibədar edir.

Amma bu cazibə bəzən aldadıcı olur. Rəng diqqəti özünə çəkir və əsas ideyanı kölgədə qoyur. Fotoqrafın demək istədiyi fikir rənglərin "səs-küyü"ndə itib gedir. Bu baxımdan ağ-qara foto daha çətindir. Çünki burada yalnız işıq, kölgə, forma və kompozisiya var. Bu isə fotoqrafdan daha çox diqqət, güclü baxış və dəqiq qərar tələb edir.

Ağ-qara şəkil diqqəti yayındıran bütün detalları aradan qaldırır və tamaşaçını birbaşa mövzu ilə üz-üzə qoyur. Portretdə bir baxış, arxitekturada işıq və kölgənin oyunu, küçə fotoqrafiyasında bir anın dramatizmi ağ-qara formatda daha güclü hiss olunur. Xüsusilə, arxitektura çəkilişlərində işıq-kölgə balansı düzgün qurulduqda, ağ-qara foto binanı daha "canlı" və təsirli göstərir.

Rəngli fotoqrafiya isə tamam fərqli ustalıq tələb edir. Burada əsas məsələ yalnız kadrı qurmaq deyil, rəngləri də "idarə etməkdir". Rənglərin bir-biri ilə uyğunlaşması, təsvirin daha ifadəli olması fotoqrafın zövqündən və təcrübəsindən asılıdır. Məsələn, qırmızı ilə qara birlikdə güclü və dinamik təsir yaradır, sarı qara ilə birgə diqqətçəkən kontrast verir. Bu artıq fotoqrafın rəng duyumunun incəliyidir.

Müasir dövrdə gənc fotoqraflar arasında texniki imkanlara həddindən artıq önəm verilir. Bu gün bir çox gənc fotoqraf rənglərin "qışqırmasına" üstünlük verir. Amma bu cəlbedicilik çox zaman süni təsir bağışlayır. Çünki rənglərin harmoniyası, onların bir-biri ilə uyğunluğu nəzərə alınmadıqda, kadr öz təbii balansını itirir.

Bu gün foto çəkildikdən sonra uzun saatlar kompüter qarşısında işlənir, "Photoshop" proqramlarında kadrın böyük hissəsi dəyişdirilir. Bəzən bu müdaxilə o həddə çatır ki, artıq ortaya çıxan görüntü fotoqrafın çəkdiyi deyil, proqramın yaratdığı bir təsvirə çevrilir. Əgər bir şəkil 60-70 faiz proqram müdaxiləsi ilə formalaşırsa, bu artıq fotoqrafiyanın təbii ruhundan uzaqlaşmaq deməkdir.

Bu gün texnologiyanın inkişafı ilə yanaşı, süni intellekt də fotoqrafiyaya daxil olub. Süni şəkildə yaradılan görüntülər bəzən estetik baxımdan maraqlı görünsə də, onlarda həyatın nəfəsi hiss olunmur. Çünki fotoqrafiyanın dəyəri o anın reallığında, hissində və yaşanmışlığındadır.

Fotoqrafiya sənəti, əslində, rəssamlıq ilə kinematoqrafiya arasında bir hissədədir. Rəssam saatlarla bir portret və ya peyzaj üzərində işləyir, fotoqrafiya isə bu prosesi sürətləndirdi, bir anı saniyələr içində yaddaşa həkk etdi. Daha sonra isə bu "donmuş anlar" hərəkətə gətirilərək kino yarandı. Lakin bu qədər dərin tarixi və estetik dəyərə malik olmasına baxmayaraq, cəmiyyətdə fotoqrafiyaya münasibət bəzən səthi qalır.

Avropada və ümumiyyətlə, dünyada fotoqrafiya rəssamlıq və kino ilə eyni səviyyədə qəbul olunur. Orada fotoqraflar üçün böyük sərgilər, beynəlxalq müsabiqələr, prestijli mükafatlar təşkil olunur. Azərbaycanda isə bu sahədə genişmiqyaslı fotomüsabiqələr keçirilmir. Belə platformalar gənc fotoqrafların inkişafı, təcrübə mübadiləsi və motivasiyası üçün olduqca vacibdir.

Fotoqrafiya sənətinin inkişafı üçün yalnız texnika deyil, həm də mühit, dəstək və düzgün yanaşma lazımdır.

***Ləman TƏHMƏZ***
***XQ***

*"Şəhərsalma və Memarlıq İli"*

# Şirvan abadlaşır, gözəlləşir

**Prezident İlham Əliyevin sərəncamı ilə elan olunan "Şəhərsalma və Memarlıq İli" çərçivəsində ölkəmizin bütün bölgələrində olduğu kimi, Şirvan şəhərində də genişmiqyaslı abadlıq və yenidənqurma işlərinin həyata keçirilməsi nəzərdə tutulub. İlin əvvəlindən başlayaraq şəhərdə bu istiqamətdə mühüm işlər həyata keçirilir.**

Abadlıq-quruculuq tədbirləri çərçivəsində qısa vaxt ərzində "Bakı Abadlıq" MMC tərəfindən şəhər ərazisində uzun müddət təmir olunmamış 111 çoxmənzilli yaşayış binasının dam örtüklərinin yenilənməsi ilə bağlı mühüm işlər görülüb. Şəhər icra hakimiyyətindən verilən məlumata görə, nəzərdə tutulan layihəyə əsasən həmin binaların mövcud dam örtükləri ağac konstruksiyalı metal çardaqlı yeni örtüklərlə əvəz ediləcək. Bununla yanaşı, şəhər üzrə 143 çoxmənzilli yaşayış binasının fasadlarının, giriş hissələrinin və pilləkən qəfəslərinin təmir olunması da nəzərdə tutulub.



Hazırda şəhərin 20 Yanvar, Tofiq İsmayılov və Nəriman Nərimanov küçələrində olan 6 çoxmənzilli yaşayış binasının fasad və dam hissələrində əsaslı təmir işləri aparılır. O da bildirildi ki, həyata keçiriləcək bu işlər şəhərin memarlıq görünüşünün yaxşılaşdırılmasına, yaşayış binalarının texniki vəziyyətinin gücləndirilməsinə və sakinlər üçün daha təhlükəsiz, rahat yaşayış mühitinin formalaşdırılmasına mühüm töhfə verəcəkdir.



Görülən işləri yüksək qiymətləndirən şəhər sakinləri bunu dövlət başçısının tapşırığı əsasında ölkənin böyük sənaye bölgəsi olan Şirvan şəhərinin inkişafına göstərilən diqqət və qayğının növbəti təzahürü kimi dəyərləndirirlər. Elə şəhər icra hakimiyyətinin müvafiq şöbəsindən də bildirildi ki, ilin əvvəlindən həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri Şirvan şəhərinin simasının gündən-günə yeniləşməsinə səbəb olur. Bu da sakinlərin və qonaqların dərin razılığına səbəb olur.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# "Ruhum göylər əmanəti"

**Tanınmış qələm sahibi, Azərbaycan Jurnalistlər Birliyi Sumqayıt şəhər təşkilatının sədri, Əməkdar jurnalist, şair Rafiq Oday "Ruhum göylər əmanəti" adlı yeni kitabını oxuculara ərməğan edib.**

Rafiq Odayın bundan öncə "Bir yol başlamışam", "Gecələr içimə göyüzü yağar", "Ömür gedir öz köçündə", "Şərur folkloru – Rafiq Odayın təqdimatında", "Qarabağ şikəstəsi", "Xatirələr işığında", "3 Aprel günəşi", "Əlli min də qayğısı var əllimin", "Ədəbi-tənqidi məqalələr", "Həyatın yaşama düsturu" və "Qərib ruhların nəğməsi", "Tanrının yerdəki mələyi" və "Ağrıların simfoniyası" və s. kitabları işıq üzü görüb. "Elm və təhsil" nəşriyyatında çap olunmuş 320 səhifəlik "Ruhum göylər əmanəti" adlı topluda müəllifin çağdaş poeziyamıza üzağlığı gətirə biləcək qoşma və gəraylılar, qəzəl və rübailər, sonetlər ipə-sapa düzülüb. Şeirlərin hansı janrda yazılmasından asılı olmayaraq, Rafiq Odayın bədii nümunələri təbiiliyi və səmimiliyi ilə diqqət çəkir.




***Bu çiyindi, bu baş – ayır,***
***Bu qurudu, bu yaş, ayır,***
***Yaxşı-pis hamı yaşayır,***
***Əsl insan yaşadandı.***

***Ə.NƏCƏFXANLI***
***XQ***

**AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ**

*ştatda boş olan aşağıdakı vəzifələri tutmaq üçün*

**MÜSABİQƏ ELAN EDİR**

**– "Ekologiya və coğrafiya" kafedrası – kafedra müdiri.**

Sənədlər bu elan dərc olunan gündən 1 ay müddətində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları"na uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Telefon:** (012) 561-29-72.

**Ünvan:** AZ-1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93, 205-ci otaq.

***Rektorluq***

Azərbaycan Respublikasının Prezidenti yanında

**Dövlət İdarəçilik Akademiyası**

*aşağıdakı kafedralarda vakant vəzifələrin tutulması üçün*

**MÜSABİQƏ ELAN EDİR**

**1.** "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrası – kafedra müdiri

**2.** "Tarix" kafedrası – kafedra müdiri

Müsabiqədə elan edilən vəzifələrə qəbul "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 403 saylı əmrinə əlavə 1) uyğun olaraq aparılır.

Müsabiqədə kafedra müdiri vəzifələrinin tutulması üçün bu istiqamətlər üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər iştirak edə bilər. Sənədlər bu elan dərc edilən gündən bir ay müddətində təqdim olunur. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana və ya sakit.aliyev@dia.edu.az elektron poçtuna təqdim etməlidirlər.

**Telefon:** 492-76-03.

**Ünvan:** Bakı şəhəri, Lermontov küçəsi 74, 23-cü otaq.

**ABŞ və İran arasında qarşılıqlı təhdidlərin sərtləşməsi, region ölkələrinin təhlükəsizlik tədbirlərini gücləndirməsi və paralel olaraq diplomatik təşəbbüslərin gündəmə gəlməsi vəziyyətin çoxşaxəli, eyni zamanda, qeyri-müəyyən xarakter aldığını göstərir. Hərbi əməliyyatların intensivləşməsi ilə yanaşı, tərəflərin həm güc nümayişi, həm də mümkün razılaşma yollarını açıq saxlaması regionun gələcəyini müəyyən edəcək əsas amillər kimi ön plana çıxır. Bu kontekstdə aprelin 2-də baş verənlərə xarici medianın gözgüsündə nəzər yetirək.**

# Yaxın Şərqdə "raket yağışı" daha da şiddətlənib

## *Tərəflər razılaşma yollarını da bağlamayıb*

**"The Washington Post":** "ABŞ İrana qarşı əməliyyatın əsas məqsədlərinə çatmağa yaxındır". Bunu Prezident Donald Tramp xalqa müraciətində bildirib. Onun sözlərinə görə, İranın çox az raketi qalıb, İslam Respublikasının hərbi donanması isə mövcud deyil: "Amerika hərbi ekspertləri mənə dedilər ki, əgər mən vaxtında İrana zərbə endirməsəydim, İsrail mövcud olmazdı. Mən başqa heç bir prezidentin hazır olmadığı bir şeyi etdim. İran rəhbərliyi razılığa gəlmək üçün bütün cəhdləri rədd etdi və bu səbəbdən mən iyun ayında əməliyyat əmri verdim".

**"Al-Arabia":** Birləşmiş Ərəb Əmirliklərində KEZAD xüsusi iqtisadi zonasında Hava Hücumundan Müdafiə sistemləri tərəfindən raketin ələ keçirildiyi bildirilib. Bu barədə Əbu-Dabi hökumətinin mətbuat xidməti məlumat yayıb. Məlumatda qeyd olunub ki, raketin HHM sistemləri tərəfindən uğurla ələ keçirilməsindən sonra Xəlifə iqtisadi zonası ərazisindəki insidentə reaksiya verib. Nəticədə cüzi ziyan dəyib və heç kim xəsarət almayıb.



**"Politico":** Prezident Donald Trampın alyansa qarşı sərt açıqlamalarına baxmayaraq, Birləşmiş Ştatlar indiyə qədər NATO-dakı iştirakını azaltmaq üçün konkret addım atmayıb. Prezidentin bütün təhdidlərinə və müttəfiqlərin (İrana qarşı) ABŞ hərbi kampaniyasını dəstəkləməkdən imtina etməsinə qarşı qəzəbinə baxmayaraq, onun açıqlamaları heç bir praktik addımla üst-üstə düşməyib.

**"SEPAH":** İranın Hava Hücumundan Müdafiə vasitələri Şiraz şəhərinin səmasında İsrailin "Hermes 900" pilotsuz uçuş aparatını (PUA) ələ keçirib. İranın İslam İnqilabı Keşikçiləri Korpusunun məlumatına görə, bir ədəd qabaqcıl "Hermes 900" PUA-sı Şiraz səmasında müasir HHM sistemi tərəfindən ələ keçirilərək məhv edilib.

**"TASNİM":** İran Asiya, ərəb və bəzi Avropa ölkələri ilə Hörmüz boğazından istifadə barədə razılaşmaların bağlanmasına hazırdır. Bunu hökumətin informasiya şurasının rəhbəri Əlyas Xəzrəti bəyan edib. O deyib ki, belə şəraitdə "Hörmüz paktı" adlı regional və beynəlxalq mexanizmin planlaşdırılması və yaradılması istiqamətində irəliləmək olar: "Bu pakt İranın idarəçiliyi altında və region ölkələrinin, Asiya və ərəb ölkələrinin, hətta bu strateji yoldan istifadə edən bəzi Avropa oyunçularının iştirakı ilə baş tuta bilər".

**"CNN":** Əvvəllər mətbuat tərəfindən İran məsələsində əsas danışıqçı kimi xarakterizə edilən ABŞ-ın vitse-prezidenti Vens İran tərəfinə "sərt mesaj" göndərib və 15 bəndlik razılaşmanı rədd edəcəyi təqdirdə ABŞ-nin İranın infrastrukturuna təzyiqi artıracağını bildirib.

**"Al Jazeera":** Ağ Ev administrasiyasının İran hakimiyyətinə mövcud qarşıdurmanın mümkün həlli üçün irəli sürdüyü tələblər ədalətsizdir. Bunu İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İsmail Bəqayi bildirib. O qeyd edib ki, bu tələblər heç bir güzəştə imkan vermir.

**"Reuters":** ABŞ növbəti iki-üç həftə ərzində İrana hərbi zərbələrinin intensivliyini əhəmiyyətli dərəcədə artırmağı planlaşdırır. Prezident Donald Tramp bunu Amerika xalqına telemüraciətində bildirib: "Növbəti iki-üç həftə ərzində onlara fövqəladə güclə zərbə endirəcək, onları daş dövrünə qaytaracağıq".

**"IRNA":** İran ABŞ və İsrailə qarşı fəaliyyətlərini əhəmiyyətli dərəcədə genişləndirəcək və intensivləşdirəcək. Bunu İran Silahlı Qüvvələrinin Baş Qərargahının nümayəndəsi Ebrahim Zülfüqari ABŞ Prezidenti Donald Trampın "İranı daş dövrünə qaytaracağıq" hədəli bəyanatını şərh edərkən deyib. "Daha qətiyyətli, genişmiqyaslı və dağıdıcı hərəkətlər gözləyin", – deyən Zülfüqari müharibənin düşmənin tam alçaldılmasına qədər davam edəcəyini bildirib.

**"Fars":** ABŞ və İsrailin İrana qarşı birgə əməliyyatı nəticəsində SEPAH-ın "Fatehin" xüsusi bölməsinin komandanı general Məhəmməd Əli Fəthəlizadə öldürülüb. Qeyd olunub ki, o, 1 aprel tarixində həlak olub.

**"Ynet":** Radikal "Hizbullah" qruplaşması İsrailin şimal hissəsinə təxminən 80 raket atıb. Bildirilib ki, bəzi raketlər ələ keçirilib, bir hissəsi açıq ərazidə partlayıb. Qeyd olunub ki, Kiryat-Şmona şəhərində bir neçə raket hədəflərə dəyib.

**"Guardian":** ABŞ İranın hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemlərinin əhəmiyyətli hissəsini məhv edib. Bunu CENTCOM-un rəhbəri Bred Kuper bəyan edib. Onun sözlərinə görə, ABŞ və İsrailin İrana qarşı əməliyyatının beş həftəsi ərzində Vaşinqton nəzərəçarpan irəliləyişə nail olub: "İndi, əməliyyatın beşinci həftəsində biz danılmaz irəliləyişə nail oluruq. Onların donanmasının üzdüyünü, təyyarələrinin uçduğunu görmürük. Hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri isə xeyli hissəsi məhv edilib".

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

**"Xəzər-Lada" ASC səhmdarlarının nəzərinə!**

**19 may 2026-cı il saat 12.00-da "Xəzər-Lada" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir. Yığıncaq Xırdalan şəhəri, Bakı-Sumqayıt şosesinin 16-cı kilometrliyində cəmiyyətin inzibati binasının konfrans zalında olacaqdır.**

**Yığıncağın gündəliyi:**

**1.** İllik hesabat.
**2.** Təftiş komissiyasının illik aktının müzakirəsi.
**3.** ASC-nin prezidentin (idarə heyətinin sədrinin) seçilməsi.
**4.** İdarə heyətinin yeni tərkibinin seçilməsi.
**5.** Müşahidə şurasının yeni tərkibinin seçilməsi.
**6.** Təftiş komissiyasının yeni tərkibinin seçilməsi.
**7.** Dividend və mükafatların verilməsi.
**8.** Kənar auditorun təsdiq edilməsi.

Səhmdarlar yığıncağın gündəliyinin materialları ilə cəmiyyətin mühasibatlığında tanış ola bilərlər.

Ümumi yığıncağa şəxsiyyət vəsiqəsi ilə gəlmək xahiş edilir.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 55 (31024) 3 aprel 2026-cı il, cümə

## İDMAN

# Nazir idmançılarla görüşüb



**Aprelin 2-də gənclər və idman naziri Fərid Qayıbov ötən ay ərzində beynəlxalq yarışlarda yüksək nəticələr əldə etmiş idmançılarla görüşüb.**

Azərbaycan İdman Akademiyasında təşkil olunan görüş Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca "Azərbaycan Əməkdar idman ustası", "Azərbaycan Respublikasının İdman ustası" dərəcəsinə layiq görülmüş şəxslərə müvafiq vəsiqə və döş nişanlarını təqdim edib.

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, daha sonra çıxış edən Fərid Qayıbov beynəlxalq arenalarda uğur qazanan idmançıları və onların məşqçilərini təbrik edib. Nazir bildirib ki, mart ayı ərzində Azərbaycan Respublikasının Dövlət Himni 12 ölkədə səsləndirilib. Həmin dövrdə idmançılarımız ümumilikdə 40 qızıl, 35 gümüş və 43 bürünc medal qazanıblar.

Beynəlxalq arenalarda qazanılmış nailiyyətləri əks etdirən videoçarx nümayiş olunub. Bir sıra idman növlərinin nümayəndələri çıxış etdikləri yarışlar və nəticələri barədə məlumat veriblər.

Sonda Fərid Qayıbov idmançılara qarşıdakı yarışlarda daha böyük qələbələr arzulayıb.

# Fiziki-psixoloji bərpa əməkdaşlığı



**Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsi ilə Azərbaycan Badminton Federasiyası arasında əməkdaşlıq memorandumu imzalanıb.**

Memorandumun əsas məqsədi əqli imkanları məhdud şəxslərin badminton vasitəsilə reabilitasiyasını və fiziki-psixoloji inkişafını dəstəkləmək, idmançılar üçün əlçatan və sağlam mühit yaratmaq, həmçinin inklüziv idmanın inkişafını təşviq etməkdir.

Sənəd çərçivəsində tərəflər ölkədə badmintonun inkişafı, əqli imkanları məhdud şəxslərin bu idman növünə cəlb olunması, birgə layihə və proqramların həyata keçirilməsi istiqamətində əməkdaşlıq edəcəklər. Bununla yanaşı, maarifləndirici tədbirlərin, təlim və seminarların təşkili, məşqçilər və mütəxəssislər üçün peşəkar inkişaf imkanlarının yaradılması da nəzərdə tutulur.

Memorandum Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsinin prezidenti Mövlud Mirəliyev və Azərbaycan Badminton Federasiyasının baş katibi Əjdər Cəfərov tərəfindən imzalanıb.

# Böyük İpək Yolu turnirinin açılışı



**Bakıda kişi və qadın boksçular arasında ənənəvi Böyük İpək Yolu beynəlxalq turnirinin açılış mərasimi keçirilib. Mərasim iştirakçı komandaların paradı ilə başlayıb.**

Ardınca çıxış edən Azərbaycan Boks Federasiyası (ABF) prezidentinin müşaviri Samir Hüseynov yarışın əhəmiyyətindən danışıb, turnirə güclü komandaların qatıldığını deyib.

Yarışın bolqarıstanlı supervayzeri Svetoslav Sapoundjiyev Təşkilat Komitəsinə minnətdarlığını bildirib, iştirakçılara uğurlar arzulayıb.

Dövlət Himni səsləndirildikdən sonra turnir açıq elan olunub.

Qeyd edək ki, Boks Mərkəzində keçirilən turnir aprelin 7-də başa çatacaq. Yarışda Azərbaycan, Avstraliya, Əlcəzair, Bolqarıstan, Gürcüstan, Macarıstan, Qazaxıstan, Moldova, Türkiyə və Özbəkistan milli komandaları güclərini yoxlayırlar. Kişi boksçular 10, qadınlar 4 çəki dərəcəsində qalibi müəyyənləşdirəcəklər.

126 idmançının qatıldığı turnirdə döyüşlər hər gün saat 15:00-da başlayacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Biz deməsək...*

# Bayram günləri əyləncə, xoş əhval fürsəti idi

**11 gün bayram oldu… İnsanların dincəlməsi, şəhərin canlanması, qonaqların axını üçün nadir bir fürsət düşmüşdü. Elə isə Gəncə və Gəncəbasar bu 11 gündə necə görünürdü?**



Çal-çağırlı, hamıya gəl-gəl deyən, park və xiyabanlarda əyləncələr, idman yarışları, məktəblilərin əl işlərindən ibarət sərgi-satışlar, görməli yerlərə ekskursiyalar. Beləmi görünürdü? Yox, elə buradaca saxlayaq. Çünki bunların heç biri olmadı. Bəs nə oldu, nə var idi?

Sükut. Dəqiq desək, kompası olmayan və "hara gedək?" sualı ilə təkbətək qalan insanlar var idi…

Gəncədə bu işlərə bilavasitə məsuliyyət daşıyan 4 əsas regional idarə var: mədəniyyət, təhsil, gənclər və idman, bir də turizm. Əslində, bayram günləri mədəniyyətin ən çox görünməli olduğu vaxtdır. Parklar dolmalı, musiqilər səslənməli, teatr tamaşaları göstərilməli və bunun üçün səhnələr qurulmalı idi. Sistemli konsert proqramları yox idi. Açıq hava tədbirləri ya yox səviyyəsində idi, ya da epizodik.

İstər-istəməz sual yaranır: görəsən mədəniyyət idarəsi bu 11 günü əvvəlcədən planlaşdırmayıbmı? Planlaşdırıbsa, hanı?

Yaxud təhsil idarəsi. Əslində, elə bir fəaliyyəti ilə diqqət çəkmir, məktəblərdə problemlər, nöqsanlar kifayət qədərdir. Heç olmasa, bu 11 gündə desəydi ki, "mən də varam", yenə dərd yarı idi. Bu müddətdə məktəblilər üçün ekskursiyalar təşkil oluna bilərdi, intellektual oyunlar, açıq dərslər keçirilə bilərdi.

Bəs Gənclər və İdman? Potensialdan niyə istifadə olunmadı? Axı Gəncə gənclər şəhəridir. Amma nə olsun, bayram günlərində açıq turnirlər olmadı. Kütləvi idman aksiyaları görünmədi. Gənclər üçün elə bir cəlbedici tədbirlər təşkil edilmədi…

Bayram turizm üçün də qızıl dövrdür. Göygöl, Naftalan kimi məkanlara yaxınlıq böyük üstünlükdür. Amma şəhər turları yox idi, turistlər üçün informasiya çatışmırdı, istiqamətləndirici proqramlar görünmürdü…

Bilirsiniz niyə belə olur? Çünki bu regional idarələr olsa da, ortada vahid proqram yoxdur, bir-birini tamamlayan tədbirlər yoxdur, şəhər üzrə ümumi "bayram strategiyası" yoxdur. Belə olanda



idarələr "işləyir" kimi görünür, amma nəticə yoxdur. Bəli, bu 11 gün insanların sosial həyatı üçün imkan idi. Gəncənin və Gəncəbasarın imici üçün şans idi…

Amma bu imkanlar ya görülmədi, ya da dəyərləndirilmədi. Təəssüf. Ona görə təəssüf ki, bu artıq sadəcə "çatışmazlıq" deyil, idarəetmə problemi, məsuliyyət məsələsidir.

*Hamlet QASIMOV,*
*XQ-nin Gəncəbasar müxbiri*

# Arxeoloqların aşkar etdiyi məzar d'Artanyanındırmı?

**Fransa–Hollandiya müharibəsi zamanı həlak olmuş məşhur hərbi xadim – şevalye d'Artanyanın ehtimal edilən dəfn yeri ilə bağlı yeni arxeoloji tapıntı elmi ictimaiyyətdə maraq doğurub. Maastrixt şəhərində aşkar edilən skeletin xüsusiyyətləri onun ölüm səbəbi ilə formal uyğunluq göstərir. Tədqiqatçılar yaxın vaxtlarda aparılacaq DNT analizinin bu hipotezanı qəti şəkildə təsdiqləyə biləcəyini bildirirlər.**

Tarixi mənbələrə görə, Qaskoniyadan olan Şarl de Bats özünü heç vaxt Aleksandr Dümanın "Üç muşketyor" romanında təqdim edildiyi kimi d'Artanyan adlandırmayıb. Bu titul ona yalnız 1639-cu illər ətrafında hərbi xidmətlərinə görə Fransa kralı tərəfindən "şevalye d'Artanyan" kimi verilib. Ədəbi təsvirlərdən fərqli olaraq, onun kardinal Rişelye dövründə fəaliyyəti barədə etibarlı məlumat yoxdur. Daha sonra o, kardinal Mazarinin xidmətində yüksələrək əsasən kəşfiyyatçı, siyasi intriqaların təşkilatçısı və faktiki olaraq improvizə olunmuş gizli xidmətin rəhbəri kimi tanınıb. Eyni zamanda, tabeliyindəki bölmələrdə hərbi hazırlıq sistemini yenidən quraraq onları Avropanın müxtəlif ölkələrindən aristokratların qoşulmaq istədiyi nümunəvi hissələrə çevirib.

Sonrakı dövrdə Şarl de Bats XIV Lüdovikin xidmətində daha da irəli çəkilib. O, əvvəlcə "boz", daha sonra isə "qara" muşketyor rotalarına rəhbərlik edib. Onun nüfuzu o qədər yüksək idi ki, kralın baş nazir postuna iddia edən şəxsin həbs olunması tapşırığı məhz ona həvalə edilmişdi. 1673-cü ildə,



təxminən 60 yaşında olarkən, Fransa ilə Hollandiya arasındakı müharibə zamanı Maastrixt mühasirəsində iştirak etmişdi. Fransız komandanlığının uğursuz hücumu zamanı de Bats başından (bəzi mənbələrə görə boğazından) güllə yarası alaraq həlak olmuşdu. Həmin döyüşdə 300 kral muşketyorundan 80-i öldürülmüş, 50-yə yaxın döyüşçü ağır yaralanmışdı.

İndi isə Maastrixt şəhəri daxilində Müqəddəs Pyotr və Pavel kilsəsində, döşəmənin altında yerləşən qəbir aşkar edilib. Döşəmə plitələrinin zədələnməsi səbəbindən aparılan qazıntılar zamanı altarın altında nadir hallarda istifadə olunan dəfn yeri üzə çıxıb. Belə yerlər adətən yalnız yüksək statuslu və ya tanınmış şəxslər üçün nəzərdə tutulurdu. Bu fakt, eləcə də Fransa kralının kraliçaya yazdığı məktubda de Batsın ölümünə görə xüsusi təəssüf bildirməsi, onun bu cür ehtiramlı dəfnə layiq görülə biləcəyini göstərir.

Arxeoloqların diqqətini cəlb edən mühüm faktorlardan biri skeletin döş qəfəsi nahiyəsində tapılan muşkət gülləsi olub. Bundan başqa, sümüklər arasında 1660-cı ilə aid Fransa zərbəli sikkə də aşkarlanıb. Bəzi mənbələrdə bu sikkənin məhz şevalye d'Artanyanın məzarına qoyulduğu qeyd olunur. Bununla belə, alimlər yekun nəticə çıxarmağa tələsmir və dəqiq identifikasiya üçün DNT analizinin nəticələrini gözləyirlər. De Bats nəslinin bu günə qədər yaşayan çoxsaylı nümayəndələri olduğundan, müqayisəli genetik analiz aparmaq mümkündür. Tədqiqatçılar DNT nümunəsini skeletin çənə sümüyündən götürməyi planlaşdırırlar.

Ehtiyatlı yanaşmanın səbəbi də var. Şevalye d'Artanyanın məhz bu kilsədə dəfn edilməsi ehtimalı fransız tarixçisi tərəfindən 18 il əvvəl irəli sürülmüş, lakin konkret mənbə sübutları ilə təsdiqlənməmişdi. Hipoteza yalnız kilsənin fransız qoşunlarının Maastrixt mühasirəsi zamanı yerləşdiyi düşərgəyə ən yaxın ibadət məkanı olması faktına əsaslanırdı. Bu ilin fevralında kilsə döşəməsinin çökməsi və altında yerləşən strukturların araşdırılması zərurəti yaranana qədər bu versiya ciddi şəkildə yoxlanılmamışdı. İndi isə arxeoloji tapıntı və gözlənilən genetik analiz nəticələri tarixi şəxsiyyətin dəfn yerinin müəyyənləşdirilməsi üçün yeni imkanlar açır.

*Hazırladı:*
*Səbuhi MƏMMƏDOV*
*XQ*

## HAVA

# Bakıda arabir duman, dağlıq rayonlarda isə az yağış...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 10-13, gündüz 16-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 8-12, gündüz 21-26, dağlarda gecə 0-5, gündüz 8-13 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyev Milli Məclis sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Rauf Quliyevə atası

**RƏHİM QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Arif Həşimov Cuvarlinskilər ailəsinə, əzizləri

**RAFAT CUVARLİNSKİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Milli Məclis sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə və rayon ictimaiyyətinin nümayəndələri Xalq artisti

**RASİM BALAYEVİN**

vəfatından kədərləndiklərni bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclis sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

✓ *Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Əliyeva Sevda Əbdülrəhman qızının adına verilmiş gəmi bileti (seriya nömrəsi AA10121) itdiyi üçün etibarsız sayılır.*

✓ *1981-ci il oktyabrın 29-da "Azərbaycan müəllimi" qəzeti redaksiyası tərəfindən Qasımova Ellada Kamil qızının adına verilmiş ИТ-1067831 nömrəli əmək kitabçası itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2955
SİFARİŞ 400
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00